RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 212 (9667) 28 sentyabr 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Vətən övladlarının xatirəsi ehtiramla yad edilir




## Prezident İlham Əliyev Zəfər parkında olub

**Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda inşası davam etdirilən Zəfər parkında olub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı parkın girişində xatirə daşının önünə gül dəstəsi qoydu.

Qeyd edək ki, Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılmış Vətən müharibəsinin başlamasından dörd il ötür. Xalqımız Azərbaycanın ərazi bütövlüyü, Qarabağın azadlığı naminə canından keçmiş Vətən övladlarının xatirəsini ehtiramla yad edir. Bakının 8 Noyabr prospektində inşası davam edən Zəfər parkı da bu ehtiramın təcəssümüdür.

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı sərəncamla inşası davam etdirilən layihəyə əsasən, torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində Zəfər muzeyi də yaradılır. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.

## Birinci vitse-prezident Mehriban Əliyeva 27 Sentyabr - Anım Günü ilə əlaqədar paylaşım edib




**Birinci vitse-prezident Mehriban Əliyeva 27 Sentyabr - Anım Günü ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Vətən uğrunda həlak olmuş qəhrəmanlarımızın əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır! Allah bütün şəhidlərimizə rəhmət eləsin!"

## Prezident İlham Əliyev bir daha bəyan etdi

### İqtisadi artım yüksəkdir, qeyri-neft sektorunun inkişafı davam edir, inflyasiya minimumdur, xarici borcumuz aşağıdır

Regionda infrastruktur layihələri geniş vüsət alıb. Belə ki, artıq 3 min kilometr avtomobil yolu inşa edilib. Ümumi layihələrin sırasında 45 tunelin tikintisi yer alır və onların ümumi uzunluğu 70 kilometrdir. Eləcə də 450 körpünün inşası nəzərdə tutulur. Dəmir yolları, iki beynəlxalq hava limanı istifadəyə verilib.

Dövlətimizin başçısı son illər ərzində xarici neft şirkətləri tərəfindən həyata keçirilən layihələrdə hasilatın azalmasının ümumi iqtisadi inkişaf templərimizə mənfi təsir göstərdiyinə də toxunaraq demişdir: "Biz bu tənəzzülü qeyri-neft sektorunun inkişafı ilə tənzimləyirdik. Ancaq neft hasilatında buraxılmış nöqsanlar xarici neft şirkətləri ilə aparılan danışıqlar nəticəsində onların diqqətinə çatdırılmış və onlardan tələb edilmişdir ki, bu nöqsanlar aradan qaldırılsın, neft hasilatının sabitliyi təmin edilsin. Son aylar ərzində bu istiqamətdə çox fəal iş aparılırdı. Bu işin nəticəsi olaraq əsaslı ümidlər yaranmışdır ki, daha bundan sonra heç bir əsası olmadan neft hasilatında tənəzzül olmayacaq. Təbii olaraq hökumət qurumları və Dövlət Neft Şirkəti bu işlərin gələcək gedişatına da daim diqqət yetirəcək. Beləliklə, bizim iqtisadi inkişaf templərimizi geriyə çəkən əsas amil ümid edirəm ki, aradan qaldırılacaq və gələn il sabit neft hasilatı təmin edilməlidir.

→ 4

## Mövcud reallıq bizə silahı yerə qoymamağı diktə edir

44 günlük Vətən müharibəsi və Qarabağda 2023-cü il sentyabrın 19-20-də aparılan antiterror əməliyyatı ilə biz ərazi bütövlüyümüzü və dövlət suverenliyimizi tam bərpa etdik. Bu döyüşlər zamanı Ermənistan ordusu fiziki və mənəvi cəhətdən darmadağın oldu. Ermənistandakı revanşist qüvvələr nə qədər atılıb-düşsə də, bizə elə bir təhlükə yaratmır, təbii ki, kənar araqızışdıranlar olmasa. Həmin araqızışdıranlar bu gün gizli və açıq şəkildə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanmasına mane olaraq Cənubi Qafqazı yenidən qan çanağına çevirmək istəyirlər. Prezident İlham Əliyev də 7-ci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı nitqində bildirdi ki, Ermənistanda revanşist qüvvələr yenidən baş qaldırıb və onlar təkcə marginal revanşist qüvvələr deyil, həm də Ermənistan hakimiyyətinin təmsilçiləridirlər.

→ 6

## Ermənistan sülh müqaviləsini imzalamağı bilərəkdən ləngidir

Göründüyü kimi, Ermənistan məqsədyönlü şəkildə sülh prosesini pozur. Sülh sazişi layihəsi ilə bağlı Ermənistanın son cavabının 70 gün sonra Azərbaycana təqdim olunması da bundan xəbər verir. Son vaxtlar həm Ermənistanda, həm də ona havadarlıq edən ölkələrin parlamentlərində, siyasi dairələrində "Dağlıq Qarabağ" ifadəsinin yenidən tez-tez səsləndirilməyə başlanması, Paşinyan və Mirzoyanın Azərbaycanın Qarabağda antiterror əməliyyatları aparmasının ildönümündə mifik "etnik təmizləmə"dən bəhs etməsi, Ermənistanın Azərbaycanla şərti sərhəddə atəşkəsi tez-tez pozması, ABŞ və Fransa zabitlərinin Ermənistan ordusunda təlimlər keçirməsi, Ermənistan hakimiyyətinin konstitusiya dəyişikliklərinə getməməsi, eləcə də İrəvanın Minsk qrupunun ləğvi ilə bağlı təklifimizə müsbət cavab verməkdən yayınması və s. hallar Ermənistan tərəfinin sülhə yox, müharibəyə hazırlaşdığını göstərir. Təəssüf ki, rəsmi İrəvan bu kimi məsuliyyətsiz addımları ilə məqsədyönlü şəkildə vaxtı uzatmağa çalışır.

→ 12

# Dövlət və hökumət rəsmiləri Bakıda inşası davam etdirilən Zəfər parkında olublar



**27 Sentyabr - Anım Günü ilə əlaqədar sentyabrın 27-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, Milli Məclisin Sədri Sahibə Qafarova, digər dövlət və hökumət rəsmiləri Bakıda inşası davam etdirilən Zəfər parkında olublar.**

AZƏRTAC xəbər verir ki, dövlət və hökumət rəsmiləri xatirə daşının önünə gül dəstələri düzərək şəhidlərin əziz xatirəsini ehtiramla anıblar. Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsinin başladığı gün - 27 Sentyabr Anım Günü kimi qeyd edilir. Anım Günündə Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları Vətənimiz uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini dərin ehtiramla anır.









## Milli Məclisin kollektivi Zəfər parkını ziyarət edib

Sentyabrın 27-də Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, sədr müavinləri Ziyafət Əsgərov, Rafael Hüseynov, Musa Qasımlı, parlamentin komitə sədrləri, deputatlar, Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, Aparat rəhbərinin müavinləri, Aparatın və İşlər İdarəsinin şöbə müdirləri 27 Sentyabr - Anım Günü münasibətilə Bakıda inşası davam etdirilən Zəfər parkını ziyarət ediblər.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Milli Məclisin kollektivi və deputatlar Zəfər parkındakı xatirə daşının önünə tər güllər düzüblər, Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizi dərin ehtiramla anıblar.

*"Azərbaycan"*

## Yeni Azərbaycan Partiyasının nümayəndələri Zəfər parkında olublar

**27 Sentyabr - Anım Günü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Bakıda inşası davam etdirilən Zəfər parkında olublar.**

Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub. Zəfər parkının girişində xatirə daşının önünə gül dəstələri düzülüb, qəhrəman Vətən övladları dərin hörmət və ehtiramla anılıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***



## Daxili İşlər Nazirliyinin kollektivi Zəfər parkında şəhidlərin xatirəsini anıb



Dünən Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və nazirliyin əməkdaşları Bakıda inşası davam etdirilən Zəfər parkına gələrək 44 günlük Vətən müharibəsində respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edərək, xatirə daşının önünə gül dəstələri qoyublar.

Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

## Baş Prokurorluğun rəhbər heyəti Zəfər parkında olub



**Sentyabrın 27-də Anım Günü münasibətilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbər heyəti paytaxtda yerləşən Zəfər parkında olub.**

Prokurorluq əməkdaşları parkdakı xatirə daşının önünə gül dəstələri düzərək Vətənimiz uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini ehtiramla anıblar.

## Xalqımız şəhidlərin uyuduğu müqəddəs məkanları ziyarət edib







Sentyabrın 27-si tariximizə həm kədərli, həm qürurlu tarix kimi həkk olunub. Düz dörd il bundan əvvəl başlayan Zəfər yolunda ilk addımlar məhz həmin gün atıldı. Hər günü bir tarix olan 44 günlük qəhrəmanlıq salnaməmizə neçə-neçə igid oğullar öz canları, qanları ilə adlarını yazdırdılar. Azərbaycan xalqı şanlı Vətən müharibəsində 2 min 900-dən çox övladını qurban verdi. Müqəddəs amal uğrunda canından keçən şəhidlərimizin xatirəsinə dərin ehtiram əlaməti olaraq Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi qeyd edilir.

AZƏRTAC xəbər verir ki, sentyabrın 27-də - Anım Günündə minlərlə insan şəhidlərin



uyuduğu müqəddəs məkanlara axışıb. Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda döyüşlərdə canlarından keçən şəhidlərimizin xatirəsini dərin ehtiramla anıb.

Anım Günündə ən çox ziyarət olunan məkanlar Vətən uğrunda canından keçən qəhrəman övladlarımızın uyuduqları Şəhidlər xiyabanı və İkinci Şəhidlər xiyabanı olub. Həmin gün səhər saatlarından başlayaraq, dövlət və hökumət rəsmiləri, Vətən müharibəsinin iştirakçıları, qazilər, hərbçilər, şəhid ailələri, ictimaiyyət nümayəndələri şəhidlərimizin xatirəsini yad etmək üçün həmin müqəddəs məkanlara üz tutublar. Zəfərin baş qəhrəmanlarının ruhlarına dualar oxunub, onlara bir daha minnətdarlıq ifadə olunub.

Respublikamızın hər yerində şəhid məzarları ziyarət edilib, izdihamlı anım mərasimləri keçirilib.

## Anım Günü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib

**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, 27 Sentyabr - Anım Günü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, keçirilən tədbirlərdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və bütün şəhidlərimizin əziz xatirələri birdəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni oxunub.

Tədbirlərdə çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı şanlı Qələbənin tarixi əhəmiyyətindən danışıblar. 44 günlük Vətən müharibəmizin başlanma tarixinin uzaq keçmişdən başlayan ədalətsiz tarixi prosesi dəyişən, ərazi bütövlüyümüzün bərpasına, suverenliyin tam bərqərar olunmasına və torpaqlarımıza əsl sahiblərinin əbədi qaytarılmasına yol açan tarixi gün olduğu xüsusi qeyd edilib.

Tariximizə qızıl hərflərlə yazılan Qələbənin qazanılmasında xalqımızın rolu, qəhrəman oğullarımızın igidlik və şücaət nümunələri iştirakçıların diqqətinə çatdırılıb.

Silsilə tədbirlər çərçivəsində Şəhidlər xiyabanlarını ziyarət edən hərbi qulluqçular şəhid məzarlarının üzərinə gül dəstələri qoyaraq Azərbaycan Respublikasının azadlığı, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən əziz soydaşlarımıza öz ehtiramlarını ifadə ediblər.

# Prezidentin köməkçisi Hikmət Hacıyev İtaliya qəzetinə müsahibəsində Ermənistanla sülh prosesindən danışıb

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İtaliyanın aparıcı mətbu orqanlarından olan "La Repubblica" qəzetinə geniş müsahibə verib. Prezidentin köməkçisi müsahibəsində Ermənistanla Azərbaycan arasında sülh prosesindən bəhs edib, bəzi Qərb ölkələrinin erməni revanşizmini qızışdırdığını bildirib. AZƏRTAC müsahibəni təqdim edir.**




*- Ermənistanla Azərbaycan arasında sülhə nə dərəcədə yaxınıq?*

- Artıq regionda Ermənistanın xoşməramlılığı ilə deyil, Azərbaycanın hərbi və məcburi tədbirləri sayəsində əldə olunmuş faktiki sülh var. Otuz il ərzində münaqişənin həlli istiqamətində nəzərəçarpacaq nəticə əldə edilmədiyi üçün 2020-ci və 2023-cü illərdə biz Ermənistanın işğal etdiyi Qarabağ torpaqlarını azad edən və bununla da ərazi bütövlüyümüzü bərpa edən iki hərbi əməliyyat keçirməyə məcbur olduq. Biz müharibədə qalib gəldik, indi sülhü də əldə etmək istəyirik.

Biz sülhə həmişəkindən daha yaxınıq, lakin hələ də qarşıda maneələr var. Birincisi, Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan Ermənistan konstitusiyasıdır. Onun preambulası erməni dilində Qarabağın Azərbaycan ərazilərinin Ermənistana "birləşdirilməsi" mənasını verən "Miatsum" sözü yazılan müstəqillik bəyannaməsinə istinad edir. Biz təkcə Ermənistan hökuməti ilə deyil, həm də Azərbaycanda ərazi iddialarından əl çəkərək konstitusiyaya dəyişiklik edilməsi üçün referendum keçirilməsi tələbi ilə səsini ucaltmalı olan erməni xalqı ilə də sülh razılaşması əldə etmək istəyirik. Sülh müqaviləsi kağız parçası deyil, Ermənistanda heç kimin bir daha Azərbaycana qarşı regionda sülhü təhdid edən revanşizmə əl atmayacağına zəmanət olmalıdır.

*- Hazırda iqtidarda olan və danışıqlar apardığınız Ermənistan hökumətinin zorla danışıqların məqsədlərinə zidd siyasətə yol verməehtimalı sizi narahat etmir?*

- Azərbaycanda təkcə erməni siyasi qüvvəsi ilə deyil, ümumiyyətlə, onların əsas axınında geniş yayılmış revanşizm hissi ilə bağlı narahatlıq var. "Tarixi Ermənistan" adı altında qonşu ölkələrin ərazilərinin işğalı ilə "böyük Ermənistan" yaratmaq anlayışı hələ də onların mentalitetində geniş yer tutur. Sanki bu gün Romada kimsə Roma İmperiyasının bərpa olunmasını iddia edir.

Ona görə də erməni xalqının revanşizmdən, Qarabağ iddialarından əl çəkdiyi və mümkün sülh müqaviləsini gələcəkdəki Ermənistan hökumətlərinin revizionizmindən qoruyacaq referenduma ehtiyacı var.

*- Bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın paytaxtı İrəvanı Azərbaycan şəhəri kimi açıqladı. Ermənistana qarşı ərazi iddialarınız varmı?*

- Mənim əcdadlarım ermənilərin Sevan adlandırdıqları Göyçə rayonundandır. Azərbaycanlıların çoxu əslən indi ermənilərin yaşadığı, lakin tarixi nöqteyi-nəzərdən Azərbaycanın mədəni irsi ilə zəngin olan ərazilərdəndir. Bunlara tarixən Azərbaycan şəhəri olan, lakin sonradan Rusiya imperiyası tərəfindən işğal olunmuş İrəvan xanlığına aid olan ərazilər də daxildir. Bu, mülki şəxslərin geri qayıtmaq hüququna aid olan tarixi və mədəni məsələdir. Əslən həmin ərazilərdən olan azərbaycanlıların öz ata-baba yurdlarına qayıtmalarına icazə verilməlidir. Ancaq bu, nə ərazi iddiası, nə də Ermənistanın suverenliyinin pozulmasıdır.

*- Sizcə, sülhə nail olmaq üçün digər maneələr nələrdir?*

- Ermənistanın hərbiləşdirilməsi məsuliyyətli və mütənasib olmalıdır. Məsələn, İrəvan Fransadan uzaqmənzilli raketlər və artilleriya sistemləri alır və bununla da yenidən Azərbaycan şəhərlərinə hücum edə bilər. Ermənistan üçün ən yaxşı həll yolu Azərbaycanın təhlükəsizliyini təhdid edən hərbi ittifaqlar yox, neytrallıq olardı.

Müstəmləkə keçmişi olan bəzi Qərb dövlətlərinin Afrikadakı kimi, Qafqazda da öz siyasətlərinin və intriqalarının təbliği üçün Ermənistandan istifadə etməsi əks effekt verir. Məsələn, Fransa və onun hökuməti region haqqında tam anlayışa malik deyil və Avropanın da əleyhinə olacaq geosiyasi səhvlərə yol verir. Ermənistanı hərbiləşdirmək və bununla da onun revanşizminə təkan vermək sülhə kömək etmir.

Biz həmçinin Avropa İttifaqının Ermənistanda sərhədlərimizin monitorinqi missiyası şəklində və Ermənistan üçün hərbi layihə olan Avropa Sülh Fondu vasitəsilə regionda hərbi mövcudluğunu görürük. Aİ regionumuzda hərbi amilə çevrilərsə, haqlı suallar ortaya çıxır: Ermənistanın hərbiləşdirilməsinin məqsədi nədir?

*- Azərbaycanın gələcəkdə Ermənistana qarşı digər hərbi əməliyyatlar həyata keçirməsini istisna edirsinizmi?*

- Bizim strategiyamız müdafiə və çəkindirmədir. Başqa ölkələrə heç bir ərazi iddiamız və ya orada hərbi hədəfimiz yoxdur. Əsas məqsədimiz Cənubi Qafqazın tam sülh yolu ilə transformasiyasıdır. Hər bir ölkə kimi, bizim də özünümüdafiə hüququmuz var. Əgər Ermənistan sərhədlərimizə uzaqmənzilli raket və ya artilleriya sistemləri yerləşdirərsə, o zaman bizim haqlı narahatlığımız yaranar.

*- Digər maneə Ermənistanla Azərbaycan arasında sərhədlərin müəyyənləşdirilməsi ilə bağlıdır. İrəvan sizi ərazisinin bir hissəsini işğal etməkdə ittiham edir...*

- Bu ittihamlar əsassızdır. Əslində, hazırda sərhəd xəttinin müəyyənləşdirilməsi prosesi gedir. Bu yaxınlaradək səkkiz kənd erməni işğalı altında idi, onlardan dördü sərhədin müəyyənləşdirilməsi prosesi nəticəsində azad edilib. Ermənistan Azərbaycanın 2022-ci ilin sentyabrında sərhəddə yaşayış olmayan ərazilərinin bir hissəsini hərbi nəzarətə götürdüyünü iddia edir. Bəs bu, müəyyən edilməyibsə və heç kim sərhəd xəttinin harada olduğunu bilmirsə, bizi onların ərazilərini ələ keçirməkdə necə ittiham edə bilərlər?

Sonra əsas problem var. Son otuz ildə Ermənistan Azərbaycanla heç vaxt sərhəd qurmayıb və 1991-ci il Alma-Ata Bəyannaməsi üzrə götürdüyü öhdəliklərə əməl etməyib. Əvəzində bizim ərazilərimizi işğal edib, istehkamlar qurub. Bizi onların ərazilərini işğalda ittiham etməkdənsə, sərhədlərin delimitasiyası prosesi çərçivəsində bunu müzakirə etmək məqsədəuyğun olardı.

*- Bir il əvvəl Qarabağı yüz min erməni tərk etdi. Bu insanların öz evlərinə qayıtmaq şansı olacaqmı?*

- Ermənistan son 30 ildə Qarabağda azərbaycanlılara qarşı etnik təmizləmə aparıb, insanları qovub, məscidlərimizi və digər abidələrimizi yerlə yeksan edib. Biz keçən il ərazi bütövlüyümüzün bərpası üçün hərbi əməliyyat keçirən zaman dinc əhalini bombalamadıq, istədikləri təqdirdə, qala biləcəklərini bildirdik, həmçinin əhalinin Ermənistana getməsi üçün dəhlizlər yaratdıq. Şərt ondan ibarət idi ki, onlar Azərbaycan vətəndaşlığını və qaydalarını qəbul etsinlər, əvvəllər olduqları "boz zona"da yaşamağı dayandırsınlar. Lakin onlar bunu qəbul etmədilər və demək olar ki, hamısı getməyə qərar verdi.

Qarabağ ermənilərinin böyük əksəriyyəti, xüsusilə də kişilər hərbi fəaliyyətə cəlb olunub, Azərbaycana qarşı keçirilən əməliyyatlarda və döyüşlərdə iştirak edib. Geri qayıtmaq istəsələr, bizim vətəndaşlığımızı və qanunlarımızı qəbul etməli olacaqlar. Ancaq Ermənistan da öz növbəsində Qərbi Azərbaycan İcmasına eyni hüquqları verməyə, onların öz evlərinə qayıtmalarına imkan yaratmağa hazır olmalıdır.

*- Azərbaycan televiziya və mediasında yüksəksəviyyəli siyasətçilər erməniləri donuz adlandırıblar. Sizcə, barışıq nə vaxtsa mümkün olacaq?*

- Etnik barışıq istənilən münaqişənin ən çətin aspektlərindən biridir, asan və ya qısa proses olmayacaq. Bunun ermənilər arasında geniş yayıldığını görürük, amma bu məsələ əsas müzakirə mövzusu, gündəmdə olan mövzu deyil və bununla mübarizə aparan hökumətə aid edilə bilməz və edilməməlidir.

Azərbaycanlılar işğala, etnik təmizləməyə, əmlaklarının dağıdılmasına məruz qalıblar. Otuz ildən sonra öz doğma yurdlarına qayıdan azərbaycanlı məcburi köçkünlər üçün evlərin, qəbiristanlıqların dağıdılmış, ərazinin minalanmış olduğunu görmək asan deyil. Dörd min azərbaycanlının itkin düşdüyünü və artıq onlar haqqında heç bir məlumatın olmadığını da qəbul etmək asan məsələ deyil. Ancaq biz daha çox inam qazanmaq və hələ də açıq olan çoxsaylı yaraların öhdəsindən gəlmək üçün gələcəyə baxmalıyıq.

# Beynəlxalq Prokurorlar Assosiasiyasının prezidenti Azərbaycanda işgüzar səfərdədir

## Baş prokuror Beynəlxalq Prokurorlar Assosiasiyasının prezidenti ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Azərbaycan Prokurorluğu beynəlxalq tərəfdaşlarla və nüfuzlu təşkilatlarla səmərəli əməkdaşlığını həyata keçirməklə yanaşı, çoxsaylı qlobal və regional təşəbbüslərdə fəal iştirak edir, habelə tərəfdaş qurumlarla beynəlxalq münasibətlərin möhkəmləndirilməsi məqsədilə kompleks işlər görülür.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, həmin tədbirlərin davamı kimi, dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) sentyabrın 29-dan oktyabrın 2-dək Bakıda baş tutacaq 29-cu İllik Konfransında və Ümumi Yığıncağında iştirak edən beynəlxalq təşkilat və xarici dövlətlərin nümayəndə heyətləri ilə silsilə görüşlər keçirilir.

Dünən Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev Beynəlxalq Prokurorlar Assosiasiyasının prezidenti, Buenos-Ayres Muxtar Şəhərinin Dövlət Prokurorluğu Xidmətinin baş prokuroru Juan Bautista Mahiquesin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüş zamanı ölkəmizin evsahibliyi ilə keçiriləcək beynəlxalq tədbirə hazırlıq işlərinin gedişatı və bir sıra təşkilati məsələlər müzakirə edilib.

Baş prokuror iki ölkə arasında ticarət və iqtisadi əməkdaşlığın möhkəmləndiyini diqqətə çatdıraraq, ötən il martın 23-də Afina şəhərində Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Argentina Respublikasının Buenos-Ayres Muxtar Şəhərinin Dövlət Prokurorluğu arasında imzalanmış memoranduma uyğun olaraq təcrübə mübadiləsi, prokurorluq əməkdaşlarının ikitərəfli səfərlərinin əhəmiyyətindən bəhs edib.

Görüş zamanı həmçinin bu il ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) barədə məlumat verilərək, BPA-nın Bakıda keçiriləcək 29-cu illik konfransı zamanı dünya prokurorları arasında hüquq-mühafizə orqanlarının iqlim dəyişikliyi ilə mübarizədə səfərbər olunması, habelə ekoloji cinayətlərə qarşı birgə mübarizə mövzularının təşviq və müzakirə olunmasının vacibliyi vurğulanıb.

Təşkilatın prezidenti səmimi qəbula görə minnətdarlığını ifadə edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları yüksək qiymətləndirib, milli prokurorluq orqanlarımızın rəhbərliyi tərəfindən assosiasiyanın işinə verilən dəyərli töhfə və daimi dəstəyə görə təşəkkür edib.

Daha sonra qonaqlar Baş Prokurorluğun Tarix muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan, həmçinin Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu özündə əks etdirən guşə və eksponatlarla tanış olublar.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

# *Ramazan KORKMAZ:* "Azərbaycan dünyada formalaşan yeni gücün mərkəzində dayanır"

**"Hazırda dünya gərgin dövrdən keçir. Lakin baş verən bütün bu hadisələrin qarşısında biz Böyük Şərqin oyanışına, yeni gücün formalaşmasına şahid oluruq. Azərbaycan isə bu oyanışın və birlik çağırışının mərkəzində dayanır. Türk dünyasının birliyinə doğru atılan addımlar isə Fransa kimi müstəmləkəçi dövlətlərin əsas qorxulu röyasıdır. Getdikcə faşist və irqçi siyasətçilərin təsiri altına düşən rəsmi Parisin Azərbaycanı hədəf almasının əsas məqsədi də türk dünyasını birləşdirən mənbəyi parçalamaq, Böyük Şərq oyanışının qarşısını almaqdır".**



Bu sözləri AZƏRTAC-a Qafqaz Universitetləri Birliyinin rəhbəri, professor Ramazan Korkmaz deyib.

"Coğrafiya taledir və biz, bölgə ölkələri olaraq, öz taleyimizi Fransa kimi, keçmişi bəlli olan güclərin ixtiyarına buraxa bilmərik. Bölgəmizdəki sülh Fransanın təxribatçı fitnəsi ilə deyil, bölgə ölkələrinin rifahı və sülhü inkişaf etdirmək üçün bir araya gəlməsi, problemlərin birlikdə aradan qaldırılması ilə təmin oluna bilər", - deyə müsahibimiz bildirib.

Fransanın XVI əsrdən bəri imperialist məqsədlər güdən müstəmləkəçi bir ölkə olduğunu qeyd edən professor bildirib ki, bu cür ölkələr çalışaraq, haqq edərək deyil, oğurlayaraq, istismar və talan edərək yaşamağı üstün tuturlar: "Xüsusilə XIX əsrin sonu, XX əsrin əvvəlində əldə etdiyi texniki üstünlüklə Fransa Əlcəzair, Çad, Niger, Seneqal, Qvineya, Kot-d'İvuar, Konqo, Mali, Benin, Burkina Faso və Toqo kimi ölkələri işğal edərək onların yeraltı və yerüstü sərvətlərini ələ keçirib. Bu xalqların mədəniyyəti məhv edilərək insanları qul kimi istifadə olunub. XX əsrin əvvəlində Osmanlı İmperiyasının zəifləməsindən istifadə edən Fransa türklərə məxsus ərazilərdə əsrlər boyu sülh içində yaşamış müxtəlif etnik qrupları bir-birinə qarşı qoyaraq bölgəni cəhənnəmə çevirərək bundan böyük faydalar əldə edib. Münaqişə bitdikdən sonra isə istismar etdiyi cəmiyyətləri taleyin axarına tərk edərək, elə ermənilərin ifadəsi ilə desək "ermənilərin qanını Van samanı kimi ucuz qiymətə satın alıb".

Rəsmi Parisin bölgəmiz, xüsusilə ölkəmiz ilə bağlı əsassız ifadələrini şərh edən professor deyib: "Görünən odur ki, Fransa XXI əsrin əvvəllərində yenidən imperialist məqsədlərini ön plana çıxarır. Lakin indi şərtlər çox dəyişib. Artıq cəmiyyətlər daha çox məlumatlıdır. Xüsusilə azlıqlar "qanlarını ucuz qiymətə almaq istəyən" imperialist güclərə əvvəlki kimi inanmaqdan uzaqdırlar. Heç yadımdan çıxmır, 2012-ci ildə Tiflisdə keçirilən Qafqaz Universitetlər Birliyinin rektorlar toplantısında iştirak edən erməni professor da bu məsələyə toxunmuşdu. Toplantıda qonaq qismində çıxış edən professor "Amerika, Rusiya, Fransa, İngiltərə, bütün dünya bizim arxamızdadır. Lakin biz acıq. Bizə Türkiyə lazımdır. Türkiyə böyüklük edib bizi daşnakların və diasporun əlindən qurtarsın" deyə göz yaşları içində ölkəsindəki vəziyyət haqqında danışdı".

Qarabağ Zəfərindən sonra Ermənistan ermənilərinin böyük əksəriyyətinin baş nazir Nikol Paşinyanın da dediyi kimi, real siyasətə dönməyin vacibliyinə inandıqlarını bildirən şərhçi sözlərinə belə davam edib: "Təəssüf ki, bu istək Fransanı narahat etdi. Fransa tez bir zamanda daşnak lobbilərini və diasporu hərəkətə keçirərək müharibə təbili çalmağa çalışdı. Qarabağın işğaldan azad edilməsi ilə Qafqazda normallaşma prosesi başlayıb. Lakin bu vəziyyət başda Fransa olmaqla, bəzi imperialist dairələri çox narahat edir. Halbuki bölgədə sülhün və rifahın təmin edilməsi üçün normallaşma prosesinin davam etdirilməsi mütləqdir. Fransa Azərbaycanın simasında apardığı türk düşmənçiliyi siyasətindən yalnız zərər görəcək. Çünki yeni bir dünya qurulmaqdadır və bu dünyada müstəmləkəçi güclərin oyunlarına qarşı böyük bir oyanış baş qaldırıb. Artıq dünyanın vicdanı manipulyasiya edilə bilməyəcək şəkildə oyanıb. İmperialist güclər daha regional aktorları öz maraqları üçün istədikləri kimi istifadə edə bilməyəcəklər. Onların oyuncağı olan və olmaq istəyən ölkələr, cəmiyyətlər isə tarixə baxıb dərs almalı, həqiqi həyata qayıtmalıdırlar".

# *"Haber Global" telekanalı:* "Azərbaycanlılar qürurla öz ata-baba yurdlarına qayıdırlar"

**Türkiyənin "Haber Global" telekanalı 44 günlük Vətən müharibəsində tarixi Qələbənin dördüncü ildönümündə Azərbaycanın ərazi bütövlüyünün bərpasının bütün mərhələləri barədə geniş auditoriyaya məlumat verib.**




AZƏRTAC xəbər verir ki, telekanal "İkinci Qarabağ müharibəsinin dördüncü ildönümü: Qələbəyə gedən yol" adlı reportajında Prezident, Ali Baş Komandan İlham Əliyevin işğalçıların Azərbaycan ərazisindən tamamilə qovulması uğrunda mübarizənin başlanması ilə əlamətdar olan 27 sentyabr 2020-ci il tarixli Bəyanatına istinad edib.

Telekanal qeyd edir ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrini davamlı atəşə tutması azərbaycanlıların səbrini daşıran son damla olub. Reportajda vurğulanıb: "Ermənistan tərəfinin təxribatlarına və atəşkəs rejiminin davamlı olaraq pozulmasına, o cümlədən ağır silahlardan istifadə etməsinə cavab olaraq, Prezident İlham Əliyev bütün cəbhə xətti boyunca hücuma keçmək əmrini verib. Azərbaycan Ordusu və xalqı dövlət başçısının "dəmir yumruğ"u ətrafında birləşdi. Hərbçilər Vətən uğrunda canlarından keçməyə, analar isə oğullarını şəhid verməyə hazır idilər. Hər kəs anladı ki, Qarabağın azad edilməsi şərəf və Vətənin müdafiəsi məsələsidir".

Telekanal 44 günlük müharibədə Azərbaycan Silahlı Qüvvələrinin rəşadətli Qələbəsinin mərhələlərini sadalayıb, hərbi əməliyyatlar başlayandan qısa müddət sonra Cəbrayıl şəhərinin, daha sonra Şuşa yolunda yerləşən Hadrut kəndinin azad edildiyini diqqətə çatdırıb: "Oktyabrın 17-də Azərbaycan hərbçiləri Füzuli şəhərini, oktyabrın 20-də Zəngilanı tam nəzarətə götürdülər, beş gün sonra isə Qubadlını işğalçılardan təmizlədilər. Sırada Qarabağın incisi - Şuşa şəhəri vardı. Azərbaycanın mədəniyyət paytaxtının azad edilməsini noyabrın 8-də Prezident İlham Əliyev dünyaya bəyan edib: "Şuşa. Sən azadsan!"

Türkiyə telekanalı vurğulayıb ki, 44 günlük müharibə nəticəsində Azərbaycan Ermənistanı məğlubiyyətini etiraf etməyə məcbur edib: "Azərbaycan Ordusu xalqın öz tarixi torpaqlarına çoxdankı həsrətinə son qoydu, 5 şəhər, 4 qəsəbə, 300-ə yaxın kənd işğaldan azad olundu. Eyni zamanda Ağdam, Kəlbəcər, Laçın şəhərləri bir güllə də atılmadan, Azərbaycan oğulları həlak olmadan geri qaytarıldı".

"Haber Global" qeyd edib ki, Azərbaycan torpaqlarının Ermənistanın işğalından azad edilməsi uğrunda gedən döyüşlərdə 2908 Azərbaycan hərbçisi şəhid olub.

Reportajda vurğulanıb: "44 günlük müharibədə Azərbaycan xalqı tək deyildi. İlk gündən Qələbə gününə qədər Türkiyə qardaş ölkəyə dəstəyini bəyan etməyə davam etdi". Daha sonra diqqətə çatdırılıb ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın əksinə olaraq, erməni tərəfi təxribatçı siyasətindən və cəhdlərindən əl çəkmir, regionda sülhü ləngidirdi. Məhz buna görə də Azərbaycan Silahlı Qüvvələri 2023-cü il sentyabrın 19-da lokal xarakterli antiterror əməliyyatı keçirərək Qarabağda separatizmə son qoydu. Daha bir Qələbənin qazanılmasında Azərbaycan 204 şəhid verdi.

Telekanal qeyd edib: "Bakının sülh planının əksinə olaraq, İrəvan hələ də revanşizm niyyətindən əl çəkmir. Qərb ölkələri, xüsusən də Fransa Ermənistanı silahlandırır".

"Haber Global" həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasına, "ağıllı şəhərlər" konsepsiyası əsasında yolların, hava limanları və qəsəbələrin tikintisi səylərinə diqqət çəkib. Reportajda vurğulanır ki, azərbaycanlılar qürurla öz ata-baba yurdlarına qayıdırlar.



# Prezident İlham Əliyev bir daha bəyan etdi

## İqtisadi artım yüksəkdir, qeyri-neft sektorunun inkişafı davam edir, inflyasiya minimumdur, xarici borcumuz aşağıdır

**2024-cü ilin böyük hissəsi arxada qalıb. Ötən 9 ayda ölkəmiz hansı nailiyyətləri əldə edib. İlin sonuna qədər daha hansı işlər görüləcək. Gələn il bizi hansı vəzifələr və müjdələr gözləyir. Sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirədəki nitqində Prezident İlham Əliyev məhz bütün bunları diqqətə çatdırıb.**

İqtisadi inkişaf gözlənilən səviyyədədir. İlin uğurlu olacağı barədə əvvəlcədən söylənilən proqnozlar özünü doğruldur. Belə ki, ötən aylar ərzində iqtisadi artım 4,3 faiz təşkil edib. Qeyri-neft sektoru 7 faiz artıb. İnflyasiya ilin əvvəlindən cəmi 1 faizdən bir qədər çox olub. Əlbəttə, hazırda dünyada gedən prosesləri təhlil etdikdə və ümumiyyətlə, geosiyasi vəziyyətə nəzər saldıqda görünür bu, çox müsbət göstəricidir. İqtisadi inkişaf templərinə görə, bir çox inkişaf etmiş ölkə üstələyirik. Ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar siyasəti öz müsbət nəticəsini verir. Xarici borcun ümumi daxili məhsula nisbətdə də Azərbaycan dünya miqyasında qabaqcıl ölkələr sırasındadır. Bu, cəmi 7,5 faizdir.

Ölkə iqtisadiyyatına, xüsusilə qeyri-neft sektoruna xarici investisiyaların cəlb olunması üçün bir çox təşviq layihələri həyata keçirilir. Azərbaycan dövlətinin güclənməsi, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa edilməsi, ölkədə hökm sürən sabitlik, təbii ki, xarici investorların bizə münasibətini daha da yaxşılaşdırıb. Bu həm də Azərbaycanda çox müsbət sərmayə iqliminin uzun illərdir davam etməsindən qaynaqlanır. Yeri gəlmişkən qeyd edək ki, investisiyaların adambaşına düşən həcminə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Son illərdə və xüsusilə antiterror əməliyyatından sonra dövlət suverenliyimizin tam bərpa edilməsi təbii olaraq bu prosesi daha da sürətləndirib. Bakı və Sumqayıt şəhərlərində, sənaye parklarında yeni müəssisələr açılır. İşğaldan azad edilmiş torpaqlarda, Ağdam və Cəbrayıl rayonlarında yeni sənaye parklarının yaradılması çox müsbət hal kimi qiymətləndirilməlidir. Təsadüfi deyil ki, qələbə qazanılan vaxtdan bu ilin sonuna qədər xərclənməsi nəzərdə tutulan vəsait 19 milyard manat təşkil edir. Bu vəsaitin mütləq əksəriyyəti infrastruktur layihələrinin icrasına xərclənib. Bununla yanaşı, keçmiş köçkünlərin qaytarılması üçün də işlər görülür və artıq səkkiz mindən çox keçmiş köçkün Qarabağda və Şərqi Zəngəzurda yerləşib . Onların sayı aydan-aya daha da artır.

Regionda infrastruktur layihələri geniş vüsət alıb. Belə ki, artıq 3 min kilometr avtomobil yolu inşa edilib. Ümumi layihələrin sırasında 45 tunelin tikintisi yer alır və onların ümumi uzunluğu 70 kilometrdir. Eləcə də 450 körpünün inşası nəzərdə tutulur. Dəmir yolları, iki beynəlxalq hava limanı istifadəyə verilib.

Dövlətimizin başçısı son illər ərzində xarici neft şirkətləri tərəfindən həyata keçirilən layihələrdə hasilatın azalmasının ümumi iqtisadi inkişaf templərimizə mənfi təsir göstərdiyinə də toxunaraq demişdir:"Biz bu tənəzzülü qeyri-neft sektorunun inkişafı ilə tənzimləyirdik. Ancaq neft hasilatında buraxılmış nöqsanlar xarici neft şirkətləri ilə aparılan danışıqlar nəticəsində onların diqqətinə çatdırılmış və onlardan tələb edilmişdir ki, bu nöqsanlar aradan qaldırılsın, neft hasilatının sabitliyi təmin edilsin. Son aylar ərzində bu istiqamətdə çox fəal iş aparılırdı. Bu işin nəticəsi olaraq əsaslı ümidlər yaranmışdır ki, daha bundan sonra heç bir əsası olmadan neft hasilatında tənəzzül olmayacaq. Təbii olaraq hökumət qurumları və Dövlət Neft Şirkəti bu işlərin gələcək gedişatına da daim diqqət yetirəcək. Beləliklə, bizim iqtisadi inkişaf templərimizi geriyə çəkən əsas amil ümid edirəm ki, aradan qaldırılacaq və gələn il sabit neft hasilatı təmin edilməlidir. Nəzərə alsaq ki, hazırda biz neft-qaz sektorunda bir neçə yeni layihə üzərində işləyirik və o layihələrin işlənməsi nəticəsində yeni hasilat proqnozlarımız var. Yəqin gələn il biz hamımız onu görəcəyik ki, yeni layihələrdən, yeni yataqlardan daha böyük həcmdə təbii qaz və neft kondensatı hasil edilir. Hesab edirəm ki, neft-qaz sahəsində templər müsbət olacaqdır".

Qarşıda digər mühüm vəzifələr də dayanır və bunlar böyük maliyyə vəsaiti tələb edir. İlk sırada hərbi, hərbi sənaye kompleksinin inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası ilə bağlı məsələlər durur. Əsas hədəflərdən biri isə iqtisadiyyatı daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir.

Bütün bunlara baxmayaraq, Prezidentimiz gələn il minimum əməkhaqqı və minimum pensiyanın artırılacağını da bildirib. Xatırladaq ki, 2018-ci ildən indiyədək Azərbaycanda dörd sosial islahatlar paketi həyata keçirilib. Bunların məbləği 7 milyard manatdır və 4 milyon insanı əhatə edir. Son beş il ərzində ölkəmizdə minimum əməkhaqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə artıb.

Hazırda gələn ilin büdcəsi müzakirə olunur və büdcənin parametrləri də daha genişmiqyaslı olacaq. Təbii olaraq, büdcə bizim imkanlarımızı əks etdirir. Heç bir yerdən heç bir yardım almırıq, əksinə, xarici borcu azaldırıq və qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilir. Odur ki, dövlətimizin başçısı gələn il də iqtisadi inkişaf templərinin lazımi səviyyədə olacağına inam ifadə edib: "Elə etməliyik ki, biz gələn il imkan daxilində bütün əsas vəzifələri icra edək. Şübhə etmirəm ki, belə də olacaq. Artıq Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib. Biz öz resurslarımıza arxalanaraq güclü iqtisadiyyat qurmuşuq, müstəqil iqtisadiyyat qurmuşuq, heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq bizə beynəlxalq müstəvidə böyük imkanlar qazandırır ki, Azərbaycan uğurla, inamla, şərəflə, ləyaqətlə müstəqil xarici siyasət apara bilsin. Necə ki, aparmışıq və aparacağıq".

*Flora SADIQLI, "Azərbaycan"*

# Düşünülmüş islahatlar siyasətinin bəhrəsi

## Azərbaycan iqtisadiyyatı dayanıqlı inkişaf mərhələsindədir



**Sentyabrın 26-da Prezident İlham Əliyevin iştirakı ilə keçirilən iqtisadi məsələlərə həsr olunmuş müşavirədə cari il üçün Azərbaycanda iqtisadi inkişafın gözləntilərə cavab verdiyi diqqətə çatdırıldı. Dövlət başçısı bu il iqtisadiyyatımız üçün uğurlu olacağını hələ ilin əvvəlində qeyd etdiyini xatırladaraq, iqtisadi artımın 4,3 faiz təşkil etdiyini dedi. Müşavirədə bir sıra məsələlər müzakirə olundu, ən əsas məqam isə neft ölkəsi Azərbaycanda son illərdə həyata keçirilən uğurlu siyasət nəticəsində qeyri-neft sektorundakı irəliləyişlərlə bağlı göstəricilər idi. Belə ki, bu il ərzində qeyri-neft sektorunda artımın 7 faiz təşkil etdiyi vurğulandı.**

Ölkə rəhbəri qeyd etdi ki, bu, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılmış addımların və düşünülmüş islahatlar siyasətinin öz bəhrəsini verdiyini göstərir. Hədəf isə iqtisadiyyatı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir.

İqtisadçı Vüqar Bayramov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, iqtisadiyyatımız 2024-cü ildə də inkişaf tempini qoruyub saxlayıb. O qeyd edib ki, həm ümumi daxili məhsulda 4 faizə qədər, həm də qeyri-neft sənayesində 7 faizdən çox artımın olması Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişaf mərhələsində olduğunu göstərir: "Digər tərəfdən isə bu, ölkə iqtisadiyyatındakı artımın qeyri-neft sektoru hesabına formalaşmaqda olduğunu bir daha təsdiq edir. Praktik olaraq qeyri-neft sektoru iqtisadi inkişafın lokomotivinə çevrilib. Bu da birmənalı şəkildə ondan xəbər verir ki, artıq iqtisadiyyatın diversifikasiyası ilə bağlı həyata keçirilən siyasət həm də neftdən asılılığın minimumlaşdırılmasına, enerjidənkənar sektorların davamlı inkişafına zəmin yaradıb. 2024-cü ilin geridə qalan aylarının yekunları, həmçinin gözləntilər təsdiq edir ki, Azərbaycan iqtisadiyyatı dayanıqlı inkişaf baxımından regionda xüsusi iqtisadi model olaraq seçilən iqtisadiyyatlardandır. Çünki nəticə etibarilə iqtisadi inkişafın dayanıqlılığı və davamlılığı, eləcə də balanslılığını müşahidə edirik".

İqtisadi inkişafın inklüziv olduğunu vurğulayan ekspert bildirib ki, bu, həmçinin sosial təminatın, sosial müdafiə xərclərinin genişləndirilməsini və sosial siyasətin dayanıqlılığını təsdiq edir. Prezident İlham Əliyevin də sosial sferada yeni addımların atılması, sosial paketin genişləndirilməsi ilə bağlı göstərişlər var. Bu da təbii ki, Azərbaycan iqtisadiyyatının inkişafı nəticəsində əldə edilən maliyyə təminatı hesabına baş verib. "Eyni zamanda Azərbaycan xarici borcun ümumi daxili məhsuldakı payına görə dünyada ən yaxşı mövqeyə malik olan doqquz ölkədən biridir. Bu da Azərbaycan iqtisadiyyatında həm də təhlükəsizlik yastığının formalaşdığını göstərir. Bütün bunlar növbəti dövr üçün sürətli, dayanıqlı və davamlı iqtisadi inkişafın davam edəcəyindən xəbər verir və Azərbaycan üçün yeni imkanlar deməkdir", - deyə o əlavə edib.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# COP29 Beynəlxalq Məşvərət Komitəsinin növbəti iclası keçirilib

**Nyu Yorkda Azərbaycanın COP29 sədrliyinin təşkilatçılığı ilə ekspertlərdən, tanınmış şəxslərdən və keçmiş dövlət xadimlərindən ibarət Beynəlxalq Məşvərət Komitəsinin növbəti iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirin məqsədi komitənin ötən ay keçirilmiş görüşündən bəri COP29 sədrliyinin əldə etdiyi irəliləyişlər barədə üzvləri məlumatlandırmaqdır.

Tədbirdə açılış nitqi ilə çıxış edən COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev bildirib ki, COP29 komandası tərəfindən ambisiyaları artırmaq və fəaliyyətə təkan vermək planının həyata keçirilməsi istiqamətində mühüm addımlar atılıb. COP29 komandası BMT Baş Assambleyası və İqlim Həftəsi çərçivəsində Nyu Yorkda 75-ə qədər tədbir və ikitərəfli görüşdə iştirak edib.

Muxtar Babayev həftə ərzində keçirilən tədbirlər, COP29-un irəli sürdüyü təşəbbüslər və bu təşəbbüslər ətrafında aparılan müzakirələr barədə məlumat verib. O, gələn ay Bakıda COP öncəsi (Pre-COP) iclasın keçiriləcəyini vurğulayaraq bu görüşün tərəflərin fikir mübadiləsi aparması və siyasi səviyyədə razılaşma əldə etməsi məqsədilə bir araya gəlmələri üçün imkan yaradacağını bildirib. O əlavə edib ki, sədrliyin prioritet məsələlərlə bağlı tərəfləri bir-birinə yaxınlaşdırmaq üçün COP29 komandası Beynəlxalq Məşvərət Komitəsinin dəstəyini bundan sonra da alacaq.

Daha sonra COP29-un baş danışıqçısı Yalçın Rəfiyev, İqlim üzrə yüksəksəviyyəli çempionu Nigar Arpadarai və COP29 Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçısı Nərmin Carçalova Bakıda tədbirə hazırlıq işləri barədə məlumat verib və komitə üzvlərinin suallarını cavablandırıblar.

Beynəlxalq Məşvərət Komitəsinin üzvləri, o cümlədən tanınmış liderlər İsmail Serageldin, Jan Baderşneyder, Vayra Vike-Freyberqa, Mariya Fernanda Espinoza, Hindu Umaru İbrahim və Patrisia Espinoza COP29-a hazırlıq prosesində görülən işləri yüksək qiymətləndiriblər.

# 16 ölkədən 50 diaspor nümayəndəsi Xankəndi və Şuşaya səfər edib









**Sentyabrın 27-də Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı və dəstəyi ilə "Dəmir yumruğ"un gücü ilə Şuşadayıq" layihəsi çərçivəsində diaspor nümayəndələrinin Xankəndi və Şuşaya səfəri baş tutub.**




Komitədən AZƏRTAC-a verilən məlumata görə, sayca 13-cü dəfə gerçəkləşən səfərdə dünyanın 16 ölkəsindən 50 diaspor nümayəndəsi iştirak edib.

Əvvəlcə Xankəndi şəhərinə səfər edən qonaqlar inzibati binanın qarşısında 27 Sentyabr - Anım Gününün 4-cü ildönümü münasibətilə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsini birdəqiqəlik sükutla anıblar. Vətən torpaqlarının azadlığına görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan Ordusuna təşəkkürlərini bildirən həmvətənlər şəhidlərimizə rəhmət diləyib, qazilərimizə cansağlığı arzulayıblar.

Sonra diaspor nümayəndələri Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya yola düşüb, burada Cıdır düzünü, Molla Pənah Vaqifin məqbərəsini, Yuxarı Gövhər ağa məscidini, Gəncə qapısını, "Güllələnmiş heykəllər"in yerləşdiyi meydanı və digər görməli yerləri ziyarət ediblər. İştirakçılar Cıdır düzündə Azərbaycan bayrağını dalğalandırıb, "Qarabağ Azərbaycandır!" şüarını səsləndiriblər. Kanadadan olan soydaşımız Səməd Purmusəvinin sazda canlı ifası böyük maraqla qarşılanıb və ziyarətçilərə duyğulu anlar yaşadıb.

Xankəndidə, Şuşada aparılan yenidənqurma və abadlıq işləri ilə yaxından tanış olan soydaşlarımız bu cür səfərlərin silsilə təşkilinə görə Azərbaycan dövlətinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, komitə mütəmadi olaraq beynəlxalq ictimaiyyətin məlumatlandırılmasında böyük rol oynayan həmvətənlərimizin, xarici jurnalistlərin, alimlərin Şuşaya, eləcə də işğaldan azad edilmiş digər rayonlara səfərlərini təşkil edir.

# Anım Günündə xarici jurnalistlər Qarabağa səfər ediblər

**Azərbaycanda səfərdə olan xarici jurnalistlər 27 Sentyabr - Anım Günündə işğaldan azad edilmiş bölgələrə gediblər.**



AZƏRTAC-ın xəbərinə görə, bu barədə Parlament (Tərəfsiz) Jurnalistlər Birliyinin sədri Elşad Eyvazlı məlumat verib.

O qeyd edib ki, xarici jurnalistlər Parlament (Tərəfsiz) Jurnalistlər Birliyinin dəvəti ilə Azərbaycanda səfərdədirlər. Səfərdə məqsəd keçmiş məcburi köçkünlərin öz evlərinə qayıdışı prosesini, eyni zamanda işğaldan azad edilmiş bölgələrdə erməni işğalının izini bir daha dünyaya çatdırmaqdır:

"Qonaqlar Macarıstanın ən böyük media qurumlarından olan "Magyar Hirlap" qəzeti və eyniadlı saytın redaktoru Zsolt Sütö Naqi, Bolqarıstanın Dövlət Xəbər Agentliyinin, "24 chasa" qəzetinin, "Standart" qəzetinin, BTV kanalının əməkdaşı Nahidə Deniz və Özbəkistan Jurnalistlər Birliyinin üzvü, "Yoshlar" telekanalının baş redaktoru Həmzə Jumayevdir. Xarici həmkarlarla Bakıda da bir sıra görüşlər keçiriləcək. Onlar sentyabrın 29-da ölkələrinə dönəcəklər".

Qeyd edək ki, xarici jurnalistlər Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin dəstəyi ilə "Köçkünlüyə son: məskunlaşma prosesinin xarici mediada təbliği" layihəsi çərçivəsində Azərbaycana səfərə dəvət olunublar.

# Tarixi Zəfərin möhtəşəm reallıqları



# Qarabağ Universiteti Müzəffər Komandan İlham Əliyevin Zəfər strategiyasının növbəti təntənəsidir

**İlk dəfə olaraq Azərbaycanda yeni tədris ilinə dövlət suverenliyinin tam təmin olunduğu bir şəraitdə başlanılması hər birimizə fərqli sevinc və sonsuz qürur hissləri bəxş edir. Məhz Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi və qəhrəman hərbçilərimizin şücaəti sayəsində həm 44 günlük Vətən müharibəsində, həm də bir gündən az davam edən antiterror tədbirlərində əldə olunmuş parlaq tarixi qələbələr nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa edilmişdir.**

## Qarabağ Universitetinin açılması tarixi hadisədir

Qürurvericidir ki, tarixi Zəfərin qazanılması ilə gücünü bütün dünyaya göstərən Azərbaycan dövləti postmünaqişə dövründə də möhtəşəm uğurlara imza atır, beynəlxalq siyasi arenada mövqeyini və nüfuzunu daha da möhkəmləndirir. İşğaldan azad olunmuş doğma yurdlarımız çox qısa müddətdə sürətlə dirçəldilir, bölgədə irimiqyaslı quruculuq və abadlıq işləri həyata keçirilir. Böyük qayıdış proqramı uğurla icra olunur. Qarabağın və Şərqi Zəngəzurun ölkə iqtisadiyyatına reinteqrasiyası və hərtərəfli tərəqqisi istiqamətində aparılan kompleks və sistemli işlər bölgənin simasını tamamilə dəyişdirir və onun dayanıqlı inkişafı üçün münbit şərait formalaşdırır.

Regionda sosial-mədəni həyatın dirçəldilməsi istiqamətində də dövlətimiz mühüm addımlar atır. Bu baxımdan, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın birbaşa diqqət və qayğısı ilə işğaldan azad edilmiş bölgələrdə tarixi, dini və mədəni abidələrin, milli adət və ənənələrin bərpası və qorunması üçün görülən işlər xüsusi vurğulanmalıdır.

Təqdirəlayiq haldır ki, azad olunmuş doğma yurdlarımızda sosial, iqtisadi və mədəni ekosistemin gücləndirilməsində təhsilin rolu, təhsil mühitinin canlandırılması, o cümlədən ali təhsil ənənələrinin bərpası və inkişafı ön plana çəkilmişdir. Bu baxımdan, 2023-cü il noyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması strateji əhəmiyyət kəsb edir. Dövlət suverenliyinin bərpa edilməsindən düz bir il sonra bu ali təhsil müəssisəsinin müasir infrastrukturla, peşəkar heyətlə və yüzlərlə yüksək ballı tələbələrlə fəaliyyətə başlaması həm dövlətimizin gücünün təzahürlərindən biri, həm də tarixi Zəfərin növbəti təntənəsi olaraq dəyərləndirilməlidir. Bu, həm də tarixi Zəfəri yaşamış gənclərimizə məhz tarixi Zəfərin qazanıldığı məkanda ali təhsil almaq, layiqli vətəndaş və yüksəkixtisaslı kadr kimi yetişmək, eləcə də əzəli torpaqlarımızın bərpası və inkişafında pay sahibi olmaq üçün geniş imkanlar və fürsətlər qazandırır.

Bu kontekstdə təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və iştirakı ilə Qarabağ Universitetinin açılışı məhz 20 Sentyabr Dövlət Suverenliyi Günündə baş tutdu. Dövlət başçımızın qeyd etdiyi kimi, *"Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar. Çünki bu, artıq şanlı tariximizdir. Hesab edirəm ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir"*.

Həqiqətən də, belə əlamətdar tarixi gündə Qarabağ Universitetinin açılışının keçirilməsi hər birimizdə böyük sevinc və fəxarət hissləri yaradır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: *"Bu gün Qarabağda, azad Qarabağda olmaq, sizi görmək, yataqxanada, o balkonda tələbələrin gülər üzlərini görmək doğrudan da böyük xoşbəxtlikdir. Bəlkə də bundan böyük xoşbəxtlik ola bilməz"*.

Dövlət başçısının açılış tədbirində iştirakı, onun tədris binasında və yataqxanalarda mövcud şəraitlə tanış olması, tələbə və müəllim heyəti ilə görüşü və proqram xarakterli çıxışı doğma Xankəndidə qurulmuş bu ali təhsil müəssisəsinə göstərilən yüksək diqqətin bariz nümunələrindən olması ilə yanaşı, professor-müəllim və tələbə heyəti qarşısında olduqca böyük məsuliyyət və vəzifələr qoyur. Xüsusilə vurğulamaq lazımdır ki, açılış mərasimində dövlət başçımızın ölkə ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanan çıxışı zamanı səsləndirdiyi fikirlər Qarabağ Universitetinin yol xəritəsini formalaşdırdı.

## Müasir, vətənpərvər və milli-mənəvi dəyərlərə bağlı gənclərin yetişdirilməsi

Gənc nəslin vətənpərvərlik və milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi hər bir xalqın gələcək inkişafı və kimliyinin qorunması üçün vacib addımlardan biridir. Qarabağ Universitetinin tələbə və müəllim heyəti ilə görüşündə tarixi Zəfəri şərtləndirən əsas amillərdən bəhs edən dövlət başçımız məhz gənclərimizin milli vətənpərvərlik ruhunda tərbiyəsini və mənəvi psixoloji üstünlüyünü önə çəkmişdir. Qeyd etmişdir ki, *"Birinci yerdə, birinci növbədə milli ruh məsələləridir, mənəvi hazırlıqdır. Təbii ki, peşəkarlıq, qəhrəmanlıq, texniki təchizat - bütün bunlar da vacib amillərdir. Ancaq mənəvi üstünlük olmasa, milli düşüncə olmasa, heç bir ən güclü ordu heç vaxt heç bir qələbə qazana bilməz"*. Xüsusilə, uzun illər işğala, ikili standartlara və ədalətsizliklərə məruz qalmış bir dövlətdə gənclərin hərtərəfli inkişafı və hazırlığı önəmli vəzifələrdən hesab olunmalıdır.

Bu baxımdan, Qarabağ Universitetində gənclərin vətənpərvərlik tərbiyəsinin məzmununu formalaşdırarkən onlarda vətən sevgisi, tarix və mədəniyyətə hörmət, milli irsə bağlılıq və sosial məsuliyyət hisslərini inkişaf etdirmək əsas məqsədlər olaraq müəyyən edilmişdir. Xüsusi vurğulamaq lazımdır ki, milli dəyərləri və maraqları hər şeydən üstün tutaraq ömrünü Azərbaycan xalqının gələcəyinə həsr etmiş və bu yolda titanik fəaliyyətlər göstərmiş Ulu Öndər Heydər Əliyevin zəngin irsinin və nümunəvi xidmətlərinin Qarabağ Universitetinin tələbələri arasında təbliğ edilməsi onların layiqli vətəndaş və peşəkar mütəxəssis kimi yetişmələri baxımından müstəsna əhəmiyyətə malik olacaqdır.

*"Güclü iradə, peşəkarlıq, vətənpərvərlik, milli ruhda tərbiyə olunan gənc nəsil olarsa, heç bir qüvvə o xalqın qabağında dura bilməz", "Əgər inam qırılsa, onda heç vaxt ədalət zəfər çala bilməz", "44 günlük Vətən müharibəsi onu göstərdi ki, bəlkə də heç bir ölkədə bizim cəmiyyətimiz qədər birlik nümayiş etdirən cəmiyyət yoxdur. Bizdən sonra gələn nəsil, gənclər də bu yolla getməlidirlər", "Bizim xalqımız üçün gələcəkdə öz gücünə güvənmək, güclü olmaq, güclü dövlət qurmaq, heç kimdən asılı olmamaq, heç kimin qarşısında baş əyməmək - bax bu, əsas hədəflərimizdir", "Yaxşı işləyin, yaxşı oxuyun ki, hər zaman Azərbaycan zəfər çalsın, hər zaman - əgər lazım olarsa, həm döyüş meydanında, həm iqtisadi sahədə, həm siyasi müstəvidə, hər bir yerdə Azərbaycan həmişə zirvələrdə olsun!"* tövsiyələrini bildirməklə dövlət başçımız müasir gənclərimizlə bağlı gözləntilərini və gənclərin vətəndaş məsuliyyətini aydınlaşdırmış oldu. Bu tezislər ədalətsizliklərlə barışmayan, təsir dairəsinə düşməyən, ölkəmizi dünyada layiqli şəkildə təmsil edən və bütün bunlar üçün müasir bilik və bacarıqlara yiyələnən, möhkəm iradəyə sahib, inamlı, həmrəy və özünə güvənən gənclərin yetişdirilməsi vəzifələrini təhsil müəssisələri üçün bir daha aktuallaşdırdı. Bütün bunlar, Qarabağ Universitetində də gənclərin qeyd olunan keyfiyyətlərə malik vətənpərvər şəxsiyyət kimi hərtərəfli inkişafını dəstəkləyəcək akademik mühitin qurulmasını prioritetləşdirir.

*"İki tərbiyə mənbəyi var - ailə və müəllim"* fikirlərini qeyd edən Azərbaycan Prezidenti tarixi Zəfərin qazanılmasında mühüm pay sahibi olan gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində adət-ənənələrimizin və ailə dəyərlərimizin üstünlüyünü vurğulamaqla yanaşı, müəllimlərin rolunu da önə çəkdi. *"Müəllimlər uşaqların, gənclərin biliklərini artırmaq, eyni zamanda onların vətənpərvərlik ruhunda tərbiyəsi üçün fəal və səmərəli işləyirlər. İkinci Qarabağ müharibəsi bunu göstərdi"* ifadələri ilə dövlət başçımız müəllimlərin əməyini yüksək qiymətləndirmiş və eyni zamanda ölkəmizlə bağlı tarixi həqiqətlərin unudulmaması və gənc nəslə çatdırılması işində onların üzərinə çox böyük vəzifələrin düşdüyünü xüsusi qeyd etmişdir.

## Qarabağ Universitetində yaradılan imkanlar və qarşıya qoyulan vəzifələr

Prezident İlham Əliyevin çıxışında səsləndirdiyi *"Qarabağ Universiteti bizim aparıcı ali məktəblərdən birinə çevriləcəkdir"* ifadəsi artıq universitetimizin əsas hədəfi və devizi olaraq müəyyən edilmişdir. Təqdirəlayiq haldır ki, qarşıya qoyulan bu hədəfə nail olmaq üçün dövlətimiz tərəfindən həm maddi infrastruktur, həm də məzmun baxımından bütün imkanlar təmin edilir və yüksək dəstək göstərilir.

Dövlət başçımızın birbaşa diqqət və qayğısı nəticəsində qısa müddət ərzində universitetdə müasir tədris infrastrukturu yaradılmışdır. Belə ki, bütün tədris binalarında əsaslı təmir işləri həyata keçirilmiş, əsas tədris binasının fasadı yenilənmiş, bütün kommunikasiya xətləri quraşdırılmış, tədris və inzibati otaqlar müasir tələblərə cavab verən müvafiq avadanlıqlarla təchiz olunmuşdur.

Elm və Təhsil Nazirliyinin dəstəyi və birbaşa iştirakı ilə fəaliyyətə başlayan Qarabağ Universiteti hazırda 3 tədris binasında yerləşir. Əsas tədris binasında Pedaqoji, Mühəndislik, Humanitar və sosial elmlər, İqtisadiyyat və Turizm fakültələri, 2-ci tədris binasında İncəsənət fakültəsi, 3-cü tədris binasında isə Beynəlxalq dil mərkəzi fəaliyyət göstərir.

Əsas tədris binasında (6800 $m^2$) 37 auditoriya, 55 inzibati otaq, 1 kitabxana, 6 laboratoriya, 1 akt zalı, 2 iclas zalı, 1 yeməkxana, 1 tibb məntəqəsi, 2 idman zalı və 55 texniki otaq olmaqla ümumilikdə 161 otaq istifadəyə verilmişdir.

İncəsənət fakültəsinin yerləşdiyi ikinci tədris binasında (1900 $m^2$) 17 ixtisas otağı, 5 auditoriya, 2 emalatxana, 1 kitabxana, 1 studiya, 1 konsert zalı, 1 akt zalı, 1 tibb otağı, 6 inzibati otaq və 7 texniki otaq olmaqla ümumilikdə 42 otaq mövcuddur.

Beynəlxalq dil mərkəzinin yerləşdiyi üçüncü tədris binasında (4000 $m^2$) 23 auditoriya, 6 inzibati otaq, 6 texniki otaq, 1 akt zalı və 1 yeməkxana olmaqla ümumilikdə 37 otaq var.

Tələbələrin nəzəri biliklərinin praktiki bacarıqlarla möhkəmləndirilməsi üçün ilk tədris ilinin müvafiq ehtiyacları nəzərə alınmaqla universitetdə 6 laboratoriya yaradılmışdır. Bunlar fizika, kimya, mexatronika, robototexnika, kompüter və qrafiki dizayn, kompüter və proqramlaşdırma laboratoriyalarıdır.

Müasir standartlara uyğun şəkildə dizayn edilmiş universitet kitabxanasının xidmətlərindən eyni anda 200 tələbə istifadə edə bilər. Kitabxananın kitab fondunda Azərbaycan, ingilis və rus dillərində 6000-dən çox dərslik, dərs vəsaiti və digər ədəbiyyatlar mövcuddur. Kitabxanada tətbiq olunan avtomatlaşdırılmış sistem vasitəsilə müvafiq ədəbiyyatları asanlıqla tapmaq və sifariş etmək mümkündür. Eyni zamanda tələbələr "Elektron kitabxana" sisteminin geniş imkanlarından faydalana bilərlər. Bundan başqa, kitabxanada elmi məqalələr, tədqiqatlar və digər akademik materiallarla zəngin "Scopus", "Web of Science" və digər mötəbər elmi məlumat bazalarına çıxış imkanları təqdim olunur. Kitabxanada müəllim və tələbələrin qrup şəklində fəaliyyətləri üçün müzakirə otaqları yaradılmışdır.

Universitetin bütün ərazisində genişmiqyaslı abadlıq işləri həyata keçirilmişdir. Əsas tədris binasının qarşısında 2,3 hektar ərazidə müasir tələblərə uyğun yeni park salınmışdır. Universitetin həyətində 1,1 hektar sahədə yaşıllaşdırma işləri həyata keçirilmişdir.

İlk tədris ilində Qarabağ Universitetində 6 fakültə yaradılmışdır: Pedaqoji, İncəsənət, Humanitar və sosial elmlər, Mühəndislik, İqtisadiyyat və Turizm.

Pedaqoji fakültədə "Riyaziyyat müəllimliyi", "İbtidai sinif müəllimliyi", "Xarici dil müəllimliyi (ingilis dili)", "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasları üzrə tədris həyata keçirilir. İncəsənət fakültəsi "Musiqi müəllimliyi", "Dekorativ-tətbiqi sənət", "Dizayn", "İnstrumental ifaçılıq" və "Vokal sənəti" ixtisaslarını əhatə edir. Humanitar və sosial elmlər fakültəsində "Beynəlxalq münasibətlər", "Hüquqşünaslıq", "Tarix" və "Psixologiya" ixtisasları üzrə kadr hazırlığı təşkil edilmişdir.

Mühəndislik fakültəsində "Elektrik və elektronika mühəndisliyi", "İnşaat mühəndisliyi", "Kompüter mühəndisliyi", "Logistika və nəqliyyat texnologiyaları mühəndisliyi", "Mexatronika və robototexnika mühəndisliyi" ixtisasları üzrə kadr hazırlığı nəzərdə tutulmuşdur. İqtisadiyyat fakültəsində "Beynəlxalq ticarət və logistika", "İqtisadiyyat", "Maliyyə", "Menecment", "Mühasibat", "Dövlət və bələdiyyə idarəetməsi" ixtisasları tədris olunur. Turizm fakültəsində isə "Turizm işinin təşkili ixtisası" üzrə yüksəkixtisaslı mütəxəssis hazırlığı aparılır.

2024-2025-ci tədris ili üzrə universitetin bakalavriat səviyyəsinə tələbə qəbulu planında ümumilikdə 1120 yer nəzərdə tutulmuşdur. Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanların nəticələrinə əsasən, 1104 tələbə qəbul olmuş və qəbul planı 98,5 faiz yerinə yetirilmiş, 1094 tələbə qeydiyyatdan keçmişdir.

Qarabağ Universitetinə qəbul olan tələbələrdən 101 nəfəri 600-dən çox bal, 385 nəfəri isə 500-dən çox bal toplamışdır. Ən yüksək nəticə 683,8 balla Hüquqşünaslıq ixtisası üzrə qeydə alınmışdır. Olimpiada qalibi olan 1 abituriyent universitetin Elektrik və elektronika mühəndisliyi ixtisasına müsabiqədənkənar qəbul edilmişdir. Ümumilikdə, Qarabağ Universitetinə I-IV ixtisas qrupları üzrə qəbul olan tələbələrin orta qəbul balı 467,6 təşkil etmişdir. Tələbələrin 54 faizi (625) oğlan, 46 faizi (529) isə qızdır. İlk tələbələrimiz respublikamızın bütün regionlarını təmsil edir.

Bundan əlavə, ilk tədris ilində Qarabağ Universitetində Hüquqşünaslıq, Xarici dil müəllimliyi (ingilis dili), Maliyyə və Mühasibat ixtisasları üzrə SABAH qrupları təşkil olunmuşdur. Müxtəlif ali təhsil müəssisələrinin birinci tədris ilini (kursunu) bitirmiş tələbələri arasında keçirilən müsabiqədə uğur qazanan 60 tələbə sözügedən 4 ixtisas üzrə Qarabağ Universitetinin SABAH qruplarında ikinci tədris ilində təhsil alır.

Beləliklə, hazırda Qarabağ Universitetində 1154 tələbə ilə cari tədris ilinə start verilmişdir.

Hazırda Qarabağ Universitetinin ümumilikdə 160 nəfər əməkdaşı var. Bunlardan 62 nəfər akademik heyət üzvü, 83 nəfər inzibati heyət üzvü, 15 nəfər isə texniki heyət üzvüdür. Əməkdaşlar arasında 16 nəfər məcburi köçkün, 2 nəfər müharibə veteranı, 2 nəfər şəhid ailəsi üzvü vardır.

Universitetin kadr heyətinin seçimi zamanı Qarabağ Universitetinin fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili üçün vacib olan bilik və bacarıqlara sahib peşəkar mütəxəssislərə üstünlük verilmişdir. Hazırda peşəkar və təcrübəli yerli və xarici professor-müəllim heyətinin akademik fəaliyyətə cəlb olunması istiqamətində işlər davam etdirilir. Bu prosesdə xaricdə yaşayan azərbaycanlı alimlər, eləcə də müvafiq dövlət proqramları ilə nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil alan gənclər diqqət mərkəzində saxlanılır.

Universitet şəhərciyində tələbələrin və əməkdaşların yaşaması üçün ayrılmış binalarda mənzillər əsaslı təmir olunmuş və müvafiq avadanlıqlarla təchiz edilmişdir. Universitet əməkdaşlarının və onların ailələrinin yaşaması üçün nəzərdə tutulan 4 binada ümumilikdə 186 mənzil mövcuddur. Hazırda bütün əməkdaşların və onların ailə üzvlərinin məskunlaşması təmin olunmuşdur. Əməkdaşların universitetdə çalışdıqları müddətdə həmin mənzillərdə ödənişsiz əsaslarla yaşaması nəzərdə tutulmuşdur. Eyni zamanda tələbələrin yaşaması üçün nəzərdə tutulan mənzil tipli 5 yataqxana binasında yaşayış şərtləri müasir kampus konseptinə uyğunlaşdırılmış və bütün tələbələrin ödənişsiz əsaslarla məskunlaşması təmin edilmişdir.

Qarabağ Universitetində ölkəmizin hərtərfli inkişafında mühüm rol oynayacaq yüksəkixtisaslı mütəxəssis hazırlığı həyata keçiriləcəkdir. Bu baxımdan, bütün ixtisaslar üzrə təhsil proqramları qabaqcıl milli və beynəlxalq təcrübələr nəzərə alınmaqla yeni məzmunda hazırlanmışdır. Universitetin məqsədi tələbələrin ixtisasları üzrə zəruri kompetensiyalara yiyələnməsini təmin etmək, nəzəri biliklərlə yanaşı, onların praktiki bacarıqlarını da gücləndirməkdir.

Qarşıya qoyulan əsas vəzifələrdən biri ən müasir universitet idarəetmə modelinin tətbiq edilməsidir. Qarabağ Universiteti tələbəəsaslı universitet konsepti əsasında qurulur. Başqa sözlə, Qarabağ Universitetində tədris prosesi və akademik mühit müasir Azərbaycan gəncinin arzu, istək və maraqlarına uyğun şəkildə formalaşdırılır. Tələbələrin Ulu Öndərimizin ideyalarına sadiq, müasir dünyagörüşlü, vətənpərvər ruhlu, dayanıqlı inkişaf təfəkkürlü, kreativ və innovativ düşüncəli olması əsas məqsədlərdəndir. Bununla yanaşı, tələbələrin texnoloji, xarici dil, tədqiqat, startap, sahibkarlıq, kommunikasiya və digər yumşaq bacarıqlarının yüksək səviyyədə olması xüsusi diqqət mərkəzində saxlanılır.

Qarabağ Universitetində tələbələrə onların hərtərəfli inkişafını dəstəkləyəcək maraqlı sosial həyat və məzmunlu tələbə mühiti təmin edilir. Əsas məram müasir Azərbaycan gəncini xoşbəxt etmək üçün bütün imkanların mövcud olduğu universitet yaratmaqdır.

Qarabağ Universiteti tədqiqatəsaslı bir universitet modelində qurulur. Belə ki, universitetin müasir infrastrukturu, laboratoriya bazası və yüksək akademik potensialı Qarabağ və Şərqi Zəngəzurun, bütövlükdə Azərbaycanın sosial-iqtisadi inkişafına real töhfələr verə biləcək elmi-tədqiqat nəticələrinin əldə olunmasına imkan yaradacaqdır. Qarabağ Universitetinin nüfuzlu beynəlxalq elmi tədbirlərə evsahibliyi etməsinə, professor-müəllim və tələbə heyətinin beynəlxalq elmi platformalarda layiqincə təmsil olunmasına xüsusi önəm veriləcəkdir.

Qarabağ Universiteti təhsil, tədqiqat və sosial xidmətləri ilə Qarabağın bərpası, işğaldan azad olunmuş torpaqlarda həyatın canlanması, sosial-iqtisadi və mədəni landşaftın inkişafı istiqamətində dövlət tərəfindən həyata keçirilən kompleks və sistemli fəaliyyətlərə töhfə verəcəkdir.

Bununla yanaşı, ölkənin və regionun əmək bazarının tələbləri nəzərə alınaraq universitetdə kadr hazırlığı istiqamətləri genişləndiriləcəkdir. Qarabağın müxtəlif ərazilərində ali təhsil xidmətlərinin göstərilməsini təmin etməklə universitet şəhər və rayonlar arasında birləşdirici mövqeyini gücləndirəcək. Ölkə başçısının qeyd etdiyi kimi, *"Növbəti illərdə Tibb fakültəsi də yaradılacaq. Xocalıda Aqrar elmlər fakültəsi, Şuşada Turizm fakültəsi fəaliyyət göstərəcək. Yəni bu, bir neçə şəhəri birləşdirən universitet olacaq. Əlbəttə ki, Qarabağa qayıdacaq keçmiş köçkünlər, onların uşaqları burada oxuyacaq və ölkəmizin hər bir yerindən gənclər buraya gələcəklər"*.

Beləliklə, dövlətin yüksək diqqət və qayğısı sayəsində müasir tələblər səviyyəsində qurulan Qarabağ Universiteti ortamüddətli perspektivdə regional ekosistemin drayveri olmaq, "yaşıl transformasiya" hədəfli layihələrin reallaşdırılacağı məkana çevrilmək və davamlı inkişafı dəstəkləyən innovativ həllərin təşəbbüskarı qismində çıxış etmək imkanlarına sahib olacaqdır. Qısa bir zamanda, Qarabağ Universiteti ölkəmizin əsas elm, təhsil və innovasiya mərkəzlərindən birinə çevriləcək.

*Qarabağ Universitetinin yaradılmasına və qısa müddət ərzində fəaliyyətə başlamasına göstərilən yüksək diqqət və qayğıya görə möhtərəm Prezidentə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya bir daha dərin minnətdarlığımızı bildiririk. Əmin edirik ki, qarşımıza qoyulmuş hədəflərə çatmaq üçün Qarabağ Universiteti ailəsinin bütün üzvlərinin bilik və bacarıqları səfərbər olunacaqdır.*

**Şahin BAYRAMOV,**
***Qarabağ Universitetinin rektoru***

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2024-cü ilin oktyabr ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Cavad oğlu ƏHMƏDOV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini | 2 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 10 |
| **Musa Cəfər oğlu QASIMLI** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 9 |
| **Rafael Baba oğlu HÜSEYNOV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini | 7 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 3 |
| **Arzu Nəsib oğlu NAĞIYEV** Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 24 |
| **Zahid Məhərrəm oğlu ORUC** Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 21 |
| **Sadiq Haqverdi oğlu QURBANOV** Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 4 |
| **Azər Kamal oğlu ƏMİRASLANOV** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 22 |
| **Tahir Musa oğlu RZAYEV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 15 |
| **Musa İsa oğlu QULİYEV** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 14 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 17 |
| **Hicran Kamran qızı HÜSEYNOVA** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 23 |
| **Şahin Əmir oğlu İSMAYILOV** Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 30 |
| **Fazil Qəzənfər oğlu MUSTAFA** Milli Məclisin İctimai Birliklər və dini qurumlar komitəsinin sədri | 31 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 11 |
| **Anar Camal oğlu İSGƏNDƏROV** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 28 |
| **Polad BÜLBÜLOĞLU** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 16 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 8 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin İntizam komissiyasının sədri | 4 |
| **Fərid Famil oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 1 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 8 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 25 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 11 |
| **Adil İsrayıl oğlu VƏLİYEV** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 18 |
| **Şakir Himalay oğlu ŞABANOV** Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 29 |
| **Ayan Zəfər qızı MURTUZOVA** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 15 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının qəbul otağında qəbul olunurlar.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti, 1.**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini təmin etmək məqsədilə:**

**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edirlər.**

**Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05.**

# Mövcud reallıq bizə silahı yerə qoymamağı diktə edir



**İkinci Dünya müharibəsindən sonra bəşəriyyət özünün ən gərgin dövrünü yaşayır. Artıq hamı üçüncü dünya savaşından danışır. Siyasətçilərin, hərbi mütəxəssislərin bir hissəsi üçüncü dünya müharibəsinin astanada olduğunu, digərləri isə faktiki olaraq onun artıq başladığını söyləyirlər.**

Qərb-Şərq bloku arasında hegemonluq uğrunda yenidən başlanan mübarizə özünün qanlı müstəvisinə keçib. Baxmayaraq ki, qlobal səviyyədə istehsal azalır, işsizlik artır, qiymətlər bahalaşır, insanların sosial vəziyyəti ağırlaşır, dövlətlər özünün müdafiəsini təmin etmək üçün silahlanmaqda davam edir. Elə bu səbəbdən son bir neçə ildə dünya üzrə hərbi məqsədlər üçün xərclənən vəsaitin həcmi bir neçə dəfə artıb.

Hazırda Rusiya-Ukrayna müharibəsi özünün pik həddinə çatıb. Tərəflər sülhdən danışsa da, döyüş meydanında baş verən qanlı toqquşmalar göstərir ki, sülhə ümid etmək hələ tezdir. Digər tərəfdən, İsrail-Həmas müharibəsi bitməmiş İsrail-Hizbullah müharibəsi başlayıb. Hərbi və siyasi ekspertlər bu qarşıdurmanın Suriyaya keçməsi ehtimalı olduğunu da söyləyirlər. Üstəlik, İran-İsrail münasibətləri gərgin olaraq qalır. Bu iki ölkənin savaşa başlaması isə Yaxın Şərqin yanan ocağa çevrilməsi, müharibənin daha geniş ərazilərə yayılması və milyonlarla insanın məhv olması, dünya iqtisadiyyatının ən azı 10 il böhran içində qalması deməkdir. Yaxın Şərqdəki gərginlik bununla da bitmir. Yəməndəki husilər də İsrailin Həmas və Hizbullahla apardığı müharibəyə qoşulublar.

Bunlar hələ harasıdır? Sakit okeandakı siyasi, iqtisadi və hərbi qarşıdurma müharibəyə çevrilsə, dünya elə bir zərbə alar ki, mövcudluğu sual altında qalar. ABŞ və onun Uzaq Şərqdəki tərəfdaşları ilə Çin arasındakı gərginliyi nəzərdə tuturuq. Bu gərginliyin nə ilə qurtaracağını heç təcrübəli ekspertlər belə bilmirlər.

Çox təəssüflər olsun ki, Qərb tərəfindən aparılan avantürist siyasət nəticəsində yaşadığımız bölgə də dünyanın müharibə ruski olan regiona çevrilib. 44 günlük Vətən müharibəsi və Qarabağda 2023-cü il sentyabrın 19-20-də aparılan antiterror əməliyyatı ilə biz ərazi bütövlüyümüzü və dövlət suverenliyimizi tam bərpa etdik. Bu döyüşlər zamanı Ermənistan ordusu fiziki və mənəvi cəhətdən darmadağın oldu. Ermənistandakı revanşist qüvvələr nə qədər atılıb-düşsə də, bizə elə bir təhlükə yaratmır, təbii ki, kənar araqızışdıranlar olmasa. Həmin araqızışdıranlar bu gün gizli və açıq şəkildə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanmasına mane olaraq Cənubi Qafqazı yenidən qan çanağına çevirmək istəyirlər. Prezident İlham Əliyev də 7-ci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı nitqində bildirdi ki, Ermənistanda revanşist qüvvələr yenidən baş qaldırıb və onlar təkcə marginal revanşist qüvvələr deyil, həm də Ermənistan hakimiyyətinin təmsilçiləridirlər. Məqsədləri yenidən müharibə etmək və ötən əsrin 90-cı illərində olduğu kimi, torpaqlarımızı zəbt etməkdir.

Odur ki, bu gün əsas vəzifəmiz düşmənin və onun havadarlarının hər cür təxribatlarına hazır olmaqdır. Bununla bağlı Prezident İlham Əliyev Milli Məclisdəki nitqində demişdir: "Ona görə bir daha deyirəm: vəzifə nömrə bir - hərbi gücümüzün artırılması və biz bunu edirik. İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü böyük dərəcədə artırmışıq, yeni silahlı birləşmələr yaradıldı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı. Yeni Xüsusi Təyinatlı Qüvvələr, Komando qüvvələri yaradıldı və onların da say tərkibi ildənilə artır və artacaq. Digər xüsusi təyinatlı silahlı birləşmələr yaradılmışdır və gecə-gündüz təlim işləri aparılır. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir. Ermənistan və onun arxasında duran istənilən ölkə bilməlidir ki, bizimlə şantaj və ultimatum dili ilə danışmaq mümkün olmayacaq. İstənilən cavabı verməyə hazırıq, buna qadirik və hər zaman buna hazır olmalıyıq".

Dünyada silah istehsalı və ixracı əsasən Qərbin əlindədir. Onlar öz siyasi və hərbi məqsədləri üçün istədikləri vaxt silahın satışına məhdudiyyətlər qoyur və ya sanksiyalar tətbiq edirlər. Bunu qardaş Türkiyənin timsalında açıq görürük. O üzdən Türkiyə özünün müdafiə sənayesini dünya standartları səviyyəsində inkişaf etdirməyə məcbur olmuşdur. Biz də dünyanın bu ikili standartlarından nəticə çıxarmaq məcburiyyətindəyik. Dövlətimizin başçısı bu barədə demişdir: "...biz yerli hərbi sənaye kompleksimizi də daha sürətlə inkişaf etdirməliyik. Bu il bu məqsədlə böyük vəsait ayrılmışdır və gələn il də ayrılacaq. Bizim bütün hərbi zavodlarımızda genişmiqyaslı modernləşmə işləri aparılır. Deməli, yeni avadanlıq, texnika, silah-sursat istehsal olunur. Bir neçə xarici tərəfdaşla yeni istehsalat sahələrinin yaradılması artıq praktik müstəviyə keçibdir. Yəqin ki, növbəti bir-iki il ərzində bizim hərbi sənaye kompleksimiz daha böyük olacaqdır, həm çeşidlərin sayına, həm də ki, istehsal olunacaq məhsulların keyfiyyətinə görə. Burada bir neçə məqsəd güdülür. İlk növbədə yerli hərbi sənaye kompleksinin yaradılması hər bir ölkənin ümumi gücünü və inkişafını göstərir. İkincisi, biz xarici mənbələrdən daha az asılı olmalıyıq".

Azərbaycan dünyanın inkişaf etmiş ölkələri ilə müdafiə sənayesi üzrə əməkdaşlıq etmək və özünün istehsal etdiyi silah-sursatları, hərbi texnika və avadanlıqları nümayiş etdirmək üçün 2014-cü ildən "ADEX" sərgiləri keçirir. Növbəti 5 illik yubiley sərgisində ölkəmiz daha çox hərbi məhsulları ilə təmsil olunurdu. Sərgidə həmçinin dünaynın 50-dən çox ölkəsinin 200-ə yaxın şirkəti öz məhsullarını nümayiş etdirirdi.

Sərgi ilə tanış olan Prezident İlham Əliyev Müdafiə Sənayesi Nazirliyinin tabeliyindəki "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxmışdır. Burada "Azərsilah"a məxsus pavilyonda PUA, müxtəlif növ kəşfiyyat və kamikadze dronları, 30 millimetrlik avtomatik top, zirehli gödəkçələr, aviabombalar və təlim simulyatorları nümayiş etdirilirdi.

Ertəsi gün Prezident, Ali Baş Komandan İlham Əliyev Heydər Əliyev Beynəlxalq Aeroportunda Pakistan Aviasiya Kompleksi və Chengdu Çin Aviasiya Korporasiyasının birgə layihəsi olaraq hazırlanmış müasir, yüngülçəkili, istənilən hava şəraitinə uyğun, gündüz və gecə rejimli çoxməqsədli JF-17C (Blok-III) təyyarəsi ilə tanış olmuşdur. Dövlət başçısına məlumat verilmişdir ki, JF-17C (Blok-III) birmühərrikli çoxməqsədli döyüş təyyarəsidir. Hava-hava və hava-yer döyüş qabiliyyətinə, eləcə də orta və aşağı hündürlükdə yüksək döyüş manevrinə malik olan JF-17C effektli atış gücünə görə analoqlarından seçilir.

Göründüyü kimi, Azərbaycan qabaqcıl ölkələrdən silah almaqla yanaşı, yerli müdafiə sənayesini inkişaf etdirmək üçün dünyanın öndə gedən şirkətləri ilə də əməkdaşlıq edir. Məqsəd, dövlət başçısının dediyi kimi, özümüzü maksimum dərəcədə yerli silahlarla və hərbi texnika ilə təmin etməkdir. Ali Baş Komandanın "ADEX" sərgisi və JF-17C ilə tanışlığı isə göstərdi ki, bu hədəfi də dəf etməkdəyik.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2024-cü ilin oktyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | Hacıqabul | Hacıqabul, Şirvan | 04 |
| 2. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Qazax | Qazax, Ağstafa, Tovuz | 04 |
| 3. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Yardımlı | Yardımlı, Masallı | 04 |
| 4. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Mingəçevir | Mingəçevir, Yevlax | 08 |
| 5. | **Daxili işlər naziri** Vilayət Eyvazov | Gəncə | Gəncə, Goranboy, Naftalan, Göygöl, Samux, Kəlbəcər, Xocalı | 10 |
| 6. | **Baş prokuror** Kamran Əliyev | Gəncə | Gəncə | 11 |
| 7. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Siyəzən | Siyəzən, Xızı | 11 |
| 8. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Bərdə | Bərdə, Ağcabədi, Ağdam, Tərtər, Laçın | 11 |
| 9. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | Şəmkir | Şəmkir, Gədəbəy | 11 |
| 10. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | Ucar | Ucar, Zərdab | 15 |
| 11. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Tovuz | Tovuz, Ağstafa, Qazax, Şəmkir, Gədəbəy | 18 |
| 12. | **Energetika naziri** Pərviz Şahbazov | Göygöl | Göygöl, Gəncə, Goranboy, Naftalan, Samux, Daşkəsən, Kəlbəcər | 18 |
| 13. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | Qax | Qax, Zaqatala | 18 |
| 14. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Beyləqan | Beyləqan, İmişli, Xocavənd | 18 |
| 15. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Daşkəsən | Daşkəsən, Gəncə, Göygöl, Samux, Kəlbəcər | 18 |
| 16. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Bərdə | Bərdə, Tərtər | 18 |
| 17. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Zaqatala | Zaqatala, Balakən | 18 |
| 18. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | Şəki | Şəki, Qax | 18 |
| 19. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Lənkəran | Lənkəran, Astara, Lerik | 21 |
| 20. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Qusar | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən, Xızı | 21 |
| 21. | **Ədliyyə naziri** Fərid Əhmədov | Neftçala | Neftçala, Salyan, Şirvan, Hacıqabul | 25 |
| 22. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Hacıqabul | Hacıqabul, Şirvan | 25 |
| 23. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Ağdaş | Ağdaş, Mingəçevir, Yevlax, Göyçay, Ucar, Zərdab, Kürdəmir | 25 |
| 24. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | Qəbələ | Qəbələ, Oğuz | 25 |
| 25. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Füzuli (Horadiz şəhəri) | Füzuli, Beyləqan, Xocavənd | 28 |
| 26. | **Mədəniyyət naziri** Adil Kərimli | Ağcabədi | Ağcabədi, Ağdam, Bərdə, Tərtər, Laçın | 30 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# *Türkiyəli diplomat:* "Azərbaycanın düşmənləri 44 günlük müharibənin dərslərini yaddan çıxarmamalıdırlar"

**"Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycanın gücünü və qüdrətini dünyaya nümayiş etdirən tarixi Qələbə qazandı".**




Bu fikri Türkiyənin Azərbaycandakı keçmiş səfiri, "İMZA" Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyədəki nümayəndəsi Hulusi Kılıç 27 Sentyabr - Anım Günü münasibətilə AZƏRTAC-a bildirib.

Diplomat Azərbaycan övladlarının erməni işğalçılarına qarşı döyüş meydanlarında göstərdiyi qəhrəmanlıqları yüksək qiymətləndirib: "Azərbaycan xalqı tarixi məqsəd naminə öz liderinin və ordusunun ətrafında birləşdi. Şəhidlərin xatirəsini dərin ehtiramla yad edir, qazilərə, Qələbə gününün yaxınlaşmasında əməyi olan hər kəsə dərin minnətdarlığımı bildirirəm".

Kılıçın sözlərinə görə, 44 günlük müharibə zamanı Azərbaycan hərbçilərinin peşəkarlığı və məharəti dünya hərb sənəti tarixinə dair məqalələrdə və dərsliklərdə öz əksini tapmalıdır. "Biz hamımız şahidi olduq ki, yaralı Azərbaycan əsgərləri yenidən döyüşə can atırdılar, Azərbaycan qadınları başlarını dik tutub şəhidlərin cənazələri olan tabutları daşıyırdılar. Bütün bunlar Azərbaycan xalqının möhkəm iradəsinin və sarsılmaz ruhunun nümunəsidir", - deyə "İMZA" İctimai Birliyinin nümayəndəsi vurğulayıb.

Hulusi Kılıç 44 günlük müharibədə qazanılan Zəfəri Prezident İlham Əliyevin müdrikliyinin və dəyanətinin nümayişi adlandırıb: "Azərbaycan liderinin Vətən müharibəsi günlərində səsləndirdiyi mesajlar təkcə öz xalqına deyil, bütün dünya ictimaiyyətinə ünvanlanıb. Əminəm ki, Azərbaycan vətəndaşlarının gələcək nəsilləri bu şanlı tarixi təfsilatı ilə öyrənəcək".

Türkiyəli ekspert diqqəti Türkiyənin Azərbaycanın ədalətli mübarizəsinə dəstəyinə də çəkib.

Azərbaycan ərazisində bir əsrdən də çox əvvəl qardaş xalqın köməyinə gələn minlərlə türk hərbçisinin məzarlarının olduğunu xatırladan keçmiş səfir deyib: "Bizim qəlbimizdə Azərbaycan əsgərlərinin xatirəsi Türkiyə oğulları kimi əziz yer tutur".

Hulusi Kılıç deyib: "Şəhidlərin qəhrəmanlığı heç vaxt unudulmayacaq. Azərbaycanla dostluq bizim üçün çox qiymətlidir. Eyni zamanda Azərbaycanın düşmənləri də 44 günlük müharibənin və lokal xarakterli antiterror əməliyyatının dərslərini yaddan çıxarmamalıdır. Arzum odur ki, müharibələr bir daha Azərbaycanın gələcəyinə təhlükə yaratmasın".

# *General:* "Azərbaycana qarşı münasibət Qərbin istismarçı zehniyyətinin növbəti tərənnümüdür"

"Son günlər başda Fransa olmaqla, bəzi Qərb dairələrin Azərbaycana qarşı çıxışlarını fəallaşdırmasının bizi təəccübləndirdiyini desək, yalan olar. Bu gün Azərbaycana qarşı olan bu münasibət artıq yüz illərdir ki, bir sıra dövlətləri və ölkələri istismar edən, o bölgələrdə söz sahibi olmağa alışmış Qərbin bir sıra imperialist qüvvələrinin zehniyyətinin növbəti tərənnümüdür. Birinci və İkinci Dünya müharibələrinin qalibləri son yüz il ərzində dünyanı özlərinə uyğun nizam üzərində qurublar. Elə Fransanın G7, G20 və BMT Baş Assambleyasının daimi üzvü olmasının əsas səbəbi də imperialist, istismarçı bir dövlət olmasıdır".

Bu fikirləri AZƏRTAC-a Türkiyənin Azərbaycandakı sabiq hərbi attaşesi, general Yücel Karauz ifadə edib.

"Fransa bu gün, demək olar ki, dünyanın bir çox bölgəsində arzuolunmazlar siyahısına daxil edilib. Bu da onu yaratdığı vəziyyətdən çıxış yolu axtarmağa vadar edir ki, o da bu yolu Qafqazda, xüsusilə türk coğrafiyasında tapmağa çalışır. Fransanın liderlik etdiyi bəzi Qərb dairələr Qafqazda sülhün, sabitliyin və inkişafın əleyhinədirlər. Onların istəyi Qafqazda söz sahibi olmaqdır. Əvvəllər onlar bunu NATO vasitəsilə həyata keçirmək istədilər, lakin planları alınmadı. İndi isə qurulduğu gündən bəri Qərbin, bəzən də başqa ölkələrin oyuncağı olan Ermənistandan istifadə etmək istəyirlər. Onların əsas məqsədi Qafqazdakı vəziyyəti qarışıq hala gətirərək bölgədəki sülh və sabitlik nizamını pozmaqdır. Bu səbəbdən də mövzuya, sadəcə, Azərbaycan-Ermənistan tərəfindən baxmaq düzgün deyil. Rəsmə geniş baxsaq, əslində, Qərbin imperialist dairələrinin bu münasibətinin sadəcə Azərbaycana qarşı deyil, eyni zamanda Türkiyə, Rusiya və İranı da fərqli bölgələrdən təzyiq altına salmaq hədəfi daşıdığını görərik. Yəni bu münasibət böyük bir siyasətin Azərbaycana düşən hissəsidir", - deyə general bildirib.

Artıq nə Azərbaycanın, nə də Türkiyənin keçmişdəki kimi olmadığını deyən Yücel Karauz əlavə edib: "Prezident İlham Əliyevin də dediyi kimi, bugünkü Azərbaycana heç kim barmaq sallaya bilməz. Heç kim də Azərbaycanın səbrini, səmimiyyətini və xoş münasibətini sınamasın. Bu səbri sınayanların səslərinin 2020-ci ildə başlarına aldıqları "dəmir yumruq"la necə batdığını hər birimiz gördük. Bu gün Azərbaycan hökuməti təkcə ölkəsi və bölgə üçün deyil, həm də dünyanın gələcəyi, sülh və sabitlik üçün də bir çox işlər görür. Lakin bu, "dəmir yumruğ"un bu gün də havada olmadığı mənasına gəlmir. Məncə məsələyə elə bu tərəfdən baxmaq daha doğru olardı. Çünki 2020-ci ildə həyata keçirilən, dünya hərb tarixinin ən müzəffər və ən qısa savaşlarında olan, eləcə də türk dünyasının qürur mənbəyi kimi tarixə yazılan 44 günlük Vətən müharibəsi nəticəsində əldə edilən şanlı Zəfər yeni dövrün başlanğıcını da qoydu. Hər kəs bu reallıqla razılaşmalı, vəziyyətə bu aspektdən baxmalıdır. Bununla razılaşmayanlar da, necə deyərlər, "özü bilər". Bu reallıq qarşısında Qərbin fərqli çıxışları qəbuledilməzdir. Bu gün Azərbaycanı Ermənistana qarşı "təzyiq göstərən" tərəf olaraq qələmə vermək səyləri onların niyyətlərini tam mənası ilə ortaya qoyur. Lakin bu gün Azərbaycan öz lideri, qurulduğu təməlləri, xalqın Vətən və dövlətinə olan sevgisi, eləcə də müzəffər ordusu ilə dünya miqyasında söz sahibinə malik və onların qurduqları bütün yalanlar qarşısında dayanmaq qüdrətinə sahib bir ölkədir".




# Milli Adaptasiya Planlarına həsr olunmuş konfrans təşkil edilib



**BMT-nin Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində "COP29-a gedən yol: Adaptasiyaya çoxtərəfli yanaşma" mövzusunda müzakirələr təşkil olunub.**




AZƏRTAC-ın məlumatına görə, açılış nitqi ilə çıxış edən COP29-un Prezidenti Muxtar Babayev son illər çoxtərəfli forumlarda adaptasiya səyləri sahəsində irəliləyiş əldə edildiyini bildirib. Onun sözlərinə görə, lakin adaptasiya mövzusu hələ də kifayət qədər prioritetləşməyib və maliyyələşməyib. Muxtar Babayev deyib ki, bu istiqamətdə strateji əməkdaşlığa, innovativ mexanizmlərə və adaptasiyanın təcililik səviyyəsinə qaldırılması üçün islahatlara ehtiyac var. "Qlobal baxışa əsasən, adaptasiya səyləri Paris Sazişində göstərilmiş uzunmüddətli hədəflərimizə uyğun gəlmir. Bu istiqamətdə yeganə yol adaptasiya ilə bağlı ambisiyaların artırılması və fəaliyyətə təkan verilməsidir. Biz başa düşürük ki, effektiv adaptasiya təkcə maliyyəyə deyil, həm də yaxşı strukturlaşdırılmış planlara, strategiyalara və texniki imkanlara əsaslanır. Qlobal baxışa uyğun olaraq 2025-ci ilə qədər Milli Adaptasiya Planlarına və siyasətlərinə sahib olmalıyıq ki, 2030-cu ilə qədər onların həyata keçirilməsində irəliləyiş əldə edə bilək", - deyə Muxtar Babayev əlavə edib.

COP29 Prezidenti bildirib ki, Azərbaycan NAP-nı hazırlayır və bu yolda bir çox inkişaf etməkdə olan ölkələrin bu planların hazırlanmasında və həyata keçirilməsində üzləşdiyi mühüm problemləri anlayır: "Biz NAP-ların inkişafına dəstəyi genişləndirmək üçün tərəfdaşlarla işləməyə sadiqik. Adaptasiya ilə bağlı uzunmüddətli hədəflərimizə çatmaq üçün maliyyə boşluğunu aradan qaldırmalıyıq. Qlobal baxışa əsasən, adaptasiya maliyyəsi COP26-da razılaşdırılan ikiqat artımdan daha çox artırılmalıdır".

Çıxışçılar son zamanlarda baş verən iqlim fəlakətləri kontekstində daha da təcili xarakter alan adaptasiya üzrə maliyyənin artırılması ətrafında fikir mübadiləsi aparıb.

Tədbirdə Milli Adaptasiya Planlarının və Qlobal Adaptasiya Hədəfinin irəlilədilməsi, həmçinin inkişaf etməkdə olan ölkələr üçün xüsusilə vacib olan adaptasiya maliyyəsi sahəsindəki maneələrin aradan qaldırılması istiqamətində müzakirələr aparılıb.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Köməkçi Qurumlarının sədrlərinin açılış nitqi ilə davam edən tədbirdə çıxışçılar qismində İrlandiya, Tuvalu, Maldiv adaları və Qambiyanın iqlim məsələləri üzrə məsul nazirləri, Kanadanın iqlim dəyişikliyi üzrə səfiri, o cümlədən Adaptasiya Fondunun rəhbəri, Asiya İnkişaf Bankının iqlim dəyişikliyi üzrə direktoru, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Adaptasiya üzrə direktoru və COP29 baş danışıqçısının müavini Samir Becanov adaptasiya səylərini sürətləndirmək üçün həll yollarının tapılması məqsədilə müzakirələrə qoşulub.

Tədbirdə beynəlxalq əməkdaşlığın gücləndirilməsi və inkişaf etməkdə olan kiçik ada dövlətləri və ən az inkişaf etmiş ölkələr kimi xüsusilə həssas bölgələrdə adaptasiya səylərinin maliyyələşdirilməsinin genişləndirilməsinin vacibliyi vurğulanıb. İştirakçılar bu sahədə olan maneələrin aradan qaldırılması və icrası üçün innovativ yanaşmalara çağırış edib.

Tədbirdə yekun nitqi ilə çıxış edən COP29-un baş danışıqçısı Yalçın Rəfiyev iqlim dəyişikliyinin təsirlərinə, xüsusilə həssas olan ölkələri qorumaq üçün qlobal əməkdaşlıq və transformasiyayönümlü tədbirlərin vacibliyini qeyd edib və bu xüsusda, "yaşıl gələcək" naminə iqlim adaptasiyasının qlobal səviyyədə gücləndirilməsi baxımından COP29-un əhəmiyyətli olduğunu vurğulayıb.

# BMT-də COP "Troyka" prezidentliklərinin növbəti yüksəksəviyyəli iclası keçirilib

**BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində COP "Troyka" prezidentliklərinin növbəti yüksəksəviyyəli iclası keçirilib.**

AZƏRTAC-ın məlumatına görə, COP29-un Prezidenti Muxtar Babayev çıxış edərək qlobal iqlim dəyişikliklərinə qarşı mübarizədə birgə səylərin vacibliyini vurğulayıb. O, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) "Troyka" ölkələri - Birləşmiş Ərəb Əmirlikləri (COP28) və Braziliya (COP30) ilə əməkdaşlığı önə çəkib.

Muxtar Babayev qeyd edib ki, COP29 Bakı sammiti dünya ölkələri üçün kritik bir məqam olacaq. "Elmi nəticələr göstərir ki, hazırda dünya Paris Sazişinin hədəflərinə çatmaq üçün kifayət qədər sürətlə irəliləmir. Biz 1,5°C hədəfinin reallaşması üçün milli səviyyədə müəyyən edilən töhfələrin hədəflərini artırmalıyıq", - deyə COP29 Prezidenti bildirib.

Tədbir çərçivəsində Azərbaycan və Braziliya arasında qəbul edilən Bakı-Belem İqlim Tərəfdaşlığı Memorandumunun ölkələr arasında davamlı inkişaf və iqlim dəyişikliyi ilə mübarizə sahəsində əməkdaşlığın gücləndirilməsi üçün vacib bir çərçivə təmin etdiyi qeyd edilib.

Muxtar Babayev vurğulayıb ki, COP29-da yeni maliyyə məqsədlərinin razılaşdırılması və inkişaf edən ölkələrə iqlim dəyişikliyinə qarşı mübarizədə dəstəyin artırılması üçün geniş bir konsensus yaradılmalıdır. "Qarşıdakı günlər və aylar ərzində bu mövzuda bütün ölkələr arasında səmimi əməkdaşlığa ehtiyacımız var", - deyə o əlavə edib.

Tədbirdə bir sıra ölkələrin nazir və yüksəksəviyyəli nümayəndələri, o cümlədən beynəlxalq təşkilatlar iştirak edərək növbəti milli səviyyədə müəyyən edilən töhfələrin hədəflərini açıqlayıblar.

# *Rosen PLEVNELİYEV:* "COP29-da konsensusun və razılaşmanın əldə olunacağına inanıram"

**"COP29-la bağlı Beynəlxalq Məşvərət Komitəsinin üzvü olaraq mən və həmkarlarım nə qədər çox işlərin görüldüyünün şahidiyik. Mən məsələyə optimist yanaşıram və noyabrda konsensusun və razılaşmanın əldə olunacağına inanıram. Biz bunun üçün əlimizdən gələni edəcəyik".**



Bunu AZƏRTAC-a açıqlamasında Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliyev deyib.

Azərbaycanı qlobal konsensus nəticəsində COP29 sədrliyinə seçilməsi münasibətilə təbrik edən sabiq Prezident bildirib: "Ölkələr Azərbaycanın qlobal iqlim dəyişikliyi ilə bağlı tarixi konsensus və razılaşma əldə edə biləcəyinə güvənib. Buna görə Azərbaycan rəhbərliyini də təbrik edirəm. Biz noyabrda bütün dünya liderlərini Azərbaycanda görəcəyik. Bununla yanaşı, icmalar, sosial liderlər, müxtəlif qruplar konsensus əldə etmək məqsədilə Azərbaycanda toplaşacaqlar".

R.Plevneliyev COP29-a hazırlıqla bağlı Azərbaycanın Xarici İşlər və Ekologiya və Təbii Sərvətlər nazirlikləri tərəfindən xeyli iş görüldüyünü də diqqətə çatdırıb.

# COP29 sədrliyi və UNCTAD arasında BICFIT təşəbbüsü sahəsində əməkdaşlığa dair niyyət məktubu imzalanıb



**BMT Baş Assambleyasının 79-cu sessiyası və Nyu York İqlim Həftəsi çərçivəsində COP29-un Prezidenti Muxtar Babayev və təşkilatın Ticarət və İnkişaf Konfransının baş katibi Rebeka Qrinspan arasında ikitərəfli görüş keçirilib.**



AZƏRTAC-ın məlumatına görə, görüş zamanı COP29-un İqlim maliyyəsi, investisiya və ticarət üzrə Bakı Təşəbbüsünə (BICFIT) dair fikir mübadilələri aparılıb. Qeyd olunub ki, COP29 üzrə BMT-nin təsis etdiyi müvafiq Qlobal İşçi Qrupunda təmsil edilən BMT-nin Ticarət və İnkişaf Konfransı (UNCTAD) və BMT-nin İnkişaf Proqramı Azərbaycanın irəli sürdüyü BICFIT təşəbbüsü üzrə BMT tərəfindən əlaqələndirici rolunu oynayırlar. Bununla yanaşı, görüşdə COP29 prezidentliyinin bu təşəbbüs üzrə Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Ticarət Mərkəzi və digər beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq etdiyi deyilib.

Muxtar Babayev bildirib ki, COP29 sədrliyi ilk dəfə olaraq iqlim maliyyəsi, investisiya və ticarət üzrə tematik gün təşkil edəcək. Onun sözlərinə görə, Ticarət və İnvestisiya Evi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı və ÜTT, BMT-nin Ticarət və İnkişaf Təşkilatı, Beynəlxalq Ticarət Mərkəzi və Beynəlxalq Ticarət Palatası kimi tərəfdaşlarla əməkdaşlıqda təşkil olunacaq.

Daha sonra o, COP29 prezidentliyi tərəfindən təklif edilən yeni innovativ BICFIT təşəbbüsünün əhəmiyyətindən bəhs edərək vurğulayıb ki, bu təşəbbüsün əsas məqsədi iqlim maliyyəsi, investisiya, ticarət və dayanıqlı inkişaf məsələlərini bir araya gətirərək qlobal sinerjinin təmin edilməsidir.

Muxtar Babayev deyib ki, COP29 prezidentliyi bütün təşəbbüslərə dair tərəflərlə geniş məsləhətləşmələr keçirir və sentyabrın 13-də İsveçrənin Cenevrə şəhərində Ümumdünya Ticarət Təşkilatının Qlobal İctimai Forumu çərçivəsində ölkələrin və digər bütün tərəfdaşların iştirakı ilə BICFIT təşəbbüsünə dair xüsusi sessiya təşkil edilib.

BMT-nin Ticarət və İnkişaf Konfransının baş katibi Rebeka Qrinspan COP29 zamanı ilk dəfə olaraq maliyyə, investisiya və ticarət gününün vahid tematik gün qismində təşkilinə və Ticarət və İnvestisiya Evinin təşkili üçün göstərilən dəstəyə görə Azərbaycana təşəkkür edib və Azərbaycanın irəli sürdüyü BICFIT təşəbbüsünü yüksək qiymətləndirərək iqlim maliyyəsi, investisiya, ticarət və inkişaf məsələlərini bir araya gətirərək onlar arasında əlaqənin gücləndirilməsinə hədəflənən bu təşəbbüsün böyük perspektivindən bəhs edib. O, BICFIT-in dialoq komponentinin rəhbərlik etdiyi təşkilat tərəfindən iki ildən bir təşkil edilən Ümumdünya İnvestisiya Forumunun bir hissəsi olması ilə bağlı COP29 prezidentliyinin təklifini alqışlayıb.

Görüşün sonunda tərəflər arasında BICFIT təşəbbüsünün digər tərəfdaşlarla sıx əməkdaşlıqda irəlilədilməsi üzrə əməkdaşlığa dair müvafiq niyyət məktubu imzalanıb.

# *Din TAO:* "Çin COP29-a evsahibliyi edəcək Azərbaycanı tam dəstəkləyir"

**"Çin və Azərbaycan arasında praktiki əməkdaşlıq dərinləşməkdə davam edir. Bu ilin ilk 7 ayında ikitərəfli ticarət illik müqayisədə 21,9 faiz artaraq rekord həddə çatmağa doğru gedir. "Bir kəmər və bir yol" təşəbbüsü Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinə uyğunlaşma prosesini sürətləndirir. Belə ki, dəhlizin cənub hissəsində Azərbaycan ərazisindən keçən Çin-Avropa ekspres qatarlarının sayı bu il ərzində 15 dəfə artıb".**



AZƏRTAC xəbər verir ki, bunu Çinin Azərbaycandakı müvəqqəti işlər vəkili Din Tao sentyabrın 26-da Bakıda Çin Xalq Respublikasının yaranmasının 75 illik yubileyinə həsr olunmuş tədbirdə deyib.

"İyulun 3-də Çin Xalq Respublikasının Sədri Si Cinpin və Azərbaycan Prezidenti İlham Əliyev görüşdülər və strateji tərəfdaşlığın qurulduğunu elan etdilər. Bu Çin-Azərbaycan əlaqələrini ən güclü nöqtəyə qaldırdı. Ölkələrimiz arasında siyasi etimad güclənir. Azərbaycan Tayvanın müstəqilliyinə can atan separatçıları açıq şəkildə qınayıb, Çinin milli birləşmə cəhdinə dəstək nümayiş etdirib. Buna cavab olaraq, Çin Azərbaycanın müstəqilliyini, təhlükəsizliyini, sabitliyini və təklif etdiyi sülh gündəmini dəstəkləməkdə əzmkardır. İki ölkənin hökumətləri, hakim partiyaları və qanunverici orqanları fəal şəkildə dostluq mübadiləsi aparır, ikitərəfli münasibətlərin hərtərəfli inkişafına töhfə verirlər. Beynəlxalq əməkdaşlıq getdikcə güclənir. Hər iki tərəf Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı, Şanxay Əməkdaşlıq Təşkilatı və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi (CICA) kimi çoxtərəfli çərçivələrdə səmərəli işləyir. Çin COP29-a evsahibliyi edəcək Azərbaycanı tam dəstəkləyir və ədalətli, əməkdaşlıq və qlobal iqlim idarəçiliyi sisteminin qurulmasına sadiqdir", - deyə Din Tao vurğulayıb.

# Sağlam ekologiya təmiz ətraf mühitdən başlayır

**Turizm mövsümü olan yay başa çatıb. Bu səbəbdən dağ döşündə, meşədə, çay kənarında, bulaq başında, Xəzərin ləpədöyənində istirahət edənlərin sayı xeyli azalıb. Əvəzində isə həmin ərazilərdə yanmış kömürün külü, yeyilən meyvə-tərəvəzin, yemiş-qarpızın qabıqları, içilmiş su və şirələrin qabları, boşaldılmış sellefon torbaları və ağla gələn və gəlməyən digər tullantılar qalıb.**



Və nə yaxşı ki, hamımızın müşahidə etdiyi bu problemin aradan qaldırılması üçün hələ yay fəslinin əvvəllərindən Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsi tərəfindən Ümumrespublika Təmizlik Marafonu çərçivəsində "Təmiz ölkəm" devizi altında təmizlik aksiyaları keçirilir. May ayından start götürən və könüllülərin də qatıldığı, həftənin 4 və 6-cı günləri keçirilən bu aksiyalar ictimaiyyət tərəfindən razılıqla qarşılanır.

"Xəzəri qoruyaq" devizi altında mövsümün sonuncu kütləvi təmizlik aksiyası Xəzərin Novxanı sahilində keçirilib. "Xəzər həftəsi" ərəfəsində təşkil olunan maarifləndirici aksiyada Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, dövlət və özəl qurumların təmsilçiləri, könüllü gənclər təşkilatlarının üzvləri, həmçinin tanınmış ictimaiyyət nümayəndələri iştirak ediblər. Aksiya zamanı dəniz sahilindən 3 ton tullantı təmizlənərək daşınıb.

Sirr deyil ki, təbiətin və ətraf mühitin çirkləndirilməsi dünyanın ən ağrılı yeridir. Niyə də olmasın?! Təkcə kağız tullantıları bir yana, hər il dünya üzrə təbiətə 57 milyon ton plastik tullantı atılır. Artıq plastik tullantılara ən dərin okeanlardan ən yüksək dağ zirvələrinə qədər ərazilərdə rast gəlmək olur. İngiltərədəki Lids Universitetinin tədqiqatçıları bu barədə geniş araşdırmalar aparıblar. Onlar belə qənaətə gəliblər ki, dünya əhalisinin 15 faizi, o cümlədən yalnız Hindistanda 255 milyon insan plastik tullantıların fəsadlarından əziyyət çəkir. Universitetin Ətraf mühit mühəndisliyi üzrə professoru Kostas Velisin fikrincə, Nigeriyanın Laqos şəhəri ən çox plastik tullantı olan şəhərdir. Digər ən böyük plastik tullantıya malik şəhərlər isə Yeni Dehli, Luanda, Karaçi və Əl Qahirədir. Dövlət olaraq Hindistan plastik çirklənməyə məruz qalan "lider" ölkədir. Hindistanda ildə 10,2 milyon ton plastik qablar istehsal edilir ki, bu da heç də təmiz ölkələr sayılmayan Nigeriya və İndoneziyadan iki dəfə çoxdur. Velisin fikrincə, plastik çirklənməyə görə Çin dördüncü yerdədir. Lakin ÇXR tullantıların azaldılması üçün də çalışır. Digər ən çox plastik çirkləndiricilər Pakistan, Banqladeş, Rusiya və Braziliyadır. Bu 8 ölkə dünyanın plastik çirklənməsinin yarısından çoxuna cavabdehdir. Söz düşmüşkən onu da qeyd edək ki, 2022-ci ildə dünya dövlətlərinin əksəriyyəti plastik çirklənmə ilə bağlı ilk hüquqi qüvvəyə malik müqavilə bağlamağa razılaşmışdır.

Tədqiqatçılar süni intellektdən istifadə edərək diqqəti çirklənmənin təxminən 57 faizini təşkil edən düzgün yandırılmayan plastiklərə və ya sadəcə atılan plastikə yönəldirlər. Hər iki halda kiçik mikroplastiklər və ya nanoplastika inanılmaz dərəcədə insan sağlamlığına və təbiətə böyük təhlükələr törədir.

Görünən odur ki, insanın təbiətdən istədiyini almaq üçün ətraf mühitə etdiyi müdaxilələr böyük fəsadlarla nəticələnir. Bu baxımdan, ətraf mühitin və təbii sərvətlərin qorunması, onlardan səmərəli istifadə müasir dövrümüzün ən vacib çağırışıdır. Təxminən 200 ölkənin yekdil dəstəyi ilə cari ilin noyabrında Azərbaycanda keçiriləcək COP29 məhz bu çağırışlara cavab verməyə hazırlaşır.

***Rəhman SALMANLI, "Azərbaycan"***

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



## ZƏFƏR gündəliyi 28 sentyabr 2020-ci il

## İlham ƏLİYEV: "Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatları həyata keçirir"



### Tərtər şəhəri atəşə tutuldu

Səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Tərtər şəhəri atəşə tutulur.

Müdafiə Nazirliyinin rəhbərliyi qarşı tərəfi sonuncu dəfə xəbərdar edir ki, tərəfimizdən adekvat cavab tədbirləri görüləcək.

### Ölkəmizdə qismən səfərbərlik elan olundu

Prezident İlham Əliyev Azərbaycanda qismən səfərbərlik elan edilməsi ilə bağlı sərəncam imzalayır.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə tapşırılır ki, təsdiq edilmiş planlara uyğun olaraq hərbi vəzifəlilərin səfərbərlik üzrə hərbi xidmətə çağırılmasını və hərbi-nəqliyyat məsələlərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.



### Düşmənin onlarla zirehli texnikası sıradan çıxarıldı

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda ordumuzun apardığı əks-hücum əməliyyatları genişlənir. Düşmənin müqavimət göstərdiyi mövqelərə raket-artilleriya və aviasiya zərbələri endirilir.

Talış kəndi ətrafındakı bir neçə əlverişli yüksəklik işğalçı qüvvələrdən təmizlənir, düşmən xeyli itki verir. Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar zamanı düşmənin xeyli sayda hərbi texnikası məhv edilir:

- 24 ədəd tank və digər zirehli texnika;
- 15 ədəd "OSA" zenit-raket kompleksi;
- 18 ədəd pilotsuz uçuş aparatı (PUA);
- 8 ədəd artilleriya qurğusu;
- 3 silah-sursat anbarı.

### Erməni polkovnik-leytenantı məhv edildi

Talış kəndi istiqamətində gedən döyüşlərdə düşmənin desant həmlə taborunun komandiri, polkovnik-leytenant Lernik Vardanyan məhv edilir, onun tabeliyində olan hərbi hissənin şəxsi heyəti ağır itkilərə məruz qalır.

Düşmən ordusundakı yaralıların say çoxluğu səbəbindən hərbi hospitallarda və mülki xəstəxanalarda yer qıtlığı yaranır, qan bankında isə ehtiyat qan çatışmazlığı mövcuddur.

Ermənistan tərəfi hər zaman olduğu kimi, yenə də ordusundakı döyüş itkilərinin real sayını ictimaiyyətdən gizlədir.

### İlham Əliyev Emmanuel Makrona həqiqətləri çatdırdı

Fransa Prezidenti Emmanuel Makron Prezident İlham Əliyevə zəng edir. E.Makron təmas xəttində silahlı qarşıdurmanın baş verməsindən ölkəsinin narahatlıq hissi keçirdiyini və münaqişənin danışıqlar yolu ilə həll olunmasının vacibliyini vurğulayır.

Amma İlham Əliyev fransalı həmkarının diqqətinə çatdırır ki, düşmən şüurlu şəkildə danışıqlar prosesini pozur və bu ölkənin rəhbərliyinin "Dağlıq Qarabağ Ermənistandır" bəyanatı danışıqlara ciddi zərbə vurub. "Azərbaycan Dağlıq Qarabağla danışıqlar aparmalıdır" bəyanatı isə danışıqlar formatının dəyişdirilməsi cəhdidir ki, bu da qəbuledilməzdir və bu, Minsk qrupunun rəhbərliyi tərəfindən də bildirilib.

Telefon söhbəti zamanı İlham Əliyev bildirir ki, Ermənistanın Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və cəbhə xətti boyu yerləşən yaşayış məntəqələrimizi ağır artilleriya silahlarından atəşə tutması nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olub, Azərbaycan Ordusu buna cavab olaraq uğurlu əks-hücum əməliyyatları həyata keçirir.

Bu səbəbdən də Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət bu ölkənin siyasi və hərbi rəhbərliyinin üzərinə düşür. Telefon söhbəti zamanı tərəflər diplomatik kanallar vasitəsilə təmasların həyata keçirilməsi barədə razılığa gəlirlər.

### Müdafiə Nazirliyi xarici ölkə səfirlərinə məlumat verdi

Müdafiə Nazirliyi tərəfindən Azərbaycanda akkreditə olunmuş xarici hərbi attaşelərə və beynəlxalq təşkilatların (BMT, Aİ, BQXK) ölkəmizdəki nümayəndələrinə Ermənistanın Azərbaycana qarşı təcavüzü, cəbhə xəttində yaranmış vəziyyət, qoşunlarımızın əks-tədbirləri və yaranmış əməliyyat şəraiti haqqında məlumat verilir.

Nümayəndələr düşmənin itkiləri, azad edilmiş ərazilər və yüksəkliklər, o cümlədən düşmənin təxribatları və dezinformasiya fəaliyyətləri haqqında ətraflı məlumatlandırılır.

### Ermənistan ordusunun 5-ci dağatıcı alayına zərbələr endirildi

Yaşayış məntəqələrimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən artilleriya bölmələrinə zərbələr endirilir.

Artilleriyaçılarımızın sərrast atəşi nəticəsində ağır itkilərə məruz qalan düşmən bölmələri yerləşdiyi atəş mövqelərindən geri çəkilməyə məcbur edilir. Qeyd edək ki, həmin artilleriya bölmələri Ermənistan ordusunun 5-ci dağatıcı alayının tərkibində idilər.

### İlham Əliyevdən Antonio Quterreşə: "Münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır"

BMT-nin Baş katibi Antonio Quterreşin təşəbbüsü ilə onunla Prezident İlham Əliyev arasında videokonfrans formatında görüş olur.

Ali Baş Komandan Baş katibə Ermənistanın Azərbaycana qarşı törətdiyi hərbi təxribatla bağlı, hadisələrin gedişinə dair məlumat verərək qeyd edir ki, sentyabrın 27-də Ermənistan təmas xətti boyunca Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və yaşayış məntəqələrimizi ağır artilleriyadan atəşə tutub və bunun nəticəsində mülki şəxslərimiz və hərbi qulluqçularımız həlak olublar. Azərbaycan tərəfi özünümüdafiə məqsədilə uğurlu əks-hücum əməliyyatları həyata keçirir.

Prezident qeyd edir ki, Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllü dəstələri yaradıb.

Dövlət başçısı söhbət zamanı onu da xatırladır ki, Ermənistanın yeni müharibəyə hazırlaşmasını sentyabrın 24-də, müharibənin başlamasından 3 gün öncə BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışında diqqətə çatdırıb.

Söhbət zamanı İlham Əliyev bir daha vurğulayır ki, Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll olunmalıdır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Azadlığa çıxmış zindan

## Şuşa həbsxanası erməni qəddarlığının, vəhşiliyinin, rəzilliyinin qanlı abidəsidir



**Zəfərin izi ilə**

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasəti, dönməz qətiyyəti və səriştəli sərkərdəliyi ilə Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində 30 ilə yaxın davam edən işğaldan sonra Qarabağın mirvarisi, musiqi beşiyimiz Şuşa da erməni separatçılarından azad olundu. Bu şad xəbəri Azərbaycan xalqı böyük sevinclə, yüksək təntənə ilə qarşıladı. Artıq işğalçılar diz çökdürülmüş, məğlub edilmiş, çoxdan gözlənilən Zəfər qazanılmış, uzun illərin həsrətinə, ayrılığına son qoyulmuşdu.**

**Azad olunandan sonra Şuşaya gedənlər bu qədim diyardakı tarixi abidələri ziyarət etməklə yanaşı, şəhərdəki həbsxanaya da baş çəkirlər. Çünki Şuşa həbsxanası Qarabağ müharibəsi zamanı əsir götürülmüş həm hərbçi, həm də mülki insanların saxlanıldığı və ən ağır işgəncələrin verildiyi məkan kimi yaddaşlarda qalmışdı.**



### İnsanlığa qarşı cinayətlərin rəzalət məkanı

Möcüzə nəticəsində sağ qalıb Şuşa həbsxanasından azad olunanların erməni işğalçılarının əsirlərə verdiyi işgəncələrdən bəhs edən söhbətlərini sonadək dinləmək çox əzablıdır. Çünki onların həyat hekayələri kədərdən, qəmdən və göz yaşlarından yoğrulmuşdu. Bu hekayələr erməni işğalçılarının amansızlığını, qəddarlığını, insanlıqdan, bəşəri duyğulardan uzaq olduqlarını bir daha dünyaya açıb göstərir. Əvvəlki illər həmsöhbəti olduğumuz əsirlərin başına gələn kədərli hadisələrə qulaq asdıqca Şuşa həbsxanası insanın, insanlığın məhv edildiyi, əsirlərə ən ağır, ən amansız işgəncələr verildiyi ölüm qoxulu məkan kimi gözlərimiz qarşısında canlanırdı. Əsirlər o dəhşətli günləri xatırlayaraq danışırdılar ki, saxlandıqları bu həbsxanada gecə-gündüz inilti, qışqırtı səsləri kəsilmirdi. Erməni işğalçıları daim əsirlərə olmazın işgəncə verirdilər. Bütün bu ağrılı söhbətləri xatırladıqca ürəyimizdən Şuşa həbsxanasını görmək arzusu keçirdi.



Şuşa şəhərinə getmək üçün ötən həftə belə bir şərait yarandı. Səhər lap ertədən, hələ heç Günəş üfüqə rəng verib qızartmamışdan əvvəl yola çıxdıq. Günortaya az qalmış Şuşaya çatdıq. Bir-birindən maraqlı ünvanları ziyarət etdikdən sonra yolumuzu həbsxanadan saldıq. Bura Şuşa şəhərinin Gəncə qapısından aşağı düşüb bir qədər irəli getdikdən sonra çatdıq. Həbsxana şəhərin mərkəzindən çox da uzaqda deyil. Başqa abidələrin qarşısında olduğu kimi, burada da xeyli ziyarətçi var idi. Şuşaya gələnlər ermənilərin əsir götürdükləri azərbaycanlıları 30 ilə yaxın saxladıqları və olmazın işgəncələrini verdikləri məkana baxmağa da tələsirdilər. Həbsxananın həmişə bağlı olmuş darvazası indi taybatay açıqdı. Darvazadan içəri girənlər də var idi, çıxanlar da. Binanın miskin görkəmi ilk andan diqqətdən yayınmır. Sanki bir vaxtlar divarları arasında əsirlərə olmazın işgəncəsi verildiyinə görə binanın üzü qaralmışdı. Darvazaları, qapıları açıq olsa da, içəri ürkək addımlarla giririk. Axı nə qədər olsa da, bura həbsxanadır...

### Hələ də vahimə, qorxu yaradan mənzərələr

Geniş açılmış qapıdan içəri girəndə bizdən irəlidə gedən yaşlı kişi sol tərəfdəki otaqlardan birini yanaşı addımladığı qadına göstərib deyirdi ki, bax mən orada otururdum. Bu sözləri ondan eşidəndə düşündük ki, yəqin ermənilər onu da nə vaxtsa burada əsir saxlayıblar, işgəncə veriblər. Ona görə də həbsxananı yaxşı tanıyır. Yaxınlaşıb tanış olanda öyrəndik ki, Yaqub İslamov Şuşa həbsxanasında əsir saxlanılmayıb. O, işğaldan əvvəl bir neçə il burada mühasib işləyib. İndi bizim kimi o da əsirlərin işgəncə verildiyi, amansızcasına öldürüldüyü, bir vaxtlar mühasib işlədiyi həbsxananı ziyarət etməyə gəlib.



Qısa söhbətdən sonra Yaqub sanki bələdçilik vəzifəsini yerinə yetirərək həbsxana ilə bizi yaxından tanış etdi. Söhbət zamanı o da erməni işğalçılarının azərbaycanlı əsirlərə verdiyi amansız işgəncələrdən ürəkağrısı ilə danışdı. Nə qədər vahimə və qorxu yaratsa da, bir-bir Şuşa həbsxanasının darısqal, cansıxıcı və vahimə doğuran kameralarını gəzdik. Gördüyümüz bu kameralarda bir vaxtlar daşnaklar Xocalıdan, Kərkicahandan, Qaradağlıdan, Malıbəylidən və elə Şuşanın özündən əsir götürdükləri azərbaycanlılara ağır, dözülməz işgəncələr veriblər. Neçə-neçə əsir indi baxdığımız bu kameralarda ermənilərin ağır işgəncələrinə dözməyərək "Yaşasın Vətən, Yaşasın Bakı" deyə-deyə, ermənilərə nifrətlər yağdıra-yağdıra canlarını tapşırıblar. Darısqal və qaranlıq kameralar, pəncərələrə vurulmuş ikiqat-üçqat polad barmaqlıqlar, dəmir torlar, qaranlıq zirzəmilər hələ də vahimə və qorxu yaradır.

Bu üzücü mənzərələrə baxdıqca bir vaxtlar Şuşa həbsxanasında erməni əsirliyində əzab çəkənlərin söylədikləri ağrı-acılarla dolu söhbətləri, sözləri xatırlayırıq. Əsirlər danışırdılar ki, ermənilər səhərin gözü açılandan gecə yarısına qədər, bəzən də lap səhərə qədər əsirlərə ağır işgəncələr verirdilər. Üstündən illər keçəndən sonra biz həbsxananın qaranlıq dəhlizlərini, darısqal, cansıxıcı otaqlarını gəzdikcə qulaqlarımıza azərbaycanlı əsirlərin inilti və





qışqırıqları gəlirdi. Sanki onların iniltiləri daşlara, divarlara hoparaq hələ də əks-səda verib ətrafa yayılırdı. Həbsxananın xeyli hissəsini gəzib-dolaşsaq da, əsasən azərbaycanlı əsirlərin saxlanıldığı zirzəmiyə getməyə ayağımız gəlmədi. Çünki orada daha dəhşətli, ürəkdağlayan ağrı-acılarla dolu mənzərələr görəcəkdik.

Şuşa həbsxanasına gələnlər yalnız kişilər deyil. Burada kişilərlə bərabər həm yaşlı, həm də cavan qadınlarla rastlaşdıq. Onlar üçün nə qədər ağrılı olsa da, azərbaycanlı əsirlərin illərlə əvvəl saxlanıldıqları və erməni vəhşilərinin işgəncələrinə məruz qaldıqları həbsxana kameralarına baxmağa gəlmişdilər. Kim bilir, bəlkə də o qadınların arasında elələri var idi ki, onların ya ataları, ya qardaşları, ya da həyat yoldaşları ölüm qoxuyan bu həbsxana divarları arasında daşnakların ağır işgəncələrinə dözməyərək canlarını tapşırmışdılar. Bu gün onlar doğmalarının xatirəsini yad etmək üçün həbsxanaya ziyarətə gəlmişdilər. Həbsxananı gəzəndə dəhlizlərə, kameralara gül-çiçək dəstələrinin qoyulduğunun da şahidi olduq. Bu güllərin çoxunu da ziyarətə gəlmiş qadınlar qoymuşlar. Onlar ki, bu tər çiçəklərlə əzizlərinin xatirəsini yad edirdilər. Təbiidir ki, bu, onlar üçün kiçik bir təsəlli və mənəvi borc idi.



### Lənətlənmiş həbsxana

Bəzən belə bir sual verirdilər ki, əsirlər saxlandıqları Şuşa həbsxanasından hansısa bir yolla qaça bilməzdilərmi? Biz buradakı dəmir barmaqlıqlara, torlara və mühafizə üçün görülmüş sədlərə baxandan sonra gördük ki, buradan çölə çıxmağı heç təlim keçmiş peşəkarlar da bacarmazdılar. O ki qalmışdı ermənilərin çilingər kəlbətinləri ilə dişləri çəkilmiş, həftələrlə ac-susuz qalmış, gündə üç-dörd dəfə ağır işgəncələrin əzabını çəkmiş zəifləmiş, xəstələnmiş, taqətdən düşmüş azərbaycanlı əsirlər ola. Buradan heç quş da uçub çıxa bilməzdi. Həmsöhbət olduğumuz əsirlər danışırdılar ki, Şuşa həbsxanasına gətirilən azərbaycanlıların buradan yalnız və yalnız meyitləri çıxırdı.

Həbsxanadakı qapı-pəncərələrə vurulmuş dəmir barmaqlıqları görəndə xəyalların qanadlarında ötən illərə qayıtdıq. Yeddi-səkkiz il əvvəl ermənilərin zülmündən möcüzə nəticəsində xilas olub qayıtmış azərbaycanlı əsirlərlə bağlı kitab hazırlayanda yaxından tanıdığımız bir rəssamdan xahiş etdik ki, onun üzqabığına mövzuya uyğun rəsm çəksin. O, sözümüzü yerə salmayıb kitabın mətni ilə tanış olmaq istədiyini demişdi. Biz onun istəyini yerinə yetirmişdik. Bir müddətdən sonra rəssam işini tamamlamış, kitabın üz və arxa tərəfinə sujetləri bir-biri ilə səsləşən rəsmlər çəkmişdi. Kitabın arxa üzünə balaca bir pəncərəyə vurulmuş qalın dəmir barmaqlıqların cizgilərini həkk etmişdi. Rəssam bu kiçik əsərində Şuşa həbsxanasının pəncərələrinə vurulmuş dəmir barmaqlıqları təsvir etmişdi. Elə təbii təsvir etmişdi ki, sanki rəssam bu mənzərəni yaxından görmüşdü. Fikrimizi dəqiqləşdirmək üçün bunu özündən soruşanda demişdi ki, o heç vaxt Şuşa həbsxanasını görməyib. Sadəcə olaraq çəkdikləri bu cizgilər onun kitabdakı mətnlərdən doğan fantaziyasıdır. Kitab da çapa həmin rəsmlə getmişdi. İllər sonra Şuşa həbsxanasındakı pəncərələrin qarşısına vurulmuş qalın barmaqlıqları görəndə heyrət bizi bürüdü. Pəncərələrin qarşısını kəsən barmaqlıqlar rəssamın illər əvvəl kitabımıza çəkdiyi rəsm əsərindəki ilə eyni idi. Doğrudan da, həyatda belə qəribə təsadüflər çox olur.

Nə qədər kədərli və üzücü olsa da, bir vaxtlar Şuşa həbsxanasında ermənilərin işgəncəsinə məruz qalmış azərbaycanlı əsirlərin çəkdikləri qandonduran zülmlərini göz önünə gətirərək qaranlıq dəhlizləri, darısqal və cansıxıcı kameraları addım-addım gəzdik. Gördüklərimiz erməni vəhşiliyinin, erməni vandallığının heç vaxt pozulmayacaq qanlı izləri idi. Bu qanlı izlər qəlbimizi göynətsə, ürəklərimizi ağrıtsa da, təsəllimiz odur ki, artıq bu qanlı-qadalı günlər arxada qalıb, qisas alınıb.

Böyük Zəfərlə başa çatmış 44 günlük Vətən müharibəsində və ondan sonra keçirilmiş antiterror tədbirlərində 30 ilə yaxın işğalda qalmış torpaqlarımız azadlığına qovuşub. Düşmənlərdən şəhidlərin intiqamı alınıb. Amma bu qanlı-qadalı, əzablarla dolu illər heç vaxt unudulmayacaq, tarixin yaddaşında olduğu kimi qalacaq və həmişə daşnaklara nifrətlə xatırlanacaq. Şuşa həbsxanası isə əbədi olaraq erməni vəhşiliyinin, erməni qəddarlığının lənətlənəcəyi məkan olaraq qalacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

*Bakı-Şuşa-Bakı*





## Səndən ötrü can verməyə cümlə hazırız,
## Səndən ötrü qan tökməyə cümlə qadiriz!..



# "Zəif olmağa haqqım yoxdur, Aysənanın övladlarını onun arzuladığı kimi böyütməliyəm"

**Vətən oldu oğullar!**

**Aysənan və Təkminənin 5 illik xoşbəxt həyatı və əbədiyyətə qədər davam edəcək məhəbbət hekayəsi milli-mənəvi dəyərimizin canlı nümunəsidir, kövrək notlarla yazılmış bir həyat simfoniyasıdır.**

**20 sentyabr - bu ildən Suverenlik Günü kimi qeyd etdiyimiz tarix Aysənan və Təkminənin toy gününə təsadüf edir. Biz bunu əvvəlcədən bilmirdik, ancaq nədənsə elə həmin gün Aysənanın ailəsini ziyarət etməyi qərara almışdıq. Onun atası Əsgər kişi ilə, övladları Banu və Timurla görüşəndən sonra vaxtilə Aysənanla Təkminənin xoşbəxt günlərinə şahidlik edən evə daxil olduq. Onlar yanaşı oturdular - iki güclü qadın - biri ana, biri yarıyolda qalan ömrün ömür-gün yoldaşı.**



Sükutu Təkminə xanım pozdu:

- Ailəmiz İmişli rayonunun Göbəktala kəndində yaşayır. 2015-ci ilin sentyabr ayının əvvəlində bizi Tərtər rayonunun Seydimli kəndinə toya dəvət etmişdilər. Mən onda tələbəydim, Bakıda Tibb Kollecində təhsil alırdım. Aysənan da toyda idi. O, hərbi geyimdəydi. Sonradan öyrəndim ki, həmin toya komandiri, şəhid kapitan Nəcməddin Savalanovla gəlmişdi. Sonralar o da şəhid oldu. Məclisdə hamı hərbçilərə hörmətlə yanaşırdı. Aysənan musiqi sifariş etdi və məni qohum qızlarla birlikdə rəqsə çağırdı. Ancaq rəqsimiz yarımçıq qaldı. Ona zəng gəldi və tələsik hamı ilə sağollaşıb getdi. Lakin bu qısa görüş kifayət etmişdi ki, ruhumuz əbədi birləşsin. Bundan sonra  valideynləri elçi gəldilər. Cəmi bir neçə gün sonra - sentyabrın 20-də isə toyumuz oldu. İndi Aysənan yoxdur, amma mənim qəlbimdə iki ruh var - onun və özümün. Yaşamağa gücü də bundan alıram. Onun özü kimi möhkəm, iradəli, ailəcanlı olmağa çalışıram. Heç zaman unutmayacağım o xoşbəxt təsadüf ömrümün mənasını dəyişdi.

Şəhidin anası Rəna xanım dedi ki, Aysənan həmişə və hər yerdə birinciydi: "Orta məktəbdə təhsili və tərbiyəsi, orduda nümunəvi xidmətilə fərqlənirdi. Doqquzuncu sinif şəhadətnaməsində cəmi iki fəndən "4"-ü olmuşdu. Həqiqi hərbi xidməti zamanı, sonradan isə müddətdən artıq hərbi qulluqçu olanda ailəmizə o qədər təşəkkür məktubu gəlirdi ki..."

Bu yerdə Təkminə xanım söhbətə qoşuldu:

- Onun gəlişi həmişə gözlənilməz olurdu. Ona görə ki, kəşfiyyatçıydı, bizə heç nəyi bildirmirdi, yalnız çətin döyüşlərdən öncə azacıq da olsa vaxt tapıb görüşmək üçün gəlirdi. Tovuz döyüşləri ərəfəsiydi. Mən atamgildəydim. Gecə atamın telefonuna zəng gəldi. Dedi ki, Aysənandır, nəsə demək istəyir. Çox narahat oldum. Bildirdi ki, çölə çıx gəlirəm. Həyətdəki ağacın altında oturub xeyli söhbət etdik. Gəldiyi kimi də tələsik geri qayıtdı. Sonradan öyrəndim ki, çətin tapşırıq almışdı. Ona görə də komandirindən icazə alıb bir o qədər yolu İmişliyə gəlmişdi... yəqin fikirləşib ki, şəhid ola bilər. Bizimsə belə şeylər ağlımıza gəlmirdi. Çünki o, elə güclü, qorxmaz idi ki... Odur ki, indinin özündə elə bilirik yenə gözlənilmədən maşın dayanacaq və Aysənan üzündəki həmin mehriban təbəssümlə içəri girib övladlarını bağrına basacaq, hazırladığımız xörəyi tə-



ləm-tələsik yeyib gedəcək. Hə, onu da deyim ki, qızı Banunu buyurmağı çox sevirdi. İstəyirdi qızı ona qulluq eləsin. Bundan zövq alırdı. Sanki atalıq hissinin ləzzətini doyunca yaşamağa tələsirdi. Timuru da çox istəyirdi. Amma Timur kiçik idi. Onun ürəyindəkilərini hələ başa düşə bilmirdi. Banuya isə hər şeyi danışırdı - arzularını, onlarla bağlı gələcək planlarını...

Bu dəfə Rəna ana mövzunu dəyişir:

- Oğlum ilk dəfə Aprel döyüşlərində yaralandı. İki ay Bakıda hospitalda müalicə olundu. Sağalan kimi yenidən hərbi hissəyə qayıtdı. İyunun 26-da isə qızı Banu dünyaya gəldi. O qədər sevinirdi ki, xəstəxanaya böyük bir gül dəstəsi ilə gəlmişdi.  Aprel hadisələrində




Aysənanın fəaliyyəti komandanlığın xüsusi diqqətini cəlb etmişdi. Çünki həm kəşfiyyatçı, həm də minatəmizləyən idi. Hara getsə, təhlükəli yerlərdən yoldaşlarını sağ-salamat keçirirdi. Aprel hadisələrindəki qələbəmizlə çox qürur duyurdu Aysənan.

Təkminə xanım dedi ki, Aysənan həm valideynlərinə, həm də ailəsinə münasibətdə çox mehriban və diqqətliydi: "Anasının qarşısında uşaq kimi olurdu. Hərbçi həyatının çətinliklərinə baxmayaraq, ad günlərimizi, əlamətdar hadisələri təbrik etməyi unutmurdu. Yanvarın 15-də mənim doğum günümdür. Bir dəfə həmin gün ondan zəng gəlmədi. Bilirdim ki, yüksəklikdə - dağdadır. Buna baxmayaraq, bütün günü oturub ağladım. Səhərisi gün zəng etdi, biləndə ki, ağlamışam, güldü. Dedi, bu mənim yox, şəbəkənin günahıdır, heç sənin ad gününü unuda bilərəm?  İndi onun təbrikini eşitmək üçün məzarını ziyarət edirik, mən də, uşaqlar da. Bu il Timur 1-ci sinfə getdi. Əvvəlcə məzarı üstə gedib xeyir-duasını aldıq. Bilirik ki, ruhu bizimlədir, bundan güc alıram. Əvvəllər hər şeydən inciyər, ağlayardım. İndi heç kim mənim ağlamağımı görə bilməz. Göz yaşlarım yaralı ürəyimin məlhəmidir, təsəllisidir. O, yanağımdan süzülə bilməz, ürəyimə axar ki, kimsə görməsin. Aysənan həmişə mənimlədir. Bir günüm, bir anım onsuz deyil. Bir də ki, zəif olmağa haqqım yoxdur. Uşaqları onun istədiyi kimi böyütməliyəm".

Sentyabr ayı bu ailə üçün həm sevinc, həm də kədər ayıdır. Sentyabrda evləniblər, düz 5 ildən sonra - sentyabr ayında Aysənan şəhidliyə qovuşub. Sonuncu dəfə sentyabrın 15-də evlərinə gəlib. Uşaqlarına bazarlıq edib, hədiyyələr alıb, anası ilə söhbət edib, ailəsini ona tapşırıb. Sonra da deyib ki, Təkminəni uşaqlarla birlikdə bir neçə günlük İmişliyə atasıgilə göndərin. Görüşüblər, gedərkən yenə gözləri ilə vidalaşıb. Deyə bilmədiyi sözləri gözləri söyləyib.

Son dəfə isə sentyabrın 30-da zəng edib. Deyirlər ki, həmin gün Aysənan yaralıymış. Ancaq bu barədə ailəsinə heç nə deməyib. Çünki qarşıda mühüm tapşırıq vardı. Murovdağ düşməndən azad edilməliydi. Aysənan minalanmış yolu açmalıydı.

O, ayağının yarasını bağlayıb ərazini zəncirvari minalardan təmizlədi. İndi yoldaşları sərbəst irəliyə bilərdilər.

Sentyabrın 30-dan sonra onunla əlaqə kəsildi. Ananın getmədiyi yer, döymədiyi qapı qalmadı. Nəhayət, bir gün Rəna ana yarıyuxulu, yarıoyaq vəziyyətdə olarkən Aysənan özü onun gözünə görünür, palçığa bulaşmış əlini çiyninə qoyub sakitcə deyir ki, məni döyüş yoldaşım Soltandan soruş. Ana Soltanı tapır və oğlunun şəhid olması barədə xəbəri öyrənir. Həmin günün səhəri - dekabrın 12-də bu xəbəri anaya rəsmi qurumlar da çatdırırlar.

❖ ❖ ❖



Aysənan Abbasov 1992-ci ildə - Qarabağ uğrunda müharibənin qızğın çağında dünyaya göz açmışdı. Hələ dünyaya gəlməmiş ananın yuxuda gördüyü  ağsaçlı bir insan onun adını Aysənan qoymağı tapşırmışdı. Bəlkə bu, uşağın gələcək taleyinə bir işarəymiş. Şərəflə, qeyrətlə yaşayan Aysənan torpaqlarımızın azadlığı uğrunda mübarizədə şəhidlik zirvəsinə ucaldı. Ölümündən sonra 3-cü dərəcəli  "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olundu. İndi həmin orden-medallar və bir də şərəfli ad Aysənandan ailəsinə qalan ən böyük və əvəzsiz sərvətdir.

*Svetlana BAĞIROVA,*
*"Yeni Tərtər" qəzetinin redaktoru*

# "Təsəllimiz qələbəmizdir"

**"Erməni faşizminin törətdiyi vəhşiliklərdən bizim ocağımıza iki dəfə od düşüb", - deyir Qax rayonu Almalı kəndinin sakini Əskinaz Kərimova. Birinci Qarabağ müharibəsində qaynı Nazimi, 2023-cü ilin sentyabr ayındakı lokal xarakterli antiterror əməliyyatlarında isə ciyərparası Elnuru itiriblər.**



Şəhid anası Əskinaz xanım uzun və düşüncəli bir hekayət danışır. Bu hekayətin içində erməni millətinin xislətini, məkrini göstərən olaylar da, Azərbaycan oğullarının qeyrət nümunəsi də, ana qəlbinin göynərtiləri də, qürur da, təsəlli də var.

- 1985-ci ildə Adillə ailə qurduq. Mingəçevirdə bir erməninin evində kirayənişin qalırdıq. Ev sahibinin adı Karo, arvadının adı Janna idi.



Onlara tez-tez saqqalı ermənilər gəlirdi. Saqqallıların qəribə baxışları məni həmişə qorxudurdu. Bir gün ev sahibinin qızının nişanı oldu. Soruşdum ki, Janna xala, qızı kimə verirsən? Nə desə yaxşıdır?! "Bizim Karabağa, öz torpağıma!" Yerimdəcə donub qaldım. Daxilimdə daha qəribə bir qorxu yarandı. Qızın toyundan sonra onlarda bizim azərbaycanlılara oxşayan cavan bir qadın gördüm. Sadəlövhcəsinə, "Sən azərbaycanlısanmı?" - dedim. Elə bil gəlini ilan vurdu, hirsli-hirsli: "Allah eləməsin mən türk olum", - deyib otaqdan çıxdı. Mən onun nifrətlə baxan gözlərini, sifətinin eybəcər şəkil aldığını görəndə içimə dolan qorxu daha da artdı. Adilə çox deyirdim, gəl bu evdən çıxaq. O, da "Qorxma, indi ermənilər bizə heç nə edə bilməzlər" - deyirdi. Və bir gün ora gələn saqqallının kinayəli baxışları məni elə qorxutdu ki, Adil gələn kimi dedim: "Biz burdan getməliyik!.." Qorxularım acı həqiqət oldu. Ermənilər oğullarımızı, qardaşlarımızı, ərlərimizi qətlə yetirdilər...

Əskinaz ana özünü möhkəm tutsa da, qəhər onu boğur. Bayaqdan dolan gözlərini gizlətməyə çalışan Adil kişi sözünü ömür-gün yoldaşının sözünə calayır:

- Qardaşım Nazim Birinci Qarabağ müharibəsinin şəhididir. 1994-cü ilin yanvar ayında xəbər aldıq ki, Qarakənd ətrafında itkin düşüb. Anam-atam gözü yolda bu dünyadan köçdülər. Qardaşım könüllü getmişdi döyüşə. İki övladı vardı. Atamgil nə qədər getmə desələr də, o getdi. Vətənin dar günündə onun hayına hay vermək igid oğulların işidir. Qardaşım bunları deyə-deyə getmişdi döyüşə. İki il cəbhədə döyüşdü. Sonu... Hələ də gözümüz yoldadır.

Əskinaz ana özünü toparlayıb yenidən danışır:

- Nazimin itkin düşməsi xəbərindən üç ay sonra Elnur dünyaya gəldi. Taleyin işinə bir baxın. Elnur da Vətən yolunda şəhid oldu. Tanrı əmisinin taleyini yazıbmış Elnuruma...

"Dəniz pişikləri" komandasının snayperçi - sərrast atıcısı şəhid Elnur Kərimov 1994-cü il aprelin 20-də Mingəçevir şəhərində anadan olub. Onun məktəb yaşı çatanda ailəsi doğma kəndinə - Almalıya qayıdıb və Elnur kənd tam orta məktəbində təhsil alıb. Anası deyir ki, uşaq vaxtı tez-tez xəstələnərdi:

- Evin sonbeşiyi idi. Özündən böyük iki qardaşı da var. Mən həmişə onu qardaşlarından seçərdim ki, kiçikdir, cılızdır. Sakit, azdanışan olub. Dərslərinə bir o qədər həvəs göstərməzdi. Deyirdim, təki canı sağ olsun. Oxumasa da olar.

2011-ci ildə orta məktəbi bitirən Elnur elə həmin ilin oktyabr ayında hərbi xidmətə çağrılır. Bakı yaxınlığında Səngəçalda ilyarım hərbi xidmətdə olur. 2013-cü ilin aprelində doğmalarının yanına qayıdır. Sonra Bakıda ikiillik diş texniki hazırlayan kursda təhsil alır. 2019-cu ilə kimi Bakıda, Zaqatalada diş texniki işləyir.

Şəhidimizin həyat yoldaşı Nazilə də söhbətə qoşulur:

- Bu işdən heç razı deyildi. Koronavirus pandemiyası vaxtı isə sifarişləri yox dərəcəsində idi. Biz şəhərdə kirayədə yaşayırdıq. Oğlumuz təzəcə dünyaya gəlmişdi. Qayınatamgilə çətinliklərimizi bildirmirdik. Elnur bir müddət taksidə işlədi. Yenə də "bu işlər mənlik deyil", - deyirdi. Bir gün evə sevinclə gəldi. Hərbi kursa yazılmışdı. Altı ay kurs keçdikdən sonra "Dəniz pişikləri" komandasında xidmətə başlayacaqdı. Mən də, anası da çox dedik ki, çətin olacaq. Bizi eşitmədi. Hər dəfə də deyərdi: "Çox zor işdir. Əladır. Əsl kişi işidir." Nə qədər yorğun olsa da, bizdən gizlədərdi. Nədən idi, bilmirəm. Elnurun hər işi çox çətinliklə başa gəlirdi. Amma hərbçi olmaq istəyi elə bil yolunu açmışdı. Çox asanlıqla istədiyini əldə edirdi. Çox ailəcanlı idi. Cibində bir manatı olsa belə, onu ailəsinə xərcləyərdi. Oğlumuzun bir yaşı yenicə tamam olmuşdu. Qonşunun uşağının pultla idarə olunan maşını vardı. Rəşid o maşını istəyirdi, ağlayırdı. Axşam mən Elnura bunu söylədim. Heç nə demədi. Ertəsi gün uşağa həmin maşından alıb gətirdi, kreditlə götürmüşdü... Hərbi kursda oxuyan 120 nəfərdən yalnız 20-si işə qəbul olunmuşdu. Onlardan biri də Elnur idi. Üç ay idi işə başlamışdı. Elə bil ürəyimə nə isə dammışdı. Deyirdim, gəlsənə bu işdən çıxasan. Nə isə heç mənim ürəyim rahat deyil... Bizi kəndə göndərdi ki, tək qalmayaq. Kreditlə telefon da almışdı. Ödəmənin bir ayı qalmışdı.  Ölümündən bir gün qabaq  qardaşına pul göndərmişdi ki, kreditini bağlatsın. Kim bilir, bəlkə də ürəyinə damıbmış...

Valideynlərinin, ailəsinin Elnurla bağlı söhbəti tükənmək bilmir:

- Mən də, gəlin də hər dəfə telefonla görüntülü danışırdıq. Mən dili qurumuş da hər dəfə deyirdim ki, mən sənin balanı böyüdə bilmərəm. Çıx gəl. O isə: "Elə etməyin ki, sizi bloka salım, - deyirdi. Kaş, o sözlər dilimdən çıxmayaydı...

- Rəşid hələ uşaqdır, çox şeyi başa dümür. Böyüdükcə atasını axtaracaq. Dünyada heç kim, heç nə atanı əvəz edə bilməz. Nə qədər ömrüm var, bir baba kimi, əlimdən gələni edəcəm ki, oğlumun, sonbeşiyimin yadigarı qayğısız böyüsün. O, elə bir oğul idi, sözlə demək çətindir. Çox şeyləri bizdən gizlədib. Nə qədər çətinə düşsə belə, mənə bildirməyib. Həmişə böyük qardaşı Yamillə dərdləşib. Onun Qarabağa getməyindən də, snayperçi olmağından da xəbərimiz olmayıb. Yamilə bərk-bərk tapşırıb ki, evdəkilər bilməsin. Şəhid olduğu xəbərini alanda bilmişik ki, o da Qarabağda imiş. Qonşumuzun oğluna qaynı, qumlu Qurban Hacıxanov zəng vurub deyib ki, Elnur şəhid olub. Onu da deyib ki, mən ona çox dedim: "Elnur, yerini dəyiş, məni eşitmədi." Qurban özü də döyüşdə yaralanıb. Əvvəl inanmadım.



Oğlum Yamil məni qucaqlayıb hönkürəndə bildim ki, Elnurum da Vətən yolunda şəhid olub. Bir ata üçün oğlunu çiynində aparmaq ən ağır yükdür. Kaş onun çiynində mən haqq dünyasına gedərdim. Bu da taleyin qismətidir. Mən tək deyiləm. Biz ataların təsəllisi oğullarımızın uğrunda can verdiyi Vətən torpağını azad görməkdir. Namusumuz, qeyrətimiz və bir də müqəddəs Vətən torpağı uğrunda şəhidlik zirvəsinə ucalan Azərbaycan oğulları arasında mənim igid balam, Elnurum da var.

...Bütün bunları dinləmək nə qədər çətin olsa da, gözyaşları içində dinlədim bir qəhrəmanımızın həyat hekayəsini. Qeyrət mücəssəməsi olan Elnur, rahat uyu. Bu gün sənin uğrunda can verdiyin torpaqlarda da müqəddəs bayrağımız qürurla dalğalanır. Yadigarın Rəşid ata nisgili ilə böyüsə də, səninlə qürur duyacaq. Ölümündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda" medalı ilə təltif olunan qəhrəman atası ilə fəxr edəcək.

Bir zamanlar qorxularının əsiri olan Əskinaz ana, daha qorxma. Vaxtilə gözlərindən nifrət oxuduğun o erməni dığaları payını elə alıb ki!.. Janna "xala" da bir daha "bizim Karabağımız" kəlməsini dilinə gətirməyəcək.

*Xavər ƏFƏNDİYEVA,*
*Qax rayonunda çıxan*
*"Şəlalə" qəzetinin redaktoru*

# REGİONLAR

## Şəhidlərin xatirəsi ehtiramla anılıb

ŞUŞA

**44 günlük Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi ölkəmizin bütün bölgələrində olduğu kimi, işğaldan azad edilmiş Şuşa şəhərində də ehtiramla yad olunub.**



Anım tədbirində Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, məktəblilər, doğma yurdlarına qayıtmış Şuşa sakinləri iştirak ediblər.

Mərasim iştirakçıları Şuşa şəhərindəki Şəhidlər xiyabanında xatirə lövhəsinin önünə gül dəstələri qoyublar. Şəhidlərin xatirəsi yad olunub, ruhlarına dualar oxunub. Sonra məktəblilər vətənpərvərlik mövzusunda şeirlər söyləyiblər.

Ölkəmizin bütün ərazisində olduğu kimi, Şuşa şəhərində də saat 12:00-da şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

XOCALI

**27 Sentyabr Anım Günündə Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi Xocalıda da ehtiramla anılıb.**

Xocalı rayonunda yerləşən şəhid məzarlığında Anım Gününə həsr olunmuş tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonları üzrə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, eləcə də bu ərazilərdə fəaliyyət göstərən digər dövlət qurumlarının rəhbər işçilərinin, müəllim, tələbə və şagirdlərin iştirak etdiyi mərasimdə şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Çıxışlarda Vətən müharibəsində iştirak etmiş Azərbaycanın mübariz oğul və qızlarının şücaətinin dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyi, şəhidlərimizin ruhunun ehtiramla anıldığı, xatirələrinin uca tutulduğu vurğulanıb.

## Anım Günü ağacəkmə aksiyası keçirilib

**Anım Günü ilə əlaqədar Kəlbəcər-Laçın avtomobil yolunun Qorçu kəndi yaxınlığından keçən hissəsində ağacəkmə aksiyası keçirilib.**



Aksiya zamanı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "2 N-li Regional Avtomobil Yollarının Yaşıllaşdırılması və Ekologiyası" MMC tərəfindən ərazilər kənar əşyalardan təmizlənib, quyular qazılıb və ağaclar əkilib.

Ümumilikdə sözügedən avtomobil yolunun kənarlarına agentliyin tinglik sahələrində yetişdirilmiş yüzlərlə Eldar şamı, çinar, akasiya və digər müxtəlif növ ağac əkilib. Əkilən ağaclar üzvi gübrə verilərək suvarılıb.

*L.QULİYEV, "Azərbaycan"*

# Taxıl, üzüm, kartof, bal...

## Tovuz torpağı kəndlinin təknəsini heç vaxt çörəksiz qoymur



**Payızdır, istilər bir qədər səngiyib. Belə bir vaxtda kənd adamları yetişdirdikləri məhsullarını yığıb-yığışdırmaqla məşğuldurlar. Tovuzda da belədir. Heç kim istəmir ki, min bir əziyyətlə ərsəyə gətirdiyi məhsulu sahədə, bağda qalsın.**

Məlum olduğu kimi, Tovuz ölkəmizin iri kənd təsərrüfatı rayonlarından biridir. Hazırda rayonda 131211 hektar əkinəyararlı torpaq sahəsi var. Rayon sakinləri bu torpaqlarda hər il bol kənd təsərrüfatı məhsulları yetişdirirlər. Ən çox diqqət taxılçılığa yönəldilir. Əvvəlki illərdə olduğu kimi, bu il də təsərrüfat sahibləri taxılçılıqda yüksək göstəricilərə nail olmuşlar - 12391 hektardan 41199 ton məhsul biçmişlər. Məhsuldarlıq 33,3 sentnerə yüksəlmişdir.

Rayonda taxılçılığın inkişafında gərgin əmək sərf edən çoxlu sayda fermerlər var. Onlardan Ədalət Məhərrəmov istifadəsində olan 100 hektar sahədə taxıl əkmiş və zəmilərdən bol məhsul götürmüşdür. Tovuz Aqrokompleks, "Tovuz Aqro", "Agro Dairy" MMC-lər də taxıl istehsalında yüksək nəticələrə nail olmuşlar.

Kartofçuluq rayonda ənənəvi sahədir. Təkcə cari il 5496 hektarda kartof toxumu əkilmişdir. Son məlumata görə, hər hektardan 298 sentner olmaqla 157210 ton məhsul toplanmışdır. Rayonda bu sahədə də zəngin təcrübə toplamış onlarla təsərrüfat var.

Yeri gəlmişkən qeyd edək ki, istehsal olunmuş kartofun, eləcə də digər məhsulların saxlanması üçün rayonda bir neçə təsərrüfatda soyuducu anbar fəaliyyət göstərir. Lakin kartof istehsalı ilə məşğul olan fermerlərin bir məsələ ilə bağlı gileygüzarı var. Söhbət zamanı onlar dedilər ki, əvvəllər xaricdən idxal olunan kartofa görə gömrük rüsumu ödənilirdi ki, bunun da nəticəsində gətirilən kartof bir qədər baha qiymətə satılırdı. Nəticədə yerli kartofun da qiyməti qalxırdı. Bir ildir ki, bu idxal rüsumu dayandırıldığından gətirilən məhsulla yanaşı, yerli məhsulun da qiyməti aşağı düşmüşdür ki, bu da fermerlərə sərf etmir, yəni bəzən onlar məhsulu maya dəyərindən aşağı satmalı olurlar.

Söz ki, qazancdan düşdü, iqtisadi cəhətdən gəlirli olan üzümçülükdən yan keçmək olmaz. Məlum olduğu kimi, sovet dövründə Heydər Əliyevin birbaşa təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda üzümçülük sürətlə inkişaf etmişdi. Hətta respublikada üzüm istehsalı 2 milyon tonu ötmüşdü. Bu da öz növbəsində aqrar-sənaye kompleksinin inkişafına, kənd əhalisinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olmuşdu. Həmin illər Tovuz rayonunda 10 min hektara yaxın üzüm plantasiyaları salınaraq illik məhsul istehsalı 120 min tona çatmışdı ki, bunun da nəticəsində rayon ərazisində 12 şərab emal müəssisəsi fəaliyyət göstərirdi. Lakin 80-ci illərin ortalarından başlayaraq keçmiş sovetlər birliyinin rəhbərliyi tərəfindən aparılan antialkoqol kampaniyası çərçivəsində Azərbaycanda da böyük zəhmət bahasına yaradılmış üzüm bağları məhv edildi və təsərrüfatlar, yəni əhali bu gəlir mənbəyindən məhrum oldular.

Yalnız 15 dekabr 2011-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə "2012-2022-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" təsdiq edildikdən sonra ölkədə, o cümlədən Tovuzda bu sahənin dirçəldilməsinə başlandı. Nəticədə bir neçə il ərzində rayon üzrə üzüm bağlarının sahəsi 1150 hektara çatdı. Hazırda bu bağların 1070 hektarı barverəndir. Əvvəlki illərdə olduğu kimi, cari mövsüm də həmin bağlarda bol məhsul yetişmişdir. İndiyədək plantasiyaların hər hektarından 284 sentner olmaqla 7250 ton məhsul toplanmışdır. Məhsul yığımı isə davam edir. Üzümçülükdən yazıb fermerlərdən Kamil Hüseynov, İbrahim Məmmədov, Sayad Qılıcov, Səkinə Həsənova, İsmayıl Hüseynovun adlarını çəkməmək insafsızlıq olar. Onların hər birinin rayonda üzümçülüyün inkişafında sanballı payı var.

7 ilə yaxındır ki, rayonda tütünçülük də inkişaf edir. Bu il 9,5 hektarda tütün bitkisi əkilmişdir. İndiyədək 2,31 ton quru tütün yığılaraq təhvil verilmişdir. Onu da bildirək ki, tütünçülük də gəlirli sahə sayılır. Necə deyərlər, özü ziyanlı olsa da, təsərrüfat sahibi üçün xeyirlidir.

Əvvəlki illərdən fərqli olaraq, bu il rayonda meyvə tədarükü də artmışdır. 1559,1 hektar meyvə və giləmeyvə bağından indiyədək 11064,3 ton məhsul yığılmışdır. Şəkər çuğunduruna gəldikdə, onun əkin sahəsi 1162,6 hektara çatdırılmışdır. Təkcə "Aqro Dairu" MMC tərəfindən bu il 1099,5 hektarda şəkər çuğunduru əkilmiş, indiyədək hər hektardan 673,8 sentner olmaqla 74085,6 ton məhsul yığılmışdır.

Bir neçə fakt da bu günün ən vacib sahəsi sayılan heyvandarlıq barədə. Cari ilin əvvəlinə olan məlumata görə, Tovuzun təsərrüfatlarında 41 min başdan çox qaramal, 164 min başdan çox davar bəslənilir. Ceyrançöl ərazisində 550 hektar sahədə "Tovuz Aqro MMC" aqrokompleks fəaliyyət göstərir. Aqrokompleksin ərazisi 1500 baş qaramal, 2400 baş davarın saxlanılmasına imkan verir. Hazırda aqrokompleksdə 1000 başdan artıq ətlik istiqamətli mal-qara, 2400 başa qədər damazlıq qoyunlar saxlanılır. Son illər heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması üçün heyvanlarda süni mayalanmaya üstünlük verilir. Rayonda 4 süni mayalandırma mütəxəssisi fəaliyyət göstərir. İl ərzində 1211 baş inəkdə süni mayalanma aparılmış və 520 baş sağlam buzov alınmışdır.

Artıq bazarda Tovuz balı da tanınmağa başlanmışdır və bu, səbəbsiz deyil. Bu gün rayon ərazisində 13438 arı ailəsi var. Hər bir arı ailəsindən 12-15 kiloqrama qədər bal götürülür. Peşəkar arıçı Xəyal Qarayev və Qabil Hacıyev 130-dan çox arı ailəsinə qulluq edirlər. Onlar yay mövsümündə pətəkləri Tovuzun səfalı dağ kəndlərinə köçürdüklərindən məhsullarının alıcısı başlarının üstündədir.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## Qəbula vətəndaş yox, məmur gəlir

**Lənkəran şəhər rəhbərliyinin növbəti səyyar görüş-qəbulu Göyşaban kənd inzibati ərazində keçirilib. Səyyar görüşdə icra hakimiyyəti aparatının məsul şəxsləri, rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar təşkilatların və xidmət sahələrinin rəhbər işçiləri iştirak ediblər.**

Səyyar qəbul Anım Gününə təsadüf etdiyindən ŞİH-in başçısı T.Qaraşov bildirib ki, ölkəmiz ərazi bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını və dövlət suverenliyini məhz qəhrəman övladlarımızın canı və qanı bahasına təmin edib. Buna görə də hər kəsin mənəvi borcudur ki, şəhidlərimizin ruhuna hörmətlə yanaşsın, onların ailə üzvlərinin qayğısına qalsın.

Sonra ötən səyyar qəbulda qaldırılan məsələlərin icra vəziyyəti barədə iştirakçılara məlumat verilib. Qeyd edilib ki, vətəndaşlara xidmət və onların müraciətlərinə həssas münasibət göstərilməsi dövlət məmurları qarşısında qoyulan əsas tələblərdəndir.

Səyyar görüşdə Göyşaban və Ürgə kəndlərinin sakinlərinin qaldırdıqları bütün müraciətlər həssaslıqla dinlənilib, qaldırılan və yerli icra hakimiyyətinin səlahiyyətləri daxilində olan məsələlər yerindəcə həllini tapıb, yerli icra hakimiyyətinin səlahiyyətlərinə aid olmayan digər məsələlər barədə mərkəzi qurumlara rəsmi müraciətlərin ünvanlanması aidiyyəti şəxslərə tapşırılıb.

*S.CAVADOV, "Azərbaycan"*

## Naxçıvanda İmtahan Mərkəzi yaradılıb



**"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" çərçivəsində şagird nailiyyətlərinin mərkəzləşmiş qaydada monitorinqinin həyata keçirilməsi üçün muxtar respublikanın Təhsil Nazirliyi tərəfindən İmtahan Mərkəzi yaradılıb.**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, imtahan mərkəzinə tender yolu ilə ən müasir optik oxuyucular, çap avadanlıqları, kağız məmulatları və digər çap vəsaitləri alınaraq quraşdırılıb. Məlumat üçün bildirək ki, mərkəzdən IV-VIII siniflərdə ümumi, IX-XI siniflərdə isə buraxılış formatında tədris ili ərzində 6 dəfə olmaqla, ödənişsiz sınaq imtahanlarının təşkili həyata keçiriləcək. Yeni yaradılan mərkəz şagirdlərin biliyinin qiymətləndirilməsi işinə öz töhfəsini verməklə yanaşı, tədrisin keyfiyyətinin artırılmasına şərait yaradacaq.

# Turizm sektorunda Qəbələ öndədir

## Rayona gələn yerli qonaqların sayında azalma olsa da, xaricilərin sayı 50 faizə yaxın artıb

**Azərbaycanın hər guşəsinə elə bir gözəllik bəxş olunub ki, il ərzində turizmin bütün növləri üzrə qonaq qəbul edə bilir.**

Belə məkanların sırasında həm unikal relyefi, flora və faunası, saf havası, həm də insan əli hesabına yaradılan tarixi və müasir tikililəri ilə seçilən Qəbələnin özünəməxsus yeri var. Cari ilin yanvar-avqust aylarında Qəbələ rayonundakı hotel və mehmanxana tipli müəssisələrə 72,3 min nəfər yerli və əcnəbi turist yerləşdirilib. Onların 25,8 min nəfəri (35,7 faizi) Azərbaycan, 46,5 min nəfəri (64,3 faizi) xarici ölkə vətəndaşı olub. Rayon Statistika İdarəsinin məlumatına görə, 8 ayda Qəbələnin hotel və mehmanxana tipli müəssisələrinə yerləşdirilən yerli və əcnəbi turistlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 14,1 min nəfər (24,4 faiz) artıb. Bu dövr yerli turistlərin sayı keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,2 min nəfər (4,5 faiz) azalsa da, əcnəbi turistlərin sayında 15,4 min nəfər (49,6 faiz) artım qeydə alınıb.

Qəbələyə gələn əcnəbi turistlər arasında Hindistan vətəndaşları əvvəlki aylarda olduğu kimi, yenə də üstünlük təşkil ediblər - 19,5 min nəfər. Ümumiyyətlə, yanvar-avqust aylarında Qəbələyə Səudiyyə Ərəbistanından 10454, Birləşmiş Ərəb Əmirliklərindən 3778, Küveytdən 2385, Pakistandan 1947, Gürcüstandan 1125, Rusiyadan 713, Omandan 761, Qətərdən 681, İsraildən 543, Türkiyədən 217, Böyük Britaniyadan 200, ABŞ-dən 187, Bəhreyndən isə 175 turist səfər edib. Bundan əlavə, həmin müddətdə Qəbələyə digər ölkələrdən də xeyli sayda əcnəbi qonaq gəlib.



Məlumatda o da bildirilir ki, Qəbələ ərazisində yerləşən 18 mehmanxana və mehmanxana tipli müəssisədən hesabat dövründə 15-i fəaliyyət göstərib. Bir gün qonaqlamaq üçün orta qiymət 45,7 manat təşkil olub. Turistlərin qonaqlama müddəti 1-2 gün davam edib. Həmin müddətdə rayonun turizm obyektlərində 977 işçi çalışıb.

*Qurban MƏMMƏDOV, "Azərbaycan"*

## Yaxın vaxtlar Şəmkirin bütün ərazisi keyfiyyətli internetlə təmin olunacaq

**Şəmkirin yaşayış məntəqələri mərhələli şəkildə fiber-optik kabellər çəkilməklə sürətli internetlə təmin edilir. Bundan başqa, rabitə xətlərinin texniki normalara uyğunlaşdırılması, internet tutumlarının artırılması, yeni telefon çəkilişlərinin aparılması üçün də tədbirlər görülür.**



Artıq Yeni Göyçə, Varlı Həyat, Günəşli, Qaraqoyunlu, Dağ Cəyir, Aşağı Çaykənd, Yuxarı Çaykənd, Ağlavaşlı, Qaralar, Qılıncbəyli, Xuluf kəndlərində müxtəlif tutumlu mis kabellər müasir standartlara cavab verən fiber-optik kabellərlə əvəzlənmişdir. Ən qısa zamanda bu ərazilərdə yaşayan sakinlər GPON texnologiyası vasitəsilə yeni internet xəttinə qoşulacaqlar.

Qeyd edək ki, rayonda internetdən istifadə edən ünvanların sayı 42 minə çatmışdır. Hazırda internetlə təmin olunmamış cəmi 4 kənd (Nərimanlı, İsgəndərli, Dağ Daşbulaq və Kamandar) qalmışdır ki, onların da internet xəttinə qoşulmaları üçün layihələndirmə işləri aparılır. Bu o deməkdir ki, rayon ərazisinin 100 faiz internetlə təmin olunacağı günə çox qalmayıb.

*S.YUNİSOĞLU, "Azərbaycan"*





# Ədəbiyyat





**Elm xadimləri**

# Unudulmayan Mir Cəlal müəllim



**Mir Cəlal Paşayev haqqında bu yazını qələmə alanda istər-istəməz 1967-ci ilin 1 sentyabr gününü xatırladım. I kurs tələbələri olan əlli nəfər gənc gözlərini intizarla qapıya zilləmişdi, görəsən, ilk müəllimimiz kim olacaq? Elə bu zaman qapı açıldı və əsərlərini sevə-sevə oxuduğumuz, yalnız şəklini görüb özünü görmək səadətinə nail ola bilmədiyimiz bir insan - Mir Cəlal Paşayev içəri daxil oldu.**

Və o gündən - Mir Cəlal müəllimin auditoriyaya ilk qədəm basdığı gündən bizim beşillik tələbəlik həyatımız başladı. Həmin beş il ərzində biz Muxtar Hüseynzadə, Səlim Cəfərov, Məmməd Cəfər, Əkbər Ağayev, Ağamusa Axundov, Musa Adilov, Bəxtiyar Vahabzadə, Firidun Hüseynov, Tofiq Hacıyev, Samət Əlizadə, Fərhad Zeynalov kimi tanınmış dilçilərin və ədəbiyyatşünasların mühazirələrini dinlədik, amma o birinci gün yaddaşımıza əbədi həkk olundu. Mir Cəlal müəllim şirin bir təbəssümlə bircə-bircə hamımızın adını soruşdu. Mən öz adımı deyəndə əlini çiynimə qoyub dedi: "Sənin adın "Vaqif" pyesindən doğulub".

İllər gəlib keçib. Mir Cəlal müəllim qırx altı ildi əbədiyyətə, haqq yoluna qovuşub. Amma onun şirin təbəssümü, bir müəllim kimi söylədiyi mühazirələr, bir alim kimi ədəbiyyatşünaslığımıza bəxş etdiyi elmi incilər, bir yazıçı kimi qoyub getdiyi qiymətli romanlar, hekayələr, bir şəxsiyyət kimi isə könüllərdə əbədiyaşarlığı unudulan deyil.

Mir Cəlal Azərbaycan ədəbiyyatında və filoloji fikrində bir yazıçı və alim kimi öz yolu olan bir şəxsiyyət idi. Onsuz keçən bu qırx altı ildə bu yolun saflığına, həqiqət yolu olduğuna heç bir şübhə ola bilməz. Mir Cəlal XX əsr Azərbaycan ədəbiyyatı tarixində böyük bir ədəbi irs yaradıb. Onun əlli illik bədii yaradıcılığı XX əsr Azərbaycan gerçəkliyinin sənətkarlıqla qələmə alınmış canlı, müəzzəm lövhələridir. O əsərlərin ən başlıca bədii məziyyəti ondadır ki, hansı quruluşda yazılmasından asılı olmayaraq həyat həqiqətini ifadə edir.

Mir Cəlal son dərəcə realist yazıçı idi. Bu gün belə onun əsərlərini oxuduqda təsvirlərin canlı və reallığına heyrət edirsən. Elə bil ki, həyat hadisələri, insanlar, heç yazıçı müdaxiləsi olmadan birbaşa bədii əsərə köçürülüb. Amma belə deyil, Mir Cəlalın bədii nəsrindəki gerçəklik yazıçının bədii qüdrətiylə yaradılan gerçəklikdir.

## Onun bənzərsiz yazı tərzi vardı

Mir Cəlalın özünəməxsus, bənzərsiz fərdi üslubu, yazı tərzi vardı. Bu mənada onu kimsəyə bənzətmək mümkün deyil. Amma Mir Cəlalı ədəbi prinsipinə, həyatı təsvir üsulu və metodlarına görə Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev kimi XX əsr realistlərinin davamçısı saymaq olar. Davamçı olmaq heç də yaranmış ədəbi məktəbin prinsiplərini, metod və üsullarını kor-koranə təqlid etmək deyil, o yaşarı ənənəyə, onun möhkəm və davamlı prinsiplərinə müasir bədii təfəkkürün tələbincə yeni çalarlar artırmaqdır. Bax, bu mənada yazıçı Mir Cəlalla Mirzə Cəlil və Haqverdiyev arasında sələf-xələf münasibətlərindən, ədəbi varislik əlaqələrindən söz açmaq olar.

Mir Cəlal öz elmi fəaliyyətində bu iki sənətkara dönə-dönə müraciət etmişdir. Tələbəsi Firidun Hüseynovla birgə yazdığı "XX əsr Azərbaycan ədəbiyyatı" dərsliyində hər iki sənətkar haqqında elmi oçerkin müəllifi Mir Cəlal Paşayevdir. Bundan başqa o, "Azərbaycanda ədəbi məktəblər (1905-1917-ci illər)" adlı doktorluq dissertasiyasında, həmçinin "Cəlil Məmmədquluzadə realizmi haqqında" sanballı monoqrafiyasında C.Məmmədquluzadə və Ə.Haqverdiyev yaradıcılığından geniş söz açmışdır. Hələ biz 1944-cü ildə çap olunan üççildlik "Azərbaycan ədəbiyyatı tarixi"ndə XX əsr ədəbi irsimizin ən əsas tədqiqlərinin də Mir Cəlal tərəfindən yazıldığını unutmuruq.

Bizim yeni nəsrimizdə realizm üslubu çox haqlı olaraq, bu iki demokratik ədibin adı ilə adlandırılır. Bu realistlərin qüvvəsi onda idi ki, onlar müasir həyatı, ictimai konfliktləri, sinfi mübarizəni öz sənətləri üçün əsas obyekt götürürdülər. Onlar ədəbiyyat tariximizdə ilk dəfə canlı insanların gündəlik adi həyat və məişətini boyasız, bəzəksiz, dürüst yazırdılar. Onlar adət və ənənələri, ağır zəhməti, güzəranı, "diş ağrısını", evlənməyi, qonaqlığı, ər-arvadı, ata-oğul, dost-düşmən əlaqələrini və s. mövzu qəbul etmişdilər. Onlar köhnə, feodal-patriarxal məişəti, fanatik təsəvvür və zehniyyəti bədii ədəbiyyatın ədalət məhkəməsinə çəkirdilər. Bu böyük sənətkarlar oxucunu heyrətə gətirirdilər: "Bu necə işdir. Ədəbiyyat hara, diş ağrısı hara?! Bəs gül, bülbül? Bəs zülf, sevda necə olsun?.."

Yeri gəlmişkən qeyd edim ki, Mir Cəlalın bu məqaləsindəki obrazlı ifadələr onun monoqrafik tədqiqatlarına və dərsliklərindəki elmi oçerklərinə də xas olan bir cəhətdir. Məsələn, o, Haqverdiyevə həsr etdiyi məqaləsinin sonunu belə tamamlayır: "Haqverdiyev, bir növ, canlı Azərbaycandır, yeriyən Azərbaycandır!" Yaxud Səməd Vurğuna həsr etdiyi məqalələrindən birini belə başlayır: "Gənc Səməd bir çoxları kimi, əlinə qələm alanda kağız korlamamışdır. O, fitrətən şair doğulmuşdur".

Mir Cəlalın hələ otuzuncu illərdə yazdığı "Həkim Cinayətov", "Anket Anketov", "Mərkəz adamı" hekayələrində məhz Mirzə Cəlil və Haqverdiyev ənənələrinin yaxşı mənada təsirini hiss edirik. "Xarakter bir hadisə, yığcam bir süjet, ümumiləşdirici bir mətləb, sadə söyləmə, nəqletmə üsulu hekayə sənətində əsasdır" - hekayə üçün müəyyənləşdirdiyi bu prinsipə Mir Cəlal bütün yaradıcılığı boyu sadiq qalmağa çalışırdı.

Mir Cəlal xarakter ustası idi. Onun bu ustalığı təkcə romanlarında deyil, hekayələrində də bariz nəzərə çarpırdı. O, obrazı bəzən qrotesk səviyyəsində təqdim edirdi, obraza bu cür yanaşma çox zaman əndazəni aşsa da, ümumiləşdirici mahiyyət daşıyırdı.

Mir Cəlalın "Anket Anketov" adlı hekayəsindən söz açan bütün müəlliflər yekdilliklə qeyd edirlər ki, müəllif bu hekayədə Anket Anketov simasında konkret və ümumi xüsusiyyətləri olan qüvvətli bədii-ictimai bir tip yaratmışdır. Kimdir Anketov? O, insanlara, insan münasibətlərinə "liçni delolar"a görə qiymət verir, sənəd varsa, deməli, o, kiməsə inana bilər. Adamlar onun nəzərində şəxsi ləyaqətinə, bacarığına görə deyil, "liçni delolarına" görə qiymətlidir. Başdan-ayağa bürokratizmdən yoğrulmuş bu tip cəmiyyət üçün zərərlidir. Anketovlar onda da vardı, indi də.

Bir halda ki, Mir Cəlal yaradıcılığı barədə söhbətə onun satiralarından başladıq, bu satiranın ən kəskin formada ifadə olunmuş bir nümunəsi ilə söhbəti davam etdirək. Görkəmli tənqidçi Məmməd Cəfər Mir Cəlalın müharibə illərində yazdığı "Açıq kitab" romanını "həqiqətin üzünə dik baxan" bir əsər kimi səciyyələndirirdi.

O zaman roman çap olunanda ("Vətən uğrunda" jurnalı, 1944) ədəbi aləmdə böyük əks-səda doğurdu. Tənqidçi və ədəbiyyatşünaslardan Məmməd Cəfər, Orucəli Həsənov əsəri yüksək qiymətləndirdilər. Orucəli Həsənov Mir Cəlalı "ədəbiyyata həyat gətirən" yazıçı adlandırdı, M.Cəfər isə həyat həqiqətini cəsarətlə təsvir etdiyi üçün Mir Cəlalı alqışladı. Ancaq gizlətmək lazım deyil ki, bir sıra ədiblər romana tənqidi münasibət bəslədilər. Azərbaycan KP(b) MK-nın "Azərbaycan sovet ədəbiyyatının vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" 1948-ci il qərarında "Açıq kitab" tənqidə məruz qalan əsərlər sırasında qeyd edildi.

Səbəb nə idi? Əsas səbəb o idi ki, Mir Cəlal sovet ədəbiyyatının başlıca metodu olan sosializm realizmi xəttindən yayınmışdı.

Zaman keçdi, ədəbiyyatda yalnız təsdiq pafosunun, "müsbət qəhrəman"ın heç də əsas rol oynamadığı, tənqidi realizmin bütün zamanlarda vacibliyi bir daha sübut olundu və baxıb gördük ki, Mir Cəlalın Gəldiyevləri bu gün də sifətlərini dəyişmiş halda yenə meydan sulamaqdadırlar.

## Azərbaycan sovet romanının yaradıcılarından biri

Əbülhəsən, Süleyman Rəhimov, M.S.Ordubadi, Y.Vəzir, M.Hüseyn, Ə.Vəliyevlə birgə Mir Cəlal da XX əsr Azərbaycan romanının təməl daşlarını qoyanlardan olub.

Mir Cəlalın "Dirilən adam" və "Bir gəncin manifesti" romanları otuzuncu illərin Azərbaycan romanları sırasında yer tutur. Mir Cəlal "Dirilən adam"da lətifə-anektod səviyyəsində olan bir əhvalatı sosial roman səviyyəsinə qaldırmış, bir kəndin timsalında müxtəlif sinfi-siyasi qruplaşmaları, ictimai zümrələri real və təbii cizgilərlə canlandırmışdır. Məsələ onda deyil ki, öz sevimli ailəsindən dərbədər düşüb bir parça çörək dalınca şəhərə işləməyə gələn Qədir sonralar bolşeviklərə qoşulur, məsələ ondadır ki, o ayılır, mənəvi ölülük ictimai diriliyə çevrilir. Mir Cəlalın bu romanda başlıca uğurunu xarakter yaratmaq məharətində axtarmaq lazımdır. Yazıçı Qədir, Qumru, Bəbir bəy, Məşədi İslam obrazlarını elə ustalıqla təsvir etmişdir ki, oxucu onların hər bir hərəkətinin real və inandırıcı olduğuna qətiyyən şübhə eləmir.

Mir Cəlal Azərbaycan milli-mənəvi dəyərlərinin, əsrlərdən bəri yaranan və yaşanan əxlaqi keyfiyyətlərin qızğın təbliğatçısı idi. "Bir gəncin manifesti" əsərində hamının xatırladığı çox təsirli bir səhnə var. Ehtiyac ucundan Sona evindəki "Yusif-Züleyxa" xalçasını bazara satmağa gətirib. Şərq bazarına gəlmiş bir ingilis xalçanın gözəlliyinə heyran qalır, onun yanında bir yerli tacir də var. İngilis nə qədər dil tökürsə, Sona onu rədd edir. Tacir ingilisin yanında pərt olmasın deyə xalçanı özü almaq istəyir. "İngilis almır, a bacı, görürsən ki, mən alıram. Öz müsəlman qardaşın, Əli şiəsi!" Amma Sona ona da satmır, çünki bu yerli tacir bir qədər əvvəl qorxaq kölə kimi xalçanı ingilisə göstərmişdi.

"Sona xalçanı çəkib aradan yığdı və pəhləvan kimi qoltuğuna vurdu:

- Satmıram, - dedi, - vəssalam!

Xalçanın küləyi, soyuq və kəsərli silah kimi ingilisin boz sifətinə dəydi. Mister vahiməyə düşmüş kimi geri çəkildi. Tacir onun dediyini qadına tərcümə etdi:

- Görürsən? Düzü elədir. "Hara getsə, - deyir, - onu mən alacağam".

Sona daha da acıqlandı. İti və həyəcanlı nəzərlərilə həm taciri, həm misteri süzüb əli ilə qəti rədd işarəsi verdi:

- İtə ataram, yada satmaram!

Sona arxasını misterə və tacirə çevirib elə cəld gedirdi ki, deyəsən evdə yağı daşır. Onun dalınca iki həris canavar gözü baxır, yanırdı.

Yüzlərlə vətəndaşın sevincli, alqışlı baxışları, o namuslu qızı və qeyrətli ananı yola salırdı:

Halal olsun!"

## Qələmini süngüyə çevirən yazıçı

Mir Cəlal nəsrini publisistikasız təsəvvür etmək olmaz. Ədibin müharibə illərində yazdığı "Həzi Aslanov" adlı silsilə oçerkləri var, bu janrına görə oçerk sayılsa da, yazıçı Həzi Aslanovun keçdiyi şanlı həyat və mübarizə yolunu bədii lövhələrlə elə təqdim edir ki, yazının hekayəmi, oçerkmi olduğunun fərqinə belə varmırsan. Yaxud "Anaların divanı" hekayəsində bu tipli cümlələrə rastlaşdıqda da qətiyyən təəccüblənmirsən: "Dünyada birinci və axırıncı dəfə olaraq anaların müqəddəs qiyamı başlanırdı. Analar indi müsəlləh və qəzəbli bir ordu kimi əl-ələ, səs-səsə verirdilər. Kəndli qadın əlində alakeş, kürək, toxa gəlirdi. Fəhlə qadın yumruğunu düyümlüyərək bayraq kimi qaldırırdı. Müəllim kitabını silaha dəyişir, yazıçılar qələmi süngüyə çevirirdi".

Müharibə illərində Mir Cəlalın "Yollar", "Qardaş qanı", "Şərbət", "Odlu mahnılar", "Atlı", "Mərcan nənə", "Çupçik", "Vətən yaraları", "Ər və arvad" və s. hekayələri çap olundu. Təfərrüata varmadan deyə bilərik ki, bu hekayələrin hər birində cəbhə həyatını yaxından müşahidə edən, döyüşçülərlə təmasda olan bir vətənpərvər yazıçının dəqiq, canlı müşahidələrinin şahidi oluruq. Axı Mir Cəlal müharibə illərində bir çox yazıçı dostları ilə birgə Novorossiyskdə, Uzaq Şərqdə olmuşdu. Səməd Vurğun "Vətən müharibəsi və ədəbiyyatımız" adlı məruzəsində qeyd edirdi ki, Mir Cəlalın "Vətən yaraları" hekayəsini oxuduqdan sonra mən düşmənə qarşı daha kinli və amansız oldum".

Müharibədən sonra Mir Cəlal üç roman yazdı. Bunlardan biri "Yolumuz hayanadır?" böyük şairimiz Mirzə Ələkbər Sabirin keşməkeşli ömür yoluna həsr olunmuşdu. Sabir yaradıcılığını böyük məhəbbətlə öz elmi əsərlərində tədqiq hədəfinə çevirən, onu mənəvi ustadı və müəllimi sanan Mir Cəlal romanda şairin mükəmməl bədii obrazını yaratmışdı.

"Yaşıdlarım" romanı isə hərbi-vətənpərvərlik mövzusunda qələmə alınmışdı. Romanda üç dövr - müharibədən əvvəlki, müharibə dövrü və müharibədən sonrakı dövrlər təsvir olunur.

Mir Cəlalın "İnsanlıq fəlsəfəsi" (1958) adlı gözəl bir hekayəsi var. Bu hekayədə nə kəskin süjet, nə gərginliyi ilə seçilən dramatik konflikt, nə də bir-birini əvəz edən maraqlı hadisələr nəzərə çarpır. Bəs onda nədir bu hekayənin gözəlliyi?

Hekayədə bir insan ömrü təsvir edilir. Yazıçı tikinti trestində bənna işləyən Baxışı, onun ailə sevincini, sonra ölümünü, bu ölümdən doğan kədər hissini təsvir edir. Özü də aramla, tələsmədən, amma təsvir etdiyi qəhrəmana rəğbəti hiss edilə-edilə. Baxış da, onun həyat yoldaşı Ağca da adi insanlardır, amma öz halal zəhməti və səmimi davranışları ilə başqalarından seçilirlər. Mir Cəlal o dövr üçün xarakterik olan "müsbət qəhrəman" obrazını iş prosesində, hərəkətdə təsvir eləmir, sadəcə onun keçdiyi həyat yolunu müəllif təhkiyəsi yönündə izləyir. Ancaq müəllifin məramı heç də dövrün "müsbət qəhrəman"ını təqdim etmək olmamışdır. Məqsəd insan amiliylə bağlıdır: istər adi insan olsun, istər şöhrətli …öləndən sonra o, unudulurmu? Məlum olur ki, Baxışın həyat yoldaşının nigarançılığına dəyməz - onu unutmayıblar. "Görərsən, iki gün çəkməyəcək ki, əli qələmlilər gələcək, binalara baxacaq, dəftərləri açacaq, adamları dindirəcək, şərəf lövhələrini yoxlayacaq, tarix yazacaqlar. Bu sıralanmış uca ağ evlərin çoxunda Baxışın adını görəcək, yazacaqlar".

Bu hekayəni niyə xatırlatdıq? Mir Cəlal müəllimin həyatı və keçdiyi yazıçı-alim-pedaqoq ömrü də fikrimizcə, dünyadan köçəndən sonra unudulmayan və illər ötdükcə yeni nəsillər üçün doğulan bir ömürdür.

## Mir Cəlal Paşayev görkəmli ALİM idi

Onun haqqında yazılan bir xatirədə deyilir ki, otuzuncu illərin ortalarında gənc Mir Cəlal küçədə böyük ədib Hüseyn Cavidlə rastlaşır. Mir Cəlal kəmali-ədəblə Cavidə salam verir. Cavid Mir Cəlaldan soruşur ki, nə işlə məşğulsan. Mir Cəlal deyir ki, Azərbaycan qadın şairlərinin yaradıcılığı barədə mövzu götürmək istəyirəm, bununla bağlı xeyli material toplamışam. Cavid gülümsünür və əlini Mir Cəlalın çiyninə vurub deyir: "Sən qadınlar haqqında yox - bunu hamı yaza bilər - Füzuli sənəti barədə elmi iş yaz. Dəryada damla axtar, damlada dərya yox!" Və Mir Cəlal "Füzulinin poetikası" mövzusunda elmi işə girişir. 1940-cı ildə o, həmin mövzuda namizədlik dissertasiyası müdafiə edib filologiya elmləri namizədi alimlik dərəcəsi qazanır. Sonralar Mir Cəlal bu əsərə yenidən qayıdır, onu daha da təkmilləşdirir, 1958-ci ildə "Füzuli sənətkarlığı" monumental əsər işıq üzü görür.

"Füzuli sənətkarlığı" monoqrafiyası həm Azərbaycanda, həm də xaricdə dahi şairə həsr edilən ən sanballı əsərlərdən biridir. Əsər yazılış tərzi etibarilə təkcə sırf elmi mühakimələr üzərində qurulmamışdır, dərin elmi mühakimələrlə yanaşı, burada hissi-emosional üslub tərzinin də öz yeri var və bu cəhət monoqrafiyanın elmi üslubu ilə vəhdət təşkil edir.

Bu kitaba qədər dahi şairin şeir mədəniyyəti, poetik ustalığı öz elmi yozumunu tapmamışdı. Bunu ilk dəfə Mir Cəlal müəllim həyata keçirdi.

Mir Cəlal müəllimin "Azərbaycanda ədəbi məktəblər" (onun doktorluq dissertasiyası) monoqrafiyası və Azərbaycan ədəbiyyatının müxtəlif probemləri və şəxsiyyətlərinə aid onlarla məqalələri var və o, bir tənqidçi-ədəbiyyatşünas kimi də USTAD idi.

Bu yazını sona çatdıranda Mir Cəlal müəllimin Səməd Vurğuna böyük məhəbbətinin ifadəsi olan "Səməd Vurğunun əziz xatirəsi" adlı məqaləni xatırladaq. Həmin məqalə belə başlayır: "Orduda belə bir qayda var: şəhid olan nadir qəhrəmanın adı hissənin siyahısında hər səhər yoxlama zamanı başda çəkilir. Ədəbiyyat ordumuzun işində də müasir şeirimizin qəhrəmanı Səməd Vurğun buna bənzər şərəfli bir yer tutmuşdur".

Mir Cəlal müəllim də öz yazıçı-alim ömrü ilə ədəbiyyatımızın bu gün də xatırlanan mötəbər ağsaqqallarından olmuşdur. O da S.Vurğun, S.Rüstəm, R.Rza, M.Hüseyn, M.İbrahimov, S.Rəhimov, İ.Əfəndiyev kimi ədəbiyyatımızın başında duran sənətkarlardan biridir.

***Vaqif YUSİFLİ,***
***filologiya elmləri doktoru***

# Ankarada Beynəlxalq Füzuli Simpoziumu keçiriləcək

**Bu il dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 ili tamam olur.**




Bununla əlaqədar Türkiyənin Qazi Universiteti, Azərbaycan Milli Elmlər Akademiyası, Türk Kültürünü Araştırma İnstitutu və Türkiyədəki Azərbaycan səfirliyinin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Ankarada Beynəlxalq Füzuli Simpoziumu keçiriləcək.

Azərbaycan Mədəniyyət Mərkəzindən verilən məlumata görə, beynəlxalq simpoziumda dahi şair Məhəmməd Füzulinin həyatı, yaradıcılığı, əsərləri, onun türk mədəniyyətindəki yeri, türk dili və ədəbiyyatına təsirinə dair akademik səviyyədə məruzələr dinləniləcək, Füzulu yaradıcılığına dair aparılmış tədqiqatlar təqdim olunacaq və müzakirələr aparılacaq. Beynəlxalq simpoziumda Azərbaycan və Türkiyədən füzulişünas-alimlər, tədqiqatçılar, universitet müəllim və tələbələri iştirak edəcəklər.

Türkiyədəki Azərbaycan səfirliyinin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən hazırlanmış və Məhəmməd Füzuliyə həsr edilmiş ədəbi-bədii, musiqili kompozisiya təqdim ediləcək. Azərbaycanlı müğənni, Beynəlxalq Muğam Mərkəzinin solisti, VI "Muğam" müsabiqəsinin qalibi Almaxanım Əhmədli Füzuliyə həsr olunmuş musiqi nümunələrini və "TRT Türkü" radio kanalının "Azerbaycan rüzgarı" verilişinin aparıcısı Səidə Ömər dahi şairin əsərlərindən şeirlər ifa edəcəklər.

# Anım Gününə həsr olunmuş kitab sərgisi açılıb




**Milli Kitabxanada "27 Sentyabr Anım Günü" adlı virtual sərgi və eyniadlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.**

Kitabxanadan bildirilib ki, virtual sərgidə Anım Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı, mövzu ilə əlaqədar fotolar, kitablar və məqalələr nümayiş olunur.

Ənənəvi sərgidə qazanılan qələbədən, hərb tarixində misli-bərabəri olmayan, görünməmiş hərbi taktikadan, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən hərbi və siyasi strategiyasından, Azərbaycan tarixində öz amalları, əməlləri ilə bir ömür boyu unudulmayacaq dərin izlər qoyan igid, qorxmaz, cəsur Vətən oğullarının - qəhrəmanlarımızın sevincli-kədərli həyat hekayələri, şərəfli döyüş yolları və göstərdikləri şücaətlərdən bəhs edən Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar nümayiş olunur.

Ənənəvi sərgi bir həftə davam edəcək.

# Tanınmış qazaxıstanlı şairin kitabı Azərbaycanda çap olunub

**Qazaxıstanın tanınmış şairi, filoloq-alim, pedaqoq, Əməkdar mədəniyyət xadimi Dəuletkerey Kəpoğlunun şeirlər toplusu Azərbaycanda çap olunub. Azərbaycan və qazax türkcələrində çıxan kitab "Üşüyən küçələr" adlanır.**




Məsləhətçisi və "Ön söz" müəllifi Milli Məclisin deputatı Cavanşir Feyziyev olan bu kitab, Qazaxıstanın Beynəlxalq "Alaş" Ədəbiyyat mükafatı laureatı Əkbər Qoşalının layihə rəhbərliyi və baş redaktorluğu ilə hazırlanıb. Qazax şairinin şeirlərini dilimizə Dünya Gənc Türk Yazarlar Birliyin Məsləhət Şurasının üzvləri olan şairlər İbrahim İlyaslı və Rəsmiyyə Sabir uyğunlaşıdırb, qazaxcadan sətri çevirmə gənc qazax yazarı Karlıgaş Kabaya aiddir.

Nəfis şəkildə nəşr edilən kitabın rəyçiləri Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotu Raimkulova ilə Füzuli Məcidli, koordinatoru isə Mahmud Kaşqarlı Fondunun məsul əməkdaşı, filoloq-alim Xəyalə Zərrabqızıdır. "Üşüyən küçələr"i şairlər - Elşən Əzim və İntiqam Yaşar redaktə edib.

Dəuletkerey Kəpoğlu öz "Üşüyən küçələri"ni bu il oktyabrın 6-da X Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində "Bakı-Ekspo" Mərkəzində "Yaşıl zona"da keçiriləcək "İmza günü"ndə azərbaycanlı oxucular üçün imzalayacaq.

# Vətən müharibəsi şəhidlərinin xatirəsi anılıb

**Azərbaycan İlahiyyat İnstitutunda (AİI) 27 Sentyabr - Anım Gününə həsr olunmuş tədbir keçirilib.**





Öncə Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhları birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra AİI-nin II kurs tələbəsi Qismət Rzayev tərəfindən şəhidlərimizin ruhuna Quran tilavəti təqdim edilib.

AİI rektoru dosent Aqil Şirinov Anım Günü tədbirində çıxış edərək, Vətən müharibəsini şanlı tariximiz, şəhidlər və qazilərin qürur mənbəyimiz olduğunu vurğulayıb. Respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirib.

O qeyd edib ki, Müzəffər Ordumuzun və xalqımızın yazdığı bu tarixi Zəfər sabahımız üçün möhkəm bünövrədir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin imzaladığı Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında sərəncamda qeyd olunduğu kimi, "Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur..."

Daha sonra rektor vurğulayıb ki, vətənimizin igid oğulları ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etdilər. Şəhidlərimizin ruhu şaddır, Qarabağ azaddır! Cənab Prezidentin də qeyd etdiyi kimi, Azərbaycan öz suverenliyini tam təmin edib.

AİI rektoru vurğulayıb ki, Birinci vitse-prezident Mehriban xanım Əliyeva da şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsinə, şəhid ailələrinin, qazilərin hərtərəfli qayğı ilə əhatə olunmasına xüsusi diqqət yetirir, rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirir.

Daha sonra Bakı İlahiyyat Kollecinin direktoru Mehman İsmayılov çıxış edərək 44 günlük Vətən müharibəsinin şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarının özlərindən sonra xalqımıza Vətən boyda əmanət qoyub getdiklərini deyib.

Vətən müharibəsi şəhidi, Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin məzunu Vüqar Məmmədovun anası Əsmər Məmmədova oğlunun ordu sıralarına könüllü qoşulduğunu qeyd edib. Şəhid anası oğlunun keçdiyi döyüş yolundan bəhs edib. O, Vətən müharibəsi şəhidlərini və qazilərini hər zaman yad edən Azərbaycan İlahiyyat İnstitutunun kollektivinə təşəkkürünü bildirib.

Daha sonra AİI İslamşünaslıq kafedrasının dosenti Rəşad Mustafa "Qələbə tariximiz" mövzusunda çıxış edib.

Tədbirdə Azərbaycan Televiziyasının "Tarixin izi ilə" layihəsi çərçivəsində hazırlanmış "Qarabağın qədim tarixi" filmi nümayiş olunub.

*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Cari ilin 9 ayı ərzində şəhid ailəsi üzvlərinə 130 minə yaxın tibbi xidmət göstərilib

**TƏBİB və tabeliyində fəaliyyət göstərən tibb müəssisələri tərəfindən Vətən müharibəsi zamanı şəhid olmuş vətəndaşlarımızın birinci dərəcəli qohumlarının tibbi xidmətlərdən vaxtında yararlanması, müayinə və müalicə işinin təşkili, müvafiq dövlət qurumları ilə birlikdə əlaqəli və çevik xidmətin göstərilməsi istiqamətində görülən işlər davam etdirilir.**

TƏBİB-dən AZƏRTAC-a bildirilib ki, 2024-cü ilin 9 ayı ərzində tibb müəssisələrinə ümumilikdə 5 638 şəhid ailəsi üzvündən 36 min 918 müraciət daxil olub. Bu müraciətlər əsasında şəhid ailə üzvlərinə 127 min 856 adda müxtəlif tibbi xidmət göstərilib. Tibbi xidmətlər, əsasən, terapevtik, kardioloji, endokrinoloji, nevroloji, laborator-diaqnostik, radioloji və s. kimi istiqamətlərdə olub.

"YAŞAT" Fondu tərəfindən Hepatit B, C, onkoloji xəstəliklərdən əziyyət çəkən şəhid ailəsi üzvü olan vətəndaşların dərman vasitələrilə təmin olunmaları üçün 99 vətəndaş müraciəti araşdırılıb və müvafiq qaydada yönləndirilib.

TƏBİB-in "815", eləcə də İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin "1542" Çağrı mərkəzlərindən daxil olmuş 461 müraciət araşdırılaraq cavablandırılıb.

# Ermənistan sülh müqaviləsini imzalamağı bilərəkdən ləngidir

**Bu günlərdə Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsi və region üçün sülh formulundan danışarkən bir daha reallıqları etiraf edib. Paşinyan Nyu Yorkda BMT Baş Assambleyasının ümumi debatları zamanı Azərbaycanla sülh danışıqlarının uğurla nəticələnəcəyini düşündüyünü diqqətə çatdırıb: "İki ölkə arasında sülh nəinki mümkündür, hətta əlçatandır".**



O, həmçinin Ermənistan ərazisindən Azərbaycanı Naxçıvanla birləşdirəcək nəqliyyat dəhlizinin açılmasına kömək göstərməyə hazır olduğunu da deyib. Bu, Bakının sülh müqaviləsi üçün tələb etdiyi əsas şərtlərdən biridir. Paşinyanın sözlərinə görə, Ermənistan konstitusiyasının dəyişdirilməsi ilə bağlı şərtlər də aradan qaldırıla bilər. Dəyişikliklər əsasən ərazi iddialarına aiddir.

Əgər Ermənistanın rəhbərliyi bütün reallıqları etiraf edirsə və çıxış yolunu Azərbaycanla münasibətlərin normallaşmasında görürsə, onda niyə sülh müqaviləsinin imzalanması uzanır? Belə çıxır ki, bir tərəfdən sülh müqaviləsinin imzalanmasını qurtuluş yolu hesab edən Ermənistan rəhbərliyi, deməli, revanşist qüvvələrə, yəni öz ordusunun tör-töküntüsünə rəhbərlik edə bilmir. Digər tərəfdən, baş nazir orduda 5-ci kolonun olduğunu iddia edir.

Bu isə o deməkdir ki, sülh müqaviləsi bağlanmayana və delimitasiya, demarkasiya prosesi getməyənə qədər Ermənistanın təxribatları davam edəcək. Yəni sülh müqaviləsinin imzalanmaması birbaşa Ermənistan rəhbərliyinin siyasi iradəsizliyindən irəli gəlir. Qarşı tərəf Azərbaycanla sülh danışıqlarına getməsə, məsələ daha da uzanacaq.

Əslində, Paşinyanın sülh müqaviləsi ilə bağlı sitatı onun bu prosesi mütəmadi uzatmaq istəyini növbəti dəfə təsdiqləyir. Paşinyan qeyd edib ki, müqavilə imzalanandan sonra sənədin Əsas Qanuna uyğunluğunu Ermənistanın Konstitusiya Məhkəməsi yoxlamalıdır. Əgər bəlli olsa ki, bu, konstitusiyaya ziddir, onda konstitusiyanı dəyişdirməkdən danışmaq olar. Konstitusiya Məhkəməmiz Azərbaycanla sülh sazişinin Ermənistan konstitusiyasına zidd olduğuna qərar verərsə, o halda biz konkret situasiyaya düşəcəyik. Hansı ki, sülhə nail olmaq naminə konstitusiyaya dəyişiklik tələb ediləcək.

Ermənistan konstitusiyasının imzalanacaq sülh müqaviləsi ilə ziddiyyət təşkil edəcəyi heç kimə sirr deyil. Məhz belə bir şəraitdə üç il vaxt istənilməsi də bilərəkdən sazişi uzatmaq məqsədi güdür. Halbuki Ermənistan konstitusiyasından ərazi iddiası ilə bağlı müddəa çıxarıla, sonra sülh sənədi də imzalana bilər. Belə qənaətə gəlmək olar ki, Paşinyana heç bir hüquqi və praktik dəyər daşımayacaq "sülh sənədi" lazımdır.

Göründüyü kimi, Ermənistan məqsədyönlü şəkildə sülh prosesini pozur. Sülh sazişi layihəsi ilə bağlı Ermənistanın son cavabının 70 gün sonra Azərbaycana təqdim olunması da bundan xəbər verir. Son vaxtlar həm Ermənistanda, həm də ona havadarlıq edən ölkələrin parlamentlərində, siyasi dairələrində "Dağlıq Qarabağ" ifadəsinin yenidən tez-tez səsləndirilməyə başlanması, Paşinyan və Mirzoyanın Azərbaycanın Qarabağda antiterror əməliyyatları aparmasının ildönümündə mifik "etnik təmizləmə"dən bəhs etməsi, Ermənistanın Azərbaycanla şərti sərhəddə atəşkəsi tez-tez pozması, ABŞ və Fransa zabitlərinin Ermənistan ordusunda təlimlər keçirməsi, Ermənistan hakimiyyətinin konstitusiya dəyişikliklərinə getməməsi, eləcə də İrəvanın Minsk qrupunun ləğvi ilə bağlı təklifimizə müsbət cavab verməkdən yayınması və s. hallar Ermənistan tərəfinin sülhə yox, müharibəyə hazırlaşdığını göstərir. Təəssüf ki, rəsmi İrəvan bu kimi məsuliyyətsiz addımları ilə məqsədyönlü şəkildə vaxtı uzatmağa çalışır.

Amma unutmamalıdır ki, Ermənistanda baş qaldıran istənilən revanşist təşəbbüsə ən sərt şəkildə cavab veriləcək. Azərbaycana qarşı təxribat və savaşın nə ilə nəticələndiyini Ermənistan əhalisi 44 günlük müharibədən yaxşı bilir. Belə cəhdlər bir də olarsa, bu ölkə dərhal "dəmir yumruğ"un zərbəsini hiss edəcək. Bu səbəbdən Ermənistan öhdəliklərini yerinə yetirməlidir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

# Fransa ac insanlara qarşı zor tətbiq edir

## Bu yaramaz rəftarla rəsmi Paris alovun üstünə yanacaq tökür

**Fransa hökuməti yüksək yaşayış bahalığına görə Martinik adasında davam edən nümayişlərə qarşı yeganə cavab kimi təzyiq və zorakılığa əl atır. Bunu repressiyaya məruz qalmamaq üçün soyadını açıqlamağa ehtiyat edən "Afro-Karib dənizi xalqlarının və resurslarının müdafiəsi ittifaqı"nın (RPPRAC) fransalı nümayəndəsi Meluane deyib.**



Fransızlar tərəfindən XVII əsrdə işğal edilən Martinikdə etirazlar bu il sentyabrın əvvəlindən keçirilir. Ada sakinləri yaşayış bahalığına və ərzaq qiymətlərinin hədsiz dərəcədə qaldırılmasına etiraz etmək üçün supermarketlərin qarşısında nümayişlər keçirirlər. Qida qiymətlərinin materik Fransa ilə müqayisədə 40 faiz baha olduğu Martinikdə etiraz aksiyaları zamanı 30-dan çox adam saxlanılıb.

Adanın səlahiyyətliləri sentyabrın 19-dan 23-dək paytaxt Fort-de-Fransın bəzi hissələrində və Le Lamentin şəhərində komendant saatı elan edib, Paris isə CRS polis xüsusi təyinatlılarını bu ərazilərə yerləşdirib.

Meluane deyib ki, 2009-cu ildə Martinikdə yaşayış bahalığına görə baş verən etiraz aksiyaları iştirakçılarının tələbləri indiyədək diqqətdən kənarda qalıb: "2009-cu ilin böyük tətilindən təxminən 15 il sonra biz təkcə Martinikdə deyil, həm də Qayana, Qvadelupa, Reunion və digər xarici ərazilərdə əhalinin vəziyyətinin pisləşdiyini gördük. Maaşlar yaşayış dəyərinə qətiyyən uyğun gəlmir".

Meluane qeyd edib ki, RPPRAC iyulun 1-də yüksək qiymətlərə görə supermarketlər şəbəkəsinin nümayəndələrinə xəbərdarlıq məktubu göndərib, lakin sözügedən şirkətlər çox cüzi endirimlə razılaşıb və həm də bu barədə çox gec məlumat veriblər. Məktuba cavab verilməsinin gecikməsi ada sakinləri tərəfindən hörmətsizlik əlaməti kimi qəbul edilib. Bundan sonra sentyabrın 1-də Martinikdə yaşayış bahalaşmasına qarşı nümayişlər keçirilib.

Onun sözlərinə görə, etirazçılar supermarket şəbəkələrinin nümayəndələri ilə görüşməyi, həmçinin adadakı qiymətlərin Fransadakı qiymətlərlə müqayisə olunmasını tələb ediblər.

Yığıncaqda Martinik prefekti Jan-Kristof Buvye, supermarketlər şəbəkəsinin nümayəndələri və RPPRAC-ın rəhbəri Rodriq Petito iştirak ediblər, lakin ada sakinlərinin tələbləri nəzərə alınmayıb.

"Hökumətin yeganə cavabı isə təzyiq oldu. Yəni jandarmlar, ümumi təhlükəsizlik qüvvələri və ordu hadisə yerində olub, nümayişçilərə qarşı gözyaşardıcı qazdan istifadə edilib, talan başlayıb", - Meluane bildirib.

RPPRAC nümayəndəsi yaşayış xərcləri ilə bağlı danışıqlarda yerli hakimiyyət orqanları tərəfindən şəffaflığın olmamasını tənqid edib və həmçinin yüksək xərclərlə əlaqədar Martinikdə başlanmış hərəkatın genişləndirilməsi istəyini ifadə edib.

Soyadını açıqlamaq istəməyən RPPRAC-ın fransalı koordinatoru Lindi isə bildirib ki, yaşayış minimumu ilə bağlı tələblərin hələ də konkret həlli yoxdur.

O qeyd edib ki, insanlar küçələrə axışır, çünki qiymətlər materik Fransadakı kimi deyil. Martinikdə qiymətlər çox yüksəkdir.

Lindi Parisin adada atdığı destruktiv addımları tənqid edib. Bu dağıdıcı rəftarla Fransa "oda yanacaq qatır". İttifaqın əlaqələndiricisi ürək ağrısı ilə deyib: "Bizim xahişimiz odur ki, qiymətlər Fransadakı qiymətlərə uyğun olsun. Bu gün isə bizi çəzalandırmaq üşün təhlükəsizlik qüvvələrini göndərirlər. Dinc şəkildə normal qiymətə ərzaq alıb yeyə bilmək üçün mübarizə aparan insanlara - uşaqlara, qadınlara, ahıllara və əlillərə qarşı gözyaşardıcı qazdan istifadə edilir. Və bu, qəsdən edilir".

O əlavə edib ki, gözyaşardıcı qazdan istifadə edilməsinə baxmayaraq, nümayişlər həmişə dinc şəraitdə keçirilib.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


***"Kitablı" MTK ilə Gültən İslam qızı Məmmədova (Abbasova) arasında 18 aprel 2013-cü il tarixdə bağlanmış Bakı şəhəri, Binəqədi rayonu, Mir Cəlal küçəsi, 134A ünvanında yerləşən qaraja aid alqı-satqı müqaviləsi itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə qardaşı
**HABİL QULİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxsin İdarə Heyətinin sədri
**KÖÇƏRLİ HƏSƏNOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı Ağalar Vəliyev Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə qardaşı
**HABİL QULİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4195
Sifariş 2173

Qiyməti 60 qəpik